RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 256 (10001) 4 dekabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycanda insan amili hər zaman prioritetdir



## Sosial məsələlər növbəti ildə də diqqət mərkəzində saxlanılacaq

Əhalinin bütün təbəqələrinə qayğı ilə yanaşılması, hər bir vətəndaşın etibarlı sosial təminatı Azərbaycan dövlətinin prioritetlərindən biridir. İldən-ilə iqtisadi sahədə əldə olunan artımlar, maliyyə imkanlarının yüksəlməsi həm də vətəndaşların sosial rifahında özünü göstərib. Ötən illərin mənzərəsi sübut edir ki, respublikamızda sosial islahatlar davamlıdır. Əhalinin rifah halının yaxşılaşdırılması, o cümlədən həssas qrupdan olan insanlarımıza dövlət dəstəyinin gücləndirilməsi istiqamətində çoxsaylı islahat tədbirləri reallaşdırılıb.

Bu barədə Milli Məclisin dekabrın 2-də keçirilən plenar iclasında da bəhs olundu. İclasda qeyd olunduğu kimi, son illərdə 4 milyon vətəndaşımızı əhatə edən 4 sosial islahat paketi həyata keçirilib. Bu islahatlar əhalinin sosial müdafiəsinin təmin olunmasına, gəlirlərinin artırılmasına, sosial rifahın yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib.

Bu islahatların davamı olaraq 2025-ci ilin əvvəlindən, 5-ci sosial islahat zərfinin icrasına başlanılıb. Bu çərçivədə 1,9 milyon şəxsi əhatə edən və 885 milyon manat vəsaiti özündə ehtiva edən, həmçinin pensiyaların indeksləşdirilməsi də nəzərə alınaraq 1,4 milyard manatlıq sosial islahat zərfi həyata keçirilib.

"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi də göstərir ki, sosial məsələlər növbəti ildə də diqqət mərkəzində saxlanılacaq. Növbəti ilin büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat təşkil edəcək. Ümumilikdə isə sosialyönümlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 41,1 faiz nəzərdə tutulur. Bu da onu göstərir ki, dövlətimizin prioritetlərindən biri insan amilidir. Sosialyönlü xərclərin 89,7 faizi və yaxud 15,4 milyard manatı əməyin ödənişi və sosial təminat xərclərinin payına düşür.

Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinə nəzər salanda respublikamızda həyata keçirilən uğurlu sosial siyasətin məzmununu görmək mümkündür. DSMF-nin 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat təşkil etməklə, cari ilin proqnoz göstəricisi ilə müqayisədə 705,7 milyon manat (9,3 faiz) çoxdur.

DSMF-nin 2026-cı il üçün nəzərdə tutulan xərcləri isə 8 milyard 483 milyon manat proqnozlaşdırılır ki, bu göstərici cari ilə nisbətən 807 milyon manat və ya 10,5 faiz artıqdır. Əlbəttə ki, hər bir artım ilk növbədə vətəndaşın rifahının yüksəldilməsi deməkdir. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini əhaliyə ödənişlər təşkil edəcək.

Respublikada əmək pensiyalarının orta aylıq məbləğinin 2025-ci ildə 540 manat, 2026-cı ildə isə 590 manat olacağı gözlənilir. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 576 manatdan 629 manata yüksəlməsi proqnozlaşdırılır.

5

## Şanlı Zəfərdən böyük quruculuğa



Azərbaycanın 30 il işğal altında qalmış torpaqları bu illər ərzində "vəhşi tayfalar" - haylar tərəfindən amansızcasına tar-mar edilmiş şəhər və kəndlər tamamilə viran qoyulmuşdu. Tarixi abidələr, yollar, məktəblər, xəstəxanalar, yaşayış binaları xarabalığa çevrilmişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin strateji düşüncəsinin bəhrəsi olan möhtəşəm layihələr və onların həlli sürətlə gerçəkləşir. Dövlət başçısı bu ilin fevralında müsahibəsində böyük qürur hissi ilə qeyd etdi ki, "Azərbaycan 2021-ci ildən Qarabağın və Şərqi Zəngəzurun bərpasına 19 milyard manatdan çox vəsait ayırıb". Görülən işlər böyük miqyası əhatə edir. Xatırladaq ki, su-elektrik stansiyaları Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Bölgədə ümumi 280 meqavat gücündə 30 kiçik su-elektrik stansiyası artıq istismara verilib. Yeni kənd və qəsəbələr, şəhərlər öz doğma sakinlərinə 35 illik fasilədən sonra qucaq açıb. İşğaldan azad edilmiş ərazilərimizdə 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə indiyədək 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Qarabağ və Şərqi Zəngəzura bu il noyabr ayının 1-dək 20879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin olunub. Buradakı bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxsləri və Qarabağ Universitetində təhsil alan tələbələri də nəzərə alsaq, hazırda işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı təxminən 62 min nəfər təşkil edir. Bu proses yüksək səviyyədə davam edir.

6

## Cənubi Qafqazdakı barış qlobal əməkdaşlığa da töhfə verəcək

### Sülh prosesinin qorunması və irəli aparılması ABŞ-dan Çinə qədər böyük bir coğrafiyanın maraq dairəsindədir




Azərbaycan Trans-Xəzər Nəqliyyat Dəhlizi boyunca əsas tərəfdaşdır. Hətta Aİ-nin genişləndirmə üzrə komissarı Marta Kos bir müddət öncə müsahibəsində bildirmişdi ki, Aİ-Azərbaycan iqtisadi əməkdaşlığını gücləndirmək və investisiyaları artırmaq imkanlarını araşdırmaq üçün Yüksək Səviyyəli İqtisadi İşçi Qrupu yaratmaq barədə razılığa gəlib. Digər tərəfdən Qara dənizdə baş verən hadisələr Qazaxıstan neftinin daşınması alternativini Novorossiysk limanından Bakı-Tbilisi-Ceyhan üzərinə keçirə bilər. Bütün bunlar Azərbaycanın yürütdüyü nəqliyyat və kommunikasiyaların maksimum şaxələndirilməsi siyasətinin nə qədər uzaqgörən olduğunu göstərir.

44 günlük Vətən müharibəsindən sonra Aİ regionda yaratdığımız yeni reallıqları qəbul etmək istəmirdi. Amma Azərbaycan dövləti öz mövqeyini dəyişmədi və yaratdığımız sülh və əməkdaşlıq gündəliyi dünya tərəfindən qəbul edildi. Bu ilin avqustunda Vaşinqtonda imzalanmış sazişlər və paraflanmış sülh gündəliyi Aİ-ni regionumuzla bağlı baxışlarını dəyişdirməsinə məcbur etdi.

Zəngəzur dəhlizinin Ermənistandan keçən seqmentinin TRIPP layihəsi adlandırılması və bu dəhlzin açılmasında ABŞ-nin israrlı olması Aİ-ni də hərəkətə keçirdi.

6

## Yeni təşəbbüslər, yeni marşrutlar

### Azərbaycanın logistik imkanları genişlənəcək

Orta dəhlizin cənub qanadı hesab edilən Avrasiya Nəqliyyat Marşrutu Çin, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən mühüm nəqliyyat arteriyasıdır. Noyabr ayından Çinin Qaşqar şəhərindən Azərbaycana Qırğızıstan, Özbəkistan və Türkmənistandan keçməklə multimodal daşımalara başlanılıb. Onu da nəzərə çatdıraq ki, yeni Özbəkistan-Qırğızıstan-Çin dəmir yolunun tikintisi marşrutun əhəmiyyətini daha da artıracaq. Bununla yanaşı, Avrasiya Nəqliyyat Marşrutu Orta dəhlizlə Trans-Əfqan dəhlizi arasında bağlantı yaradaraq Əfqanıstan və Pakistan üçün yeni logistik imkanlar açacaq. Bunlardan əlavə, Orta dəhlizin cənub qanadının inkişafı Azərbaycanın Mərkəzi Asiya ilə Avropa arasında əsas nəqliyyat körpüsü kimi rolunu da gücləndirəcək, tranzit həcmlərinin artmasına imkan verəcək, həmçinin Bakı limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm infrastrukturun səmərəli istifadəsini təmin edəcək. Zəngəzur dəhlizinin (TRIPP) gələcəkdə fəaliyyətə başlaması isə bu imkanları daha da genişləndirəcək.



Bu günlər assosiasiyanın üzvləri olan Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistan dəmir yolu administrasiyalarının rəhbər heyətləri bu qurumun fəaliyyətə başlaması üçün zəruri tədbirləri müzakirə edib və korporativ struktur, katiblik, işçi orqanların formalaşdırılması, eləcə də fəaliyyət planı təsdiq ediblər.

9

## ATƏT-in Minsk qrupunun ləğv edilməsi Azərbaycan Prezidentinin liderliyinin nəticəsidir

1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün beynəlxalq vasitəçilik mexanizmi kimi nəzərdə tutulmuşdu. Lakin bu platforma üç onillik ərzində Ermənistanın 1988-ci ildən 2020-ci ilin noyabrınadək işğal altında saxladığı Azərbaycan ərazilərində həyata keçirdiyi ərazi iddiaları, işğal siyasəti və genişmiqyaslı minalama fəaliyyətini dayandıra bilmədi. Təhlükəsizlik üzrə beynəlxalq analitiklər Minsk qrupunu zəif, korrupsiyalaşmış, funksional olmayan və bürokratiya ilə yüklənmiş bir struktur kimi xarakterizə edirlər. Onun bağlanması çoxtərəfli təşkilatların nüfuzunun qorunmasına böyük töhfədir. Çünki Minsk qrupu illər ərzində Ermənistanın informasiya müharibəsinin bir alətinə və üçüncü dərəcəli diplomatların formalaşdığı bir məkana çevrilmişdi. 1992-2020-ci illər arasında Minsk qrupu Ermənistanın Azərbaycan ərazilərini işğalına son qoya bilmədi və Ermənistanın işğalçı silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması üçün heç bir real siyasi təzyiq göstərmədi. Beynəlxalq diplomatiyanın bu fəaliyyətsiz elementləri Ermənistan və Azərbaycan arasındakı münaqişənin dondurulması istiqamətində ciddi şəkildə çalışırdı. Beynəlxalq münasibətlər üzrə tədqiqatçı Pedro Eskobar Medina qeyd edir ki, "ATƏT-in Minsk qrupunun rolu illər keçdikcə münaqişəni uzatmağa yönəlmişdi və Cənubi Qafqazda davamlı sülhün təmin olunmasına sıfır töhfə vermişdi.




7

# Dövlət xidmətləri haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. "ASAN xidmət indeksi" - normativ hüquqi aktlarda nəzərdə tutulmuş tələblər rəhbər tutulmaqla müəyyən edilən qiymətləndirmə meyarları və altmeyarları vasitəsilə dövlət xidmətlərinin təşkilinin və cari vəziyyətinin öyrənilməsi məqsədilə məlumatların toplanılması və qiymətləndirilməsinin ölçü vahidi;

1.1.2. dövlət xidməti - xidmət təminatçıları tərəfindən səlahiyyətlərinin icrası ilə əlaqədar göstərilən və müəyyən hüquqi nəticənin yaranmasına, yaxud xidmət istifadəçisinə zəruri informasiyanın verilməsinə səbəb olan hərəkətlərin məcmusu;

1.1.3. dövlət xidmətinin dizaynı - dövlət xidmətinin formalaşdırılması sahəsində ehtiyac və tələbləri müəyyən edən, konseptual və funksional həllər toplusu;

1.1.4. dövlət xidmətinin göstərilmə yeri - xidmət təminatçısı tərəfindən öz inzibati binasında və ya ondan kənarda dövlət xidmətinin göstərildiyi məkan, o cümlədən səyyar xidmətin göstərildiyi yer, habelə dövlət xidmətlərinin göstərildiyi vahid xidmət mərkəzi və ya informasiya sistemi;

1.1.5. dövlət xidmətinin reqlamenti - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi nümunəvi formaya uyğun olaraq xidmət təminatçısı tərəfindən təsdiq edilən, dövlət xidmətlərinin göstərilməsi ilə bağlı normativ hüquqi aktların tələblərini əks etdirən rəsmi sənəd;

1.1.6. Dövlət Xidmətlərinin Elektron Reyestri (bundan sonra - DXER) - dövlət xidmətləri barədə məlumatları əks etdirən vahid informasiya sistemi;

1.1.7. dövlət xidmətlərinin keyfiyyətinə nəzarət - xidmət təminatçıları tərəfindən dövlət xidmətlərinin göstərilməsi zamanı hüquqi aktların tələblərinə riayət edilməsinə nəzarət;

1.1.8. elektron xidmət - dövlət xidmətlərinin informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə tərəflər arasında bilavasitə təmas olmadan (xidmətin məqsədləri üçün belə təmasın tələb edildiyi hallar istisna olmaqla) xidmət istifadəçilərinə göstərilmə forması;

1.1.9. xidmət istifadəçiləri - dövlət xidmətindən istifadə üçün müraciət etmiş və ya xidmət göstərilən dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər, o cümlədən dövlət mülkiyyətində olan, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər, digər büdcə təşkilatları və Azərbaycan Respublikasının qanunlarında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, habelə Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları, beynəlxalq təşkilatların bölmələri, nümayəndəlikləri və orqanları;

1.1.10. xidmət təminatçısı - dövlət xidmətini göstərən dövlət orqanı və yerli özünüidarəetmə orqanı, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxs, dövlət adından yaradılan publik hüquqi şəxs, digər büdcə təşkilatı, habelə qanuna əsasən inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs;

1.1.11. vahid xidmət mərkəzi - dövlət xidmətlərinin xidmət təminatçıları və özəl təşkilatlarla birgə göstərildiyi məkan.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

**Maddə 2. Dövlət xidmətləri haqqında qanunvericilik**

2.1. Dövlət xidmətləri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, "İnzibati icraat haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarından, dövlət xidmətlərinin göstərilməsini tənzimləyən sahəvi qanunlardan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

2.2. Ələt Azad İqtisadi Zonasında dövlət xidmətləri ilə bağlı münasibətlər bu Qanunun 3-cü maddəsi ilə müəyyən edilən prinsiplər nəzərə alınmaqla "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

2.3. Dövlət xidmətlərinin göstərilməsi zamanı fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi, eləcə də həmin məlumatların toplanıldığı, işlənildiyi və mühafizə olunduğu informasiya ehtiyatlarının və sistemlərinin dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir.

2.4. Elektron formada göstərilən dövlət xidmətlərinin formalaşdırılması, dizayn edilməsi, təşkili və təkmilləşdirilməsi, qiymətləndirilməsi, reqlamentinin tərtib və təsdiq edilməsi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

**Maddə 3. Dövlət xidmətlərinin göstərilməsinin əsas prinsipləri**

3.1. Dövlət xidmətlərinin göstərilməsində "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən prinsiplərlə yanaşı aşağıdakı prinsiplər rəhbər tutulur:

3.1.1. dövlət xidmətlərinin istifadəçiyönümlü təşkili, operativ və ünvanlı göstərilməsi, habelə dövlət xidmətlərinin göstərilməsində innovativ üsulların, həllərin və rəqəmsal texnologiyaların tətbiqinə üstünlük verilməsi;

3.1.2. irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq xidmət istifadəçilərinə bərabər şərtlərlə dövlət xidmətlərinin göstərilməsi;

3.1.3. dövlət xidmətlərinin peşəkar göstərilməsi;

3.1.4. dövlət xidmətlərinin göstərilməsinin hesabatlılığı;

3.1.5. dövlət xidmətlərinin keyfiyyətliliyi, rahatlığı və əlçatanlığı;

3.1.6. dövlət xidmətlərinin göstərilməsində əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin olunması;

3.1.7. dövlət xidmətlərinin göstərilməsinin şəffaflığı, nəzakətlilik və məsuliyyətlilik;

3.1.8. dövlət xidmətinin göstərilməsində digər xidmət təminatçıları ilə qarşılıqlı fəaliyyət, aralarında davamlılıq, yaxud asılılıq olan dövlət xidmətlərinin əlaqələndirilmiş formada təşkili;

3.1.9. xidmət istifadəçilərinin hüquqlarının pozulmasının qarşısının alınması;

3.1.10. dövlət xidmətlərinin göstərilməsi prosesinin mütəmadi təkmilləşdirilməsi;

3.1.11. dövlət xidmətlərinin göstərilməsinin qanuniliyi və səmərəliliyi.

**Maddə 4. Xidmət istifadəçilərinin hüquq və vəzifələri**

4.1. Xidmət istifadəçiləri aşağıdakı hüquqlara malikdirlər:

4.1.1. dövlət xidmətləri haqqında tam, aktual və düzgün məlumat almaq;

4.1.2. dövlət xidmətlərinin Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına və dövlət xidmətinin reqlamentinə uyğun olaraq göstərilməsini tələb etmək;

4.1.3. xidmət təminatçılarının vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) qanunla müəyyən olunmuş qaydada yuxarı inzibati orqana və məhkəməyə şikayət etmək;

4.1.4. qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla barəsində aparılan icraat materialları ilə tanış olmaq;

4.1.5. dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra-EHİS) vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlərin və məlumatların müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsini xidmət təminatçısından tələb etmək;

4.1.6. dövlət xidmətlərinin təkmilləşdirilməsinə və sadələşdirilməsinə dair xidmət təminatçısına təkliflər vermək;

4.1.7. dövlət xidmətlərindən eyni şərtlərlə və bərabərhüquqlu istifadə etmək;

4.1.8. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

4.2. Xidmət istifadəçilərinin vəzifələri aşağıdakılardır:

4.2.1. dövlət xidmətlərindən istifadə zamanı normativ hüquqi aktların tələblərinə riayət etmək;

4.2.2. dövlət xidmətlərinin göstərilməsi zamanı xidmət təminatçılarının sorğularını doğru cavablandırmaq, təqdim etdiyi sənədlərin (məlumatların) düzgünlüyünü və etibarlılığını təmin etmək;

4.2.3. göstərilən dövlət xidməti üzrə qanunla müəyyən edilmiş hallarda və məbləğdə dövlət rüsumu və (və ya) xidmət haqqı (ödəniş) ödəmək.

**Maddə 5. Xidmət təminatçılarının hüquq və vəzifələri**

5.1. Xidmət təminatçıları aşağıdakı hüquqlara malikdirlər:

5.1.1. dövlət xidmətlərinin göstərilməsi ilə bağlı digər xidmət təminatçılarına əsaslandırılmış sorğu vermək;

5.1.2. bu Qanunun 5.3-cü maddəsinin tələblərini nəzərə almaqla dövlət xidmətlərinin göstərilməsi ilə bağlı sənədləri (məlumatları) xidmət istifadəçilərindən tələb etmək;

5.1.3. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblər çərçivəsində hüquqi yardım almaq;

5.1.4. normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda dövlət xidmətlərinin göstərilməsindən imtina etmək və ya onların göstərilməsini dayandırmaq;

5.1.5. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

5.2. Xidmət təminatçılarının vəzifələri aşağıdakılardır:

5.2.1. bu Qanunun 2.1-ci maddəsində qeyd edilən normativ hüquqi aktların tələblərinə uyğun olaraq dövlət xidmətlərini göstərmək və nəticəsi barədə xidmət istifadəçilərini məlumatlandırmaq;

5.2.2. xidmət istifadəçilərinin hüquqlarının qanunsuz və ya əsassız məhdudlaşdırılmasına yol verməmək;

5.2.3. xidmət istifadəçilərinin müraciətlərinə uyğun olaraq qanunla müəyyən edilmiş qaydada inzibati akt, texniki sənəd və ya digər hüquqmüəyyənedici sənəd təqdim etmək və ya informativ xidmət göstərməklə zəruri informasiya vermək;

5.2.4. dövlət xidmətlərinin göstərilməsi üçün zəruri məlumatları özündə cəmləşdirən informasiya ehtiyatlarının və sistemlərinin fasiləsiz işləməsini təmin etmək, baş vermiş nasazlıqları dərhal aradan qaldırmaq üçün tədbirlər görmək;

5.2.5. dövlət xidmətlərinin göstərildiyi informasiya ehtiyatlarında və sistemlərində aparılan təkmilləşdirilmə işləri barədə xidmət istifadəçilərini elektron qaydada məlumatlandırmaq;

5.2.6. əlilliyi olan şəxslərin dövlət xidmətlərindən istifadəsinə şərait yaratmaq və normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda onlara səyyar xidmət göstərmək;

5.2.7. fərdi məlumatların toplanılması və işlənilməsi ilə bağlı normativ hüquqi aktların tələblərinə riayət etmək;

5.2.8. dövlət xidmətlərinin həyata keçirilməsi ilə bağlı inzibati prosedurları sadələşdirmək, həmin xidmətləri təkmilləşdirmək və keyfiyyətini yüksəltmək;

5.2.9. dövlət xidmətlərinin reqlamentlərini dövlət xidmətlərinin təşkili və göstərilməsi ilə bağlı normativ hüquqi aktlarda müəyyən edilən tələbləri nəzərə almaqla hazırlamaq;

5.2.10. dövlət xidmətinin göstərilmə yerlərində daxili nəzarət mexanizmini təmin etmək;

5.2.11. xidmət istifadəçilərini dövlət xidmətlərinin göstərilməsi qaydaları ilə bağlı məlumatlandırmaq;

5.2.12. dövlət xidmətlərinin etik davranış qaydalarına əməl olunmaqla həyata keçirilməsini təmin etmək;

5.2.13. dövlət xidmətlərinin göstərilməsində korrupsiya risklərinin idarə edilməsi istiqamətində tədbirlər görmək;

5.2.14. dövlət xidmətlərinə əlçatanlığın təmin olunması üçün innovativ həlləri tətbiq etmək;

5.2.15. dövlət xidmətləri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məlumatları DXER-ə daxil etmək və onların aktuallığını təmin etmək, tamlığını və düzgünlüyünü mütəmadi yoxlamaq;

5.2.16. dövlət xidmətlərinin göstərilməsi üçün digər xidmət təminatçıları ilə EHİS vasitəsilə qarşılıqlı məlumat və sənəd mübadiləsi aparmaq;

5.2.17. dövlət xidmətlərinin, o cümlədən elektron xidmətlərin göstərilməsi zamanı istifadə edilən dövlət informasiya ehtiyatlarını və sistemlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində qeydiyyata almaq;

5.2.18. xidmət istifadəçilərinə dövlət xidmətlərinin göstərilməsindən imtinanın və ya xidmətin göstərilməsinin dayandırılmasının hüquqi əsası, habelə şikayət etmək hüququ barədə məlumat vermək;

5.2.19. normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda qəbul etdiyi inzibati aktın ləğv olunması və ya dəyişdirilməsi ilə bağlı tədbirlər görmək;

5.2.20. EHİS vasitəsilə əldə edilməsi mümkün olan, qanunla dövlət xidmətlərinin göstərilməsi üçün müraciətə əlavə edilməli sənədlərin və məlumatların siyahısının rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsini, habelə mütəmadi yenilənməsini təmin etmək;

5.2.21. rəsmi sənədlərin saxtalaşdırılması, qanunsuz hazırlanması və belə sənədlərin təqdim edilməsi halları ilə bağlı aidiyyəti hüquq-mühafizə orqanlarına dərhal məlumat vermək;

5.2.22. dövlət xidmətlərinin göstərildiyi informasiya ehtiyatlarının və sistemlərinin hökumət buludunda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini həyata keçirmək;

5.2.23. bu Qanunun 2.1-ci maddəsində qeyd edilən normativ hüquqi aktlardan irəli gələn digər vəzifələri yerinə yetirmək.

5.3. Xidmət təminatçısı tərəfindən qanunla müraciətə əlavə edilməli olan sənədlərin vəməlumatların EHİS vasitəsilə müvafiq xidmət təminatçılarından əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar xidmət istifadəçisindən tələb edilmir. Belə sənədlərin və məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi xidmət istifadəçisinin razılığı ilə sorğu əsasında müvafiq xidmət təminatçılarından tələb olunur və ya xidmət istifadəçiləri tərəfindən təmin edilir. Həmin sənədlər "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 32.4-cü maddəsinə uyğun olaraq kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.

**Maddə 6. Dövlət xidmətlərinin formalaşdırılması**

6.1. Dövlət xidmətlərinin formalaşdırılması, təşkili və təkmilləşdirilməsi bu Qanuna uyğun olaraq xidmət təminatçıları tərəfindən həyata keçirilir.

6.2. Xidmət təminatçıları tərəfindən dövlət xidmətləri normativ hüquqi aktlarla həmin xidmət təminatçısına dövlət xidməti göstərilməsi sahəsində səlahiyyət verildikdə formalaşdırılır.

6.3. Xidmət istifadəçisi üçün vahid hüquqi nəticənin yaranmasına səbəb olan hər hansı bir inzibati icraat fərqli xidmət təminatçıları tərəfindən təmin edilən bir neçə dövlət xidmətindən ibarətdirsə, həmin dövlət xidmətləri xidmət təminatçıları, vahid xidmət mərkəzlərində isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən əlaqələndirilməklə formalaşdırılmalıdır.

6.4. Dövlət xidmətinin göstərilməsinə yalnız həmin xidmət üzrə məlumatlar DXER-ə daxil edildikdən sonra yol verilir.

**Maddə 7. Dövlət xidmətinin reqlamenti**

7.1. Dövlət xidmətinin reqlamenti xidmət təminatçısı tərəfindən dövlət xidməti dizayn edildikdən sonra hazırlanır və təsdiq edilir.

7.2. Xidmət təminatçıları xidmətləri normativ hüquqi aktların tələbləri və dövlət xidmətinin reqlamenti əsasında göstərirlər.

### 2-ci fəsil
### DÖVLƏT XİDMƏTLƏRİNİN ELEKTRON REYESTRİ

**Maddə 8. Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması**

8.1. Dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanılması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması, dövlət xidmətlərinin göstərilməsi sahəsində çevikliyin təmin edilməsi və xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədilə DXER təşkil edilir.

8.2. DXER vasitəsilə aşağıdakılar təmin edilir:

8.2.1. dövlət xidmətlərinin DXER-də qeydiyyata alınması;

8.2.2. dövlət xidmətləri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məlumatların DXER-ə daxil edilməsi, daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi;

8.2.3. dövlət xidmətlərinin DXER-dən çıxarılması.

8.3. Xidmət təminatçıları tərəfindən yeni xidmət müəyyən edən normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən 30 (otuz) iş günündən gec olmayaraq dövlət xidmətinin reqlamenti DXER-ə daxil edilməsi üçün təqdim edilməlidir.

8.4. Xidmət təminatçıları tərəfindən DXER-ə xidmətlər barədə məlumatlar elektron kabinet üzərindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək göndərilir.

8.5. DXER-in operatoru tərəfindən 7 (yeddi) iş günü müddətində xidmət təminatçısı tərəfindən göndərilmiş məlumatların tamlığı və düzgünlüyü yoxlanılır və bu barədə xidmət təminatçısına elektron formada bildiriş göndərilir. Aşkar edilmiş çatışmazlıqlar xidmət təminatçısı tərəfindən aradan qaldırılaraq 7 (yeddi) iş günü müddətində yenidən DXER-in operatoruna göndərilir.

8.6. Yoxlama zamanı çatışmazlıq aşkar edilmədikdə, habelə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra məlumatların tamlığı və düzgünlüyü DXER-in operatoru tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilir.

8.7. Məlumatları DXER-ə daxil edilmiş hər bir xidmətə təkrarolunmaz və dəyişilməz reyestr nömrəsi verilir.

8.8. DXER-in əsasnaməsi, sahibi, operatoru, habelə DXER-informalaşdırılması, aparılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

8.9. Elektron xidmətlərin reyestri "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır. DXER-də qeydiyyata alınan xidmətlərin elektronlaşdırılması barədə məlumatlar real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

**Maddə 9. Dövlət xidməti haqqında məlumatlarda dəyişiklik edilməsi və dövlət xidmətinin DXER-dən çıxarılması**

9.1. DXER-də qeydə alınmış xidmətlər haqqında məlumatlarda dəyişiklik edilməsi üçün xidmət təminatçısı tərəfindən 7 (yeddi) iş günü müddətində DXER-in operatoruna bu barədə elektron formada bildiriş göndərilir. DXER-in operatoru qeyd edilən bildirişi aldıqdan sonra bu Qanunun 8-ci maddəsinə uyğun olaraq DXER-də dəyişikliyin aparılması üçün tədbirlər görür.

9.2. DXER-də qeydə alınmış dövlət xidmətləri haqqında məlumatların dəyişiklik edilməsi zərurəti DXER-in operatoru tərəfindən aşkar edildikdə xidmət təminatçısına bu barədə 1 (bir) iş günü müddətində elektron formada bildiriş göndərilir. Xidmət təminatçısı bildirişi aldıqdan sonra 7 (yeddi) iş günü müddətində müvafiq dəyişikliyi edərək bu barədə DXER-in operatoruna elektron formada bildiriş göndərir. DXER-in operatoru qeyd edilən bildirişi aldıqdan sonra bu Qanunun 8-ci maddəsinə uyğun olaraq DXER-də dəyişikliyin aparılması üçün tədbirlər görür.

9.3. Xidmətin həyata keçirilməsi əsaslarını ləğv edən normativ hüquqi aktın qüvvəyə minməsi və DXER-ə daxil edilmiş məlumatların normativ hüquqi aktlarda nəzərdə tutulmaması dövlət xidmətinin DXER-dən çıxarılması üçün əsasdır. Xidmətin DXER-dən çıxarılması əsası xidmət təminatçısı tərəfindən müəyyən edildikdə 7 (yeddi) iş günü müddətində xidmət təminatçısı DXER üzərindən DXER-in operatoruna elektron müraciət edir və həmin müraciət əsasında DXER-in operatoru tərəfindən 1 (bir) iş günü müddətində xidmət DXER-dən çıxarılır.

9.4. Xidmətin DXER-dən çıxarılma əsasları DXER-in operatoru tərəfindən aşkarlandıqda bu barədə 7 (yeddi) iş günü müddətində xidmət təminatçısına elektron bildiriş göndərilir. Xidmət təminatçısı xidmətin DXER-dən çıxarılması üçün 3 (üç) iş günü müddətində DXER-in operatoruna elektron müraciət edir və DXER-in operatoru tərəfindən 3 (üç) iş günü müddətində xidmət DXER-dən çıxarılır. Xidmət təminatçısı tərəfindən xidmətin DXER-dən çıxarılması üçün3 (üç) iş günü müddətində DXER-in operatoruna elektron müraciət edilmədikdə xidmət DXER-dən çıxarılır.

9.5. DXER-dən çıxarılmış xidmətlər haqqında müvafiq məlumatlar DXER-in operatoru tərəfindən arxivləşdirilir və mühafizə edilir.

9.6. Xidmət təminatçısı olan qurumun ləğv edilməsi halında xidmətin həyata keçirilmə səlahiyyəti digər xidmət təminatçısına verildikdə müvafiq xidmətlə bağlı hüquq və vəzifələr bu Qanunun 9.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həmin xidmət təminatçısı tərəfindən həyata keçirilir.

### 3-cü fəsil
### DÖVLƏT XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ

**Maddə 10. Dövlət xidmətlərinin göstərilməsində əlçatanlığın təmin edilməsi**

10.1. Xidmət istifadəçilərinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi ilə bağlı dövlət xidmətləri aşağıdakı tələblərə cavab verməlidir:

10.1.1. normativ hüquqi aktlarda nəzərdə tutulan və işin həlli üçün zəruri olan sənədlərin və məlumatların dəqiq siyahısının müəyyənləşdirilməsi və xidmət istifadəçilərinin həmin siyahı barədə, eləcə də xidmətin göstərilməsinə əsas verən hüquqi aktlar barədə məlumatlandırılması;

10.1.2. xidmətin icra müddətinin və normativ hüquqi aktla nəzərdə tutulmuş müddətdə göstərilməsi şərtlərinin dəqiq müəyyənləşdirilməsi və xidmət istifadəçilərinin bu barədə məlumatlandırılması;

10.1.3. qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət xidmətinin göstərilməsi üzrə müraciətlərə növbəlilik prinsipi üzrə ardıcıllıqla baxılması;

10.1.4. elektron xidmətin xidmət təminatçısının informasiya ehtiyatı və sistemi EHİS-ə inteqrasiya edilməklə EHİS üzərindən və ya rəsmi internet informasiya ehtiyatında (yaxud sahəvi portallarda) EHİS-ə keçid verilməklə göstərilməsi;

10.1.5. xidmətə onlayn qaydada, çağrı mərkəzi vasitəsilə və ya xidmət yerində müraciət etmək imkanının təmin edilməsi.

10.2. Dövlət xidmətinin göstərilməsi ilə əlaqədar həmin xidmət üzrə xidmət təminatçısından əlavə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər tərəfindən əlavə xidmətlər göstərilirsə, həmin fiziki və hüquqi şəxslərin siyahısı xidmət təminatçısının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və aktuallığı təmin edilir.

**Maddə 11. Dövlət xidmətlərinin formaları**

11.1. Tətbiq olunduğu subyektlərin dairəsinə görə dövlət xidmətlərinin formaları aşağıdakılardır:

11.1.1. fiziki şəxslərə göstərilən xidmətlər;

11.1.2. sahibkarlıq subyektlərinə, habelə qeyri-kommersiya hüquqi şəxslərinə göstərilən xidmətlər;

11.1.3. xidmət təminatçılarına göstərilən xidmətlər.

11.2. Göstərilmə üsuluna görə dövlət xidmətlərinin formaları aşağıdakılardır:

11.2.1. fiziki formada göstərilən xidmətlər;

11.2.2. elektron formada göstərilən xidmətlər.

**Maddə 12. Dövlət xidmətlərinin fiziki formada göstərilməsi**

12.1. Fiziki formada göstərilən dövlət xidmətləri xidmət təminatçılarının inzibati binalarında və ya ondan kənarda dövlət xidmətinin göstərildiyi məkanlarda, vahid xidmət mərkəzlərində, habelə səyyar formada və ya çağrı mərkəzləri vasitəsilə həyata keçirilir.

12.2. Fiziki formada göstərilən xidmətin nəticəsi elektron sənəd, yaxud kağız daşıyıcıda inzibati akt, texniki sənəd, digər hüquqmüəyyənedici sənəd şəklində və ya informativ xidmətin verilməsi ilə təqdim edilir.

12.3. Dövlət xidmətlərinin göstərilməsinin çevikliyini, səmərəliliyini artırmaq, habelə xidmət istifadəçilərinin əlavə vaxt itkisinin və məsrəflərinin qarşısını almaq, xidmətlərin daha keyfiyyətli, rahat və innovasiyaları tətbiq etməklə həyata keçirilməsini təmin etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən hallarda dövlət xidmətləri xidmət təminatçısına tabe olmayan, maraqlar toqquşmasını istisna edən nəzarət və monitorinq mexanizminin təmin edildiyi vahid və əlaqələndirilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vahid xidmət mərkəzlərində həyata keçirilə bilər. Bu halda xidmət təminatçısı tərəfindən vahid xidmət mərkəzlərində həyata keçirilən dövlət xidmətinin dizaynının hazırlanması və reqlamentinin təsdiq edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla həyata keçirilir.

12.4. Dövlət xidmətinin xüsusiyyətləri nəzərə alınaraq resurslara qənaət edilməsi və xidmət istifadəçilərinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi məqsədilə, əhaliyə kommunal xidmətlər göstərən xidmət təminatçıları, eləcə də tabeliyində çağrı mərkəzləri olmayan xidmət təminatçıları, yaxud tabeliyində çağrı mərkəzləri olan müvafiq xidmət təminatçılarının müraciəti ilə həmin xidmət təminatçılarının çağrı xidmətləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) çağrı mərkəzi vasitəsilə həyata keçirilə bilər.

**Maddə 13. Dövlət xidmətlərinin elektron formada göstərilməsi**

13.1. Dövlət xidmətlərinin elektron formada göstərilməsi dövlət xidməti bu Qanunun 6-cı maddəsinə əsasən formalaşdırıldıqdan, habelə müvafiq elektron xidmət "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-1.2-ci maddəsinə uyğun olaraq təşkil edildikdən sonra həyata keçirilir.

13.2. Dövlət xidmətinin elektronlaşdırılması ilə əlaqədar xidmət təminatçıları tərəfindən təqdim olunan layihələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada onların texniki və səmərəliliyi baxımından məqsədəuyğunluğu barədə rəy verilir.

13.3. Elektron xidmətlər xidmət təminatçısının informasiya ehtiyatı və sistemi EHİS-ə inteqrasiya edilməklə EHİS üzərindən və ya rəsmi internet informasiya ehtiyatında (yaxud sahəvi portallarda) EHİS-ə keçid verilməklə göstərilir.

13.4. Xidmət istifadəçilərinə göstərilən xidmətlər haqqında məlumatları, habelə barələrində sorğu edilən məlumatları əldə etmələri üçün onlara EHİS vasitəsilə elektron kabinetlərində imkan yaradılmalıdır.

13.5. Elektron xidmətlərin göstərilməsinin nəticəsi elektron sənəd, yaxud kağız daşıyıcıda inzibati akt, texniki sənəd, digər hüquqmüəyyənedici sənədin və ya informativ elektron xidmətlər üzrə məlumatın verilməsi ilə təqdim edilir.

13.6. Elektron xidmətin göstərildiyi informasiya ehtiyatının və sisteminin sahibi və ya operatoru dövlət informasiya ehtiyatına və sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsini, habelə daxil edilmiş məlumatların aktuallığını, etibarlılığını, təhrifolunmazlığını, əlçatanlığını, tamlığını, konfidensiallığını və tətbiqi proqram təminatı səviyyəsində məlumatların icazəsiz daxil olmalardan mühafizəsini, təhlükəsizliyini, habelə xidmət istifadəçisinin məlumatlarının dəyişməzliyini təmin etməlidir.

13.7. Elektron xidmətlər informativ, interaktiv və ya proaktiv formada həyata keçirilə bilər.

13.8. Dövlət xidməti xidmət təminatçısı tərəfindən xidmət istifadəçilərinin sorğusu əsasında müxtəlif məsələlər üzrə məlumatlandırma formasında göstərilən informativ xidmət formasında təşkil edilə bilər.

13.9. Dövlət xidməti xidmət istifadəçisinin informasiya ehtiyatları və sistemləri üzərindən göndərdiyi müraciəti əsasında müvafiq informasiya, sənəd və ya digər hüquqi nəticənin əldə edilməsi üçün xidmət təminatçısı ilə qarşılıqlı məlumat mübadiləsi təmin edilməklə göstərilən interaktiv xidmət formasında təşkil edilə bilər.

13.10. Dövlət xidməti xidmət istifadəçisinin yaranmış hüquqlarının təmin edilməsi məqsədilə xidmət təminatçısı tərəfindən xidmət istifadəçilərinin müraciəti olmadan informasiya ehtiyatlarında və sistemlərində müvafiq həllər tətbiq etməklə və bu barədə xidmət istifadəçisinə avtomatik bildirişlərin göndərilməsi və razılığının elektron qaydada alınması yolu ilə proaktiv xidmət formasında təşkil edilə bilər.

**Maddə 14. Dövlət xidmətlərinin göstərilməsi üçün ödəniş**

14.1. Dövlət xidmətlərinin göstərilməsi zamanı qanunla müəyyən edilmiş hallarda və məbləğdə dövlət rüsumları və (və ya) xidmət haqları (ödənişlər) tutularaq aidiyyəti üzrə köçürülür.

14.2. Xidmət təminatçıları elektron xidmət üzrə dövlət rüsumlarının və (və ya) xidmət haqlarının (ödənişlərin) xidmətin göstərilməsi zamanı elektron formada ödənilməsi imkanını təmin etməlidirlər.

**Maddə 15. Dövlət xidmətlərinin göstərilməsinə dair şikayətlərə baxılması qaydası**

Xidmət istifadəçilərinin dövlət xidmətlərinin göstərilməsi ilə bağlı şikayətlərinə bu Qanunun, dövlət xidmətlərinin göstərilməsini tənzimləyən digər sahəvi normativ hüquqi aktların xüsusiyyətləri nəzərə alınmaqla "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq baxılır.

### 4-cü fəsil
### DÖVLƏT XİDMƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ KEYFİYYƏTİNƏ NƏZARƏT

**Maddə 16. Dövlət xidmətlərinin qiymətləndirilməsi**

16.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət xidmətləri "ASAN xidmət indeksi" üzrə qiymətləndirilir, habelə xidmət təminatçıları tərəfindən xidmətlərin həyata keçirilməsində sosial innovasiyaların tətbiqi ilə bağlı araşdırmalar aparılır, dövlət xidmətlərinin göstərilməsi prosedurunun sadələşdirilməsi barədə təkliflər hazırlanır.

16.2. "ASAN xidmət indeksi" üzrə qiymətləndirmənin təşkili və aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

16.3. Dövlət xidmətləri ictimai rəy əsasında qiymətləndirilməyə təqdim edilə bilər. Dövlət xidmətlərinin ictimai rəy əsasında qiymətləndirilməsi ictimai rəy sorğularının keçirilməsi vasitəsilə xidmətin təşkilinin və cari vəziyyətinin öyrənilməsi, məlumatların toplanılması, yoxlanılması və təhlili yolu ilə aparılır.

16.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət orqanlarında (qurumlarında) elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirilmə bu Qanunun 17-ci maddəsi ilə müəyyən edilmiş məqsədlər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 17. Dövlət xidmətlərinin qiymətləndirilmə məqsədləri**

17.1. DXER-də qeydə alınmış dövlət xidmətləri hər il aşağıdakı məqsədlərlə qiymətləndirilir və qiymətləndirmənin nəticələri ictimaiyyətə açıqlanır:

17.1.1. hər bir dövlət xidməti və xidmətin proseduru haqqında xidmət istifadəçilərinə məlumat verilməsinin və həmin məlumatların mütəmadi olaraq yenilənməsinin təmin edilməsi;

17.1.2. dövlət xidmətlərinə müraciət, xidmətdən istifadə şərtlərinin inkişaf etdirilməsi və ödəniş tələb olunan xidmətlər üçün ödəniş imkanlarının genişləndirilməsi;

17.1.3. dövlət xidmətlərinin operativ və mümkün qədər qısa müddətdə xidmət istifadəçilərinə çatdırılmasının təmin edilməsi;

17.1.4. dövlət xidmətlərini göstərən şəxslərin peşəkarlıq səviyyəsinin ölçülməsi və inkişaf etdirilməsi;

17.1.5. dövlət xidmətlərinin göstərilməsində şəffaflığın təmin olunması;

17.1.6. dövlət xidmətlərinin keyfiyyətinə nəzarət və şikayət mexanizmlərinin inkişaf etdirilməsi;

17.1.7. dövlət xidmətlərinin göstərilməsinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi;

17.1.8. dövlət xidmətlərinin elektron mühitdə göstərilməsi imkanlarının artırılması.

**Maddə 18. Dövlət xidmətlərinin keyfiyyətinə nəzarət**

18.1. Dövlət xidmətlərinin keyfiyyətinin artırılması üçün DXER-də qeydə alınmış dövlət xidmətlərinin qiymətləndirilməsi nəticələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər il müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və xidmət təminatçılarına təqdim edilir.

18.2. Xidmət təminatçıları dövlət xidmətlərinin qiymətləndirilməsi nəticələrinə uyğun olaraq dövlət xidmətlərinin təkmilləşdirilməsi və aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün zəruri tədbirlər görməlidirlər.

### 5-ci fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 19. Bu Qanunun tələblərinin pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 20. Keçid müddəa**

Bu Qanunun 6.4-cü maddəsi 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri,31 oktyabr 2025-ci il*

# "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.5-ci, 5.2.15-ci, 5.2.17-ci, 6.3-cü, 8.2.2-ci, 8.8-ci maddələrində, 8.9-cu maddəsinin birinci və ikinci cümlələrində, 10.2-ci maddəsində, 12.3-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 12.4-cü, 13.2-ci, 16.1-ci, 16.2-ci, 16.4-cü (hər iki halda) və 18.1-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 12.3-cü maddəsinin birinci cümləsində (birinci halda) və 18.1-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 8.8-ci maddəsində "orqan (qurum)" dedikdə "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminin (bundan sonra - Sistem) sahibinin və operatorunun müəyyən edilməsinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, Sistemin əsasnaməsinin, həmçinin Sistemin formalaşdırılması, aparılması və istifadəsi qaydalarının müəyyən edilməsinə münasibətdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 16.4-cü maddəsində ikinci halda nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.5. həmin Qanunun 1.1.5-ci, 5.2.15-ci, 8.2.2-ci və 13.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.6. həmin Qanunun 5.2.17-ci maddəsində və 8.9-cu maddəsinin ikinci cümləsində"orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Hökumət İnformasiya Sisteminin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"altsistemi nəzərdə tutulur;

1.7. həmin Qanunun 8.9-cu maddəsinin birinci cümləsində və 16.4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 12.3-cü maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində "orqan (qurum)" dedikdə "ASAN xidmət" mərkəzlərinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, kiçik və orta biznes evlərinə münasibətdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Qanunun 12.4-cü, 16.1-ci, 16.2-ci və 18.1-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur.

2. "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikası Qanununun 8.8-ci maddəsinə uyğun olaraq, Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1.aşağıdakılar barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. altı ay müddətində:

3.1.1.1. "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsi;

3.1.1.2. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının həmin Qanuna uyğunlaşdırılması;

3.1.1.3. dövlət orqanı olan xidmət təminatçıları tərəfindən dövlət orqanlarına və digər büdcə təşkilatlarına göstərilən dövlət xidmətlərinin ödənişsiz əsaslarla təşkili mexanizmlərinin müəyyən edilməsi məqsədilə aparılmış təhlil nəticələri və beynəlxalq təcrübə nəzərə alınmaqla bu sahədə tənzimləmənin təkmilləşdirilməsi;

3.1.2. iki ay müddətində həmin Qanunun 6.3-cü və 10.2-ci maddələrində nəzərdə tutulmuş"orqan (qurum)";

3.2. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.2.1.həmin Qanunun 1.1.5-ci maddəsinə uyğun olaraq, dövlət xidmətinin reqlamentinin nümunəvi formasını;

3.2.2. həmin Qanunun 5.2.15-ci və 8.2.2-ci maddələrinə uyğun olaraq, dövlət xidmətləri barədə "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminə daxil ediləcək məlumatların siyahısını;

3.2.3. həmin Qanunun 8.8-ci maddəsinə uyğun olaraq, "Dövlət Xidmətlərinin Elektron Reyestri" informasiya sisteminin əsasnaməsini;

3.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2025-ci il*

# "Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 369** **Bakı şəhəri, 3 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 63-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 mart tarixli 1639 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 259 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 371** **Bakı şəhəri, 3 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 3 nömrəli cədvəli - "Vətəndaşların sağlamlıq vəziyyətinə dair əlavə tələblər"in "c) Təlim (xidmət) üçün seçilən hərbi qulluqçular, bəzi hərbi uçot ixtisasları üzrə təlim üçün seçilən və hərbi xidmət keçən hərbi qulluqçular" yarımbəndinin "Dərin sularda işləyən dalğıc, akvanavt, komando təməl və komando ixtisas (snayper, paraşütdən tullanma, axtarış-xilasetmə, minaaxtaran və s.) göndərilən hərbi qulluqçular" sütununun "Boy (sm-lə)" sətrinin 17-ci qrafasında "170" rəqəmləri "160" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 may tarixli 382 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 370** **Bakı şəhəri, 3 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 may tarixli 382 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 5 noyabr tarixli 332 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası" cədvəlinin 3-cü hissəsindən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I); 2024, № 4, maddə 437, № 5 (II kitab), maddə 589; 2025, № 2, maddələr 201, 206) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"na 1 nömrəli əlavə - "Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları" cədvəlinin "AC4" sətrinin dördüncü abzasında "başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini" sözləri "orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələri və onların müavinləri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2493 (Cild I); 2024, № 4, maddə 437; 2025, № 2, maddə 201) ilə təsdiq edilmiş "1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 8.4.13-cü və 8.4.14-cü yarımbəndlər əlavə edilsin:

"8.4.13. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 2 (iki) il qulluq stajı və yaxud 4 (dörd) il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.4.14. Naxçıvan Muxtar Respublikası Baş nazirinin köməkçisi

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 2 (iki) il qulluq stajı və yaxud 4 (dörd) il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında", "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;";

3.2. 8.5.12-ci yarımbəndin birinci abzasına "orqanların" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin" sözləri əlavə edilsin;

3.3. 8.6.6-cı yarımbəndin birinci abzasında "müvafiq" sözü "mərkəzi" sözü ilə əvəz edilsin;

3.4. 8.6.7-ci yarımbəndin birinci abzasına birinci halda "tabeliyində olan orqanların" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin" sözləri əlavə edilsin və həmin abzasda "müvafiq" sözü "mərkəzi" sözü ilə əvəz edilsin;

3.5. 8.7.4-cü yarımbəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"8.7.4. yerli icra hakimiyyəti başçılarının yanında olan orqanların rəhbərləri, yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələrinin və onların müavinləri".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319,№ 4, maddə 443; 2025, № 2, maddələr 187, 201; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın 13-cü hissəsinə "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi və onun müavini," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ali Məhkəmənin sədri İnam Kərimov Vyetnamda səfərdə olub

**Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasında rəsmi səfərdə olub.**




Bu barədə AZƏRTAC-a Ali Məhkəmənin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, səfər Vyetnam Ali Xalq Məhkəməsinin dəvətilə baş tutub. Səfər çərçivəsində Vyetnam Ali Xalq Məhkəməsinin sədri Nquyen Van Quang ilə görüş keçirilib. O, qonaqları qəbul etməkdən məmnunluğunu ifadə edərək, bu səfərin iki ölkənin məhkəmələri arasında əməkdaşlığı yeni mərhələyə yüksəldəcəyinə əminliyini bildirib. Vyetnam ilə Azərbaycan arasında mövcud olan ənənəvi dostluq münasibətlərinin gələcək əməkdaşlıqlar üçün möhkəm bir baza olduğunu qeyd edən Nquyen Van Quang Vyetnam məhkəmə sistemində son dövrlərdə aparılan islahatlar, məhkəmələrin strukturlaşdırılması, elektron məhkəmə və insan resurslarının inkişafı barədə məlumat verib. Bildirilib ki, Azərbaycan məhkəmə sisteminin, xüsusilə Ali Məhkəmənin təcrübə və biliklərinin öyrənilməsi Vyetnam üçün son dərəcə önəmlidir.

İ.Kərimov öz növbəsində dəvətə görə təşəkkürünü bildirərək Azərbaycan tərəfinin Vyetnamla məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və məhkəmələrin rəqəmsallaşdırılması sahəsində əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb. O, eyni zamanda ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, rəqəmsallaşma və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Görüşdə iki ölkə arasında məhkəmə sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi və yeni hüquqi təşəbbüslərin müzakirə edilməsi məqsədilə birgə fəaliyyət haqqında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Hanoy Şəhər Xalq Məhkəməsi və Quang Ninh Vilayətinin Xalq Məhkəməsində olub. Qonaqlara məhkəmələrin strukturu, fəaliyyət prinsipləri, iş yükü və illik statistik göstəriciləri barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, görüşlərdə Azərbaycan Respublikasının Vyetnamdakı səfiri Şövqi Mehdizadə də iştirak edib.

# Azərbaycan və Türkiyə arasında ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlıq müzakirə olunub

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dekabrın 3-də Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün ilə görüşüb.**



Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, B.Muradova Azərbaycan ilə qardaş Türkiyə arasında əsrlərə söykənən əlaqələrdən danışıb və strateji tərəfdaşlıq, dostluq münasibətlərinin digər dövlətlər üçün örnək olduğunu söyləyib. O, xalqlarımızın tarixən daşıdıqları sülh və ədalət missiyasına bu gün də sadiq qaldıqlarını, bu əlaqələrin gələcəkdə də davam edəcəyini deyib.

Səfir B.Akgün iki ölkə arasında mehriban dostluq və qardaşlıq prinsiplərinə əsaslanan münasibətlərin, eləcə də strateji əməkdaşlığın bu gün ən yüksək səviyyədə inkişaf etdiyini bildirib. Tarix boyu ölkə liderləri arasında formalaşan səmimi münasibətlərin xalqlar arasında əlaqələrin dərinləşməsinə də öz təsirini göstərdiyini vurğulayıb.

Tərəflər ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparıb, bu sahədə həyata keçirilən birgə layihə və təşəbbüslərin əhəmiyyətinə toxunublar. Görüşdə həmçinin iki qurum arasında imzalanmış "Ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu"nun 2023-2025-ci illər üzrə Fəaliyyət Planı çərçivəsində görülən işlərdən danışılıb. Növbəti 3 il üçün imzalanacaq yeni Fəaliyyət Planının gələcək fəaliyyətlər üçün yeni imkanlar açacağı vurğulanıb.

## Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiyasının üzvlərinin sayının və tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 364** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinə uyğun olaraq və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiyasının üzvlərinin sayı 11 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının xarici işlər naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavinləri

ADA Universitetinin rektoru

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi təminat idarəsinin rəisi

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında İdarəsinin rəisi.

2. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 740 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 365** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; 2025, № 8, maddə 802, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 1.1-ci bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Naxçıvan Muxtar Respublikasındakı İdarəsi" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərdə və konsulluqlara, beynəlxalq təşkilatlara diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.7-ci bəndin ikinci cümləsində "Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin" sözləri "Respublikası diplomatik nümayəndəliklərinin" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qaydalara 1 nömrəli əlavə - "Nümayəndələrin və onların (aparatlarının) işçilərinin Siyahısı"nın 4-cü hissəsində "Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin" sözləri "Respublikası diplomatik nümayəndəliklərinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 370 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 366** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 370 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 286 (Cild I) ilə təsdiq edilmiş "Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası"nın 2.1.7-ci yarımbəndində "dövlət və (və ya) eksperimental aviasiya" sözləri "mülki eksperimental, dövlət və dövlət eksperimental aviasiyasına aid" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 aprel tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 411) ilə təsdiq edilmiş "Aviasiyanın ətraf mühitə təsirinin azaldılması Qaydası"nın 3.1-ci bəndində "Qanunun 12.3-cü maddəsinin birinci cümləsinə uyğun olaraq aparılmalıdır" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 420) ilə təsdiq edilmiş "Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bəndə "Nazirliyinin" sözündən sonra "(bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin;

3.2. 1.4-cü bənddə və 9.4.1-ci yarımbənddə "elektron portal" sözləri "Nazirliyin elektron portalı" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 367** **Bakı şəhəri, 2 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I); 2024, № 9, maddə 1061, № 12 (II kitab), maddə 1463; 2025, № 2, maddə 181) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar"ın 11-ci hissəsinə "qurumlarına" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; № 12 (II kitab), maddələr 1439, 1463; 2025, № 1, maddə 86, № 2, maddələr 181, 187) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.17-ci bəndinə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35 (Cild I); 2024, № 10, maddə 1167) ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövründə bron edilməsi işinin təşkil olunması Qaydaları"na aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət verilməsi bu Qaydaların 2.3-cü bəndində qeyd olunan sənədlər Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən əldə edildikdən sonra təmin olunur. Bu zaman səfərbərlik üzrə hərbi xidmətə çağırışa möhlət verilməsi haqqında qərar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron sənəd formasında formalaşdırılır və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəzifəli şəxslərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiqlənir. Həmin elektron qərar real vaxt rejimində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemindən Elektron Hökumət İnformasiya Sisteminə göndərilərək vətəndaşın həmin informasiya sistemində elektron qərarla tanış olması və elektron sənəd formasında əldə etməsi imkanı təmin olunur. Eyni zamanda Elektron Hökumət İnformasiya Sistemi tərəfindən vətəndaşa real vaxt rejimində qeyd olunan sənədin elektron kabinetdə yerləşdirilməsi, elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumat göndərilir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bənddə "sülh" sözü "dinc" sözü ilə əvəz edilsin;

4.2. 1.13-cü bəndə "sisteminin" sözündən sonra "(bundan sonra - MEİS)" sözləri, "altsisteminə" sözündən sonra "(bundan sonra - altsistem)" sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

"2.3-1. Çağırışaqədər yaş həddində olan vətəndaşlar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində ilkin hərbi qeydiyyata alınarkən onların tibbi şəhadətləndirilməsi məqsədilə tibbi müayinəyə, habelə hərbi xidmət müddətində daha məqsədəuyğun istifadə edilməsini müəyyənləşdirmək üçün psixoloji müayinəyə cəlb olunurlar.

Müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan vətəndaşlar çağırışa 2 ay qalmış müddətdə mütləq tibbi müayinədən keçirilirlər.

2.3-2. MEİS-də əlilliyi müəyyən olunmuş ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların və çağırışçıların tibbi müayinəsi ilə bağlı müvafiq qərar onların əyani tibbi müayinəsi aparılmadan həmin elektron informasiya sistemində mövcud olan məlumatlar əsasında qəbul edilir. İlkin hərbi qeydiyyata alınmalı olan əlilliyi müəyyən edilmiş vətəndaşlar və çağırışçılar barəsində qərarların düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar təqdim edildiyi hallarda həmin şəxslər əyani müayinəyə cəlb edildikdən sonra şəhadətləndirilirlər.";

4.4. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Tibbi müayinəyə cəlb olunan çağırışaqədər yaş həddində olanların qanuni nümayəndələri (valideynləri, övladlığa götürənlər və ya himayəçi) və çağırışçılar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən onların hansı müddətdə tibbi müayinədən keçməsi və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə gəlməli olması barədə çağırış vərəqəsi vasitəsilə məlumatlandırılırlar. Çağırışaqədər yaş həddində olan vətəndaşlar və çağırışçılar çağırış vərəqəsində qeyd olunan müddətdə müvafiq tibb müəssisəsinə gəlməlidirlər. Çağırış vərəqəsi elektron formada vətəndaşın elektron kabinetinə yerləşdirildiyi və bu barədə SMS məlumat çatdırıldığı və ya şəxs digər vasitələrlə məlumatlandırıldığı andan etibarən tibbi müayinəyə cəlb olunan çağırışaqədər yaş həddində olanların qanuni nümayəndələri və çağırışçılar məlumatlandırılmış hesab olunurlar.";

4.5. 2.9-cu bəndə "nümayəndəsinə" sözündən sonra "(valideynlərinə, övladlığa götürənlərə və ya himayəçiyə)" sözləri əlavə edilsin;

4.6. 2.10-cu bəndin üçüncü cümləsindən "onların elektron kabinetləri vasitəsilə" sözləri çıxarılsın;

4.7. 2.13-cü bəndin üçüncü abzasına "nümayəndələrinin" sözündən sonra "(valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin)" sözləri əlavə edilsin və həmin abzasdan "onların elektron kabinetləri vasitəsilə" sözləri çıxarılsın;

4.8. 2.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"2.14. Çağırışaqədər yaş həddində olanlar və çağırışçılar bu Əsasnamənin 2.10-cu bəndində qeyd olunan tibbi müayinə nəticələrinə əsasən ilkin hərbi qeydiyyata alma komissiyalarının, rayon, şəhər, şəhərdə rayon çağırış komissiyalarının və Mərkəzi Çağırış Komissiyasının qərarı ilə diaqnozun dəqiqləşdirilməsi məqsədilə tibb müəssisələrinə əlavə ambulator və ya stasionar tibbi müayinələrin keçirilməsinə, hərbi xidmətə müvəqqəti yararsız hesab edildiyinə görə isə dövlət büdcəsinin vəsaiti hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına) tibb müəssisələrində mütləq qaydada müalicəyə göndərilirlər.";

4.9. 2.17-ci bəndin ikinci abzasına "edilir" sözündən sonra "və yekun tibbi müayinənin aparılması məqsədilə zəruri məlumatlarla birlikdə altsistemə ötürülür" sözləri əlavə edilsin;

4.10. 2.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.20. Çağırışçı barəsində rayon, şəhər, şəhərdə rayon çağırış komissiyasının qəbul etdiyi qərar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 3 gün ərzində onun elektron kabinetinə yerləşdirilir, bu mümkün olmadıqda isə digər vasitələrlə göndərilir.";

4.11. 2.21-ci bəndin ikinci abzasının üçüncü cümləsindən "onun elektron kabineti vasitəsilə" sözləri çıxarılsın;

4.12. aşağıdakı məzmunda 2.21-1-ci bənd əlavə edilsin:

"2.21-1. Sağlamlıq vəziyyətinə görə 1 il müddətinədək möhlət verilmiş çağırışçılar möhlət müddəti bitdikdən sonra dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar isə 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçirilirlər.";

4.13. 2.26-cı bənddən "elektron kabineti vasitəsilə" sözləri çıxarılsın;

4.14. 2-1.1-ci bəndin birinci abzasında "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra - MEİS)" sözləri "MEİS" akronimi ilə əvəz edilsin;

4.15. 2-1.2-ci və 2-1.17-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2-1.2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsinin aparılması üçün tibbi müayinənin nəticələrinə dair sənədləri onların rəsmiləşdirildiyi gün altsistemə daxil edir. Agentlik çağırışçının yekun tibbi müayinəsini altsistemə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ötürülmüş tibbi müayinə nəticələri və çağırışçıların əyani tibbi müayinəsi əsasında həyata keçirir.";

"2-1.17. Agentlik tərəfindən bu Əsasnamənin 2-1.16-cı bəndinə əsasən qəbul edilən, MEİS-də elektron sənəd formasında formalaşdırılan və Tibbi qiymətləndirmə komissiyasının sədri və üzvləri tərəfindən onların elektron imzası ilə təsdiq olunan müvafiq qərar və yekun tibbi müayinəyə dair digər sənədlər üzrə məlumatlar rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən çağırışçının şəhadətləndirilməsi üzrə qərarın qəbul edilməsi üçün onların rəsmiləşdirildiyi gün altsistemə daxil edilir.";

4.16. 3.3-cü bənddə və 5.1-ci bəndin üçüncü abzasında "2.6-cı" sözləri "2.15-ci" sözləri ilə əvəz edilsin;

4.17. 3.3-cü bəndin üçüncü abzasında, 5.1-ci bəndin beşinci və altıncı abzaslarında, 6.2-ci bəndin ikinci abzasında, 7.2-ci bəndin a) abzasında və 8.3-cü bəndin dördüncü abzasında "sülh dövründə" sözləri "dinc dövrdə" sözləri ilə əvəz edilsin;

4.18. 5.3-cü bəndin ikinci abzasında və 5.4-cü bəndin birinci abzasında "Sülh dövründə" sözləri "Dinc dövrdə" sözləri ilə əvəz edilsin;

4.19. 6.2-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"6.2. Dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçirilirlər.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451 (Cild I); 2024, № 1, maddə 124) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.8-ci və 6.21-ci bəndlərə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

5.2. 6.9.6-cı yarımbənddə "vəsiqənin" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 29 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 6.7.1.12-1-ci yarımbəndinə "çağırılan" sözündən sonra ", habelə müddətli həqiqi hərbi xidmətə və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan boyun qaçıran" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 939 (Cild I) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Çağırışçıların və hərbi vəzifəlilərin (bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) hərbi vəzifələrinin icrası ilə bağlı elektron xidmətlər Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra - SHXÇDX) vahid elektron informasiya sistemi vasitəsilə həyata keçirilir. Çağırışçılar və hərbi vəzifəlilər tərəfindən (bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) hərbi vəzifələrinin icrası ilə əlaqədar elektron kabinet yaradılır.";

7.2. 1.4-cü bənddə "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra - SHXÇDX)" sözləri "SHXÇDX-nin" sözləri ilə əvəz edilsin;

7.3. 2.3-cü bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Elektron kabinet vasitəsilə verilən məlumat çağırışçıların və hərbi vəzifəlilərin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində SHXÇDX-nin vahid elektron informasiya sisteminə göndərilir.";

7.4. 3.2 - 3.5-ci bəndələrə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

7.5. 4.1-ci bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri əlavə edilsin;

7.6. 4.2-ci bənddə "Çağırışçılar və hərbi vəzifəlilər ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəni və ya" sözləri "Hərbi vəzifəlilər" sözləri ilə əvəz edilsin və həmin bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri əlavə edilsin;

7.7. 4.3-cü bənddən "şəxsi" sözü və "ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəsi və ya" sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 565 (Cild I) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1.1-ci yarımbənddə "vəsiqə" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin;

8.2. 3.1.1-ci yarımbəndin birinci cümləsində "vəsiqələrdə" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlarla" sözləri ilə əvəz edilsin;

8.3. 3.1.2-3.1.5-ci yarımbəndlərə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

8.4. 3.1.7-ci yarımbənddə "sentyabrın" sözü "oktyabrın" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "bölmələrinə" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

8.5. 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərə "bölməsinə" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 5, maddə 495) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın 2.1.4-cü yarımbəndində "çağırışçı şəhadətnaməsini" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatları" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 611; 2025, № 9, maddə 861) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 5.1.5-ci yarımbəndində "çağırışçı şəhadətnaməsi" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 173 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 766 (Cild I); 2024, № 3, maddə 352, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"nın 4.6.5-ci yarımbəndində "çağırışçı şəhadətnaməsi" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# Azərbaycanda insan amili hər zaman prioritetdir

## Sosial məsələlər növbəti ildə də diqqət mərkəzində saxlanılacaq

**"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi və büdcə zərfinə daxil olan digər məsələlər Milli Məclisdə ikinci oxunuşda qəbul edildi. Gələn ilin dövlət büdcəsinin ən böyük məziyyətlərindən biri sosialyönümlülüyün qorunub saxlanılmasıdır.**

### 1,4 milyard manatlıq sosial islahat zərfi

Əhalinin bütün təbəqələrinə qayğı ilə yanaşılması, hər bir vətəndaşın etibarlı sosial təminatı Azərbaycan dövlətinin prioritetlərindən biridir. İldən-ilə iqtisadi sahədə əldə olunan artımlar, maliyyə imkanlarının yüksəlməsi həm də vətəndaşların sosial rifahında özünü göstərib. Ötən illərin mənzərəsi sübut edir ki, respublikamızda sosial islahatlar davamlıdır. Əhalinin rifah halının yaxşılaşdırılması, o cümlədən həssas qrupdan olan insanlarımıza dövlət dəstəyinin gücləndirilməsi istiqamətində çoxsaylı islahat tədbirləri reallaşdırılıb.

Bu barədə Milli Məclisin dekabrın 2-də keçirilən plenar iclasında da bəhs olundu. İclasda qeyd olunduğu kimi, son illərdə 4 milyon vətəndaşımızı əhatə edən 4 sosial islahat paketi həyata keçirilib. Bu islahatlar əhalinin sosial müdafiəsinin təmin olunmasına, gəlirlərinin artırılmasına, sosial rifahın yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib.

Bu islahatların davamı olaraq 2025-ci ilin əvvəlindən, 5-ci sosial islahat zərfinin icrasına başlanılıb. Bu çərçivədə 1,9 milyon şəxsi əhatə edən və 885 milyon manat vəsaiti özündə ehtiva edən, həmçinin pensiyaların indeksləşdirilməsi də nəzərə alınaraq 1,4 milyard manatlıq sosial islahat zərfi həyata keçirilib.

"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi də göstərir ki, sosial məsələlər növbəti ildə də diqqət mərkəzində saxlanılacaq. Növbəti ilin büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat təşkil edəcək. Ümumilikdə isə sosialyönümlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 41,1 faiz nəzərdə tutulur. Bu da onu göstərir ki, dövlətimizin prioritetlərindən biri insan amilidir. Sosialyönlü xərclərin 89,7 faizi və yaxud 15,4 milyard manatı əməyin ödənişi və sosial təminat xərclərinin payına düşür.

### Hər bir maliyyə artımı ilk növbədə sosial rifahın yüksəldilməsi deməkdir

Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinə nəzər salanda respublikamızda həyata keçirilən uğurlu sosial siyasətin məzmununu görmək mümkündür. DSMF-nin 2026-cı il üçün gəlirləri 8 milyard 323 milyon manat təşkil etməklə, cari ilin proqnoz göstəricisi ilə müqayisədə 705,7 milyon manat (9,3 faiz) çoxdur.

DSMF-nin 2026-cı il üçün nəzərdə tutulan xərcləri isə 8 milyard 483 milyon manat proqnozlaşdırılır ki, bu göstərici cari ilə nisbətən 807 milyon manat və ya 10,5 faiz artıqdır. Əlbəttə ki, hər bir artım ilk növbədə vətəndaşın rifahının yüksəldilməsi deməkdir. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini əhaliyə ödənişlər təşkil edəcək.

Respublikada əmək pensiyalarının orta aylıq məbləğinin 2025-ci ildə 540 manat, 2026-cı ildə isə 590 manat olacağı gözlənilir. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 576 manatdan 629 manata yüksəlməsi proqnozlaşdırılır.

2026-cı il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2025-ci ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 782,4 milyon manat və ya 10,9 faiz artımla nəzərdə tutulur. Bunun 81,2 faizi və ya 635,6 milyon manatı əmək pensiyalarının indeksasiya xərclərinin, digər hissəsi isə yeni təyin olunan və yenidən hesablanan pensiyaların məbləğlərinin maliyyələşdirilməsi ilə bağlı xərclərin payına düşür.

Əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 49 faiz və 50,4 faiz olmaqla, Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında müvafiq konvensiyasına cavab verir.

Gələn il üçün İşsizlikdən Sığorta Fondunun xərcləri 266,4 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2025-ci ilin göstəricilərinə nisbətən 5,7 milyon manat çoxdur.

Fondun xərcləri 13 istiqaməti əhatə edəcək. Gələn il işsizliyə görə sığorta ödənişlərinin həcmi 28 milyon manat olmaqla, cari ildəkindən 11 milyon manat, yaxud 65 faiz çox proqnozlaşdırılır. İSF-nin xərclərinin 77 milyon manatı, yaxud 28,9 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək. Növbəti ildə fondun hesabına 8 min nəfərin (Dünya Bankı ilə nəzərdə tutulan müqaviləyə görə isə əlavə olaraq, 7 min nəfərin) özünüməşğulluq proqramına qoşulması nəzərdə tutulur. Bununla da 2017-ci ildən 2026-cı il də daxil olmaqla, özünüməşğulluq proqramı ilə əhatə olunacaq şəxslərin sayı 110 min nəfərdən çox olacaq.

İSF-nin 2026-cı il büdcə xərclərindən 26 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcək. Bu vəsait 17500 nəfər işsiz və iş axtaran şəxsin peşə hazırlığına cəlb olunmasına imkan verəcək.

2026-cı il üçün müəyyən olunan ehtiyac meyarının həddi də sosial siyasətin mühüm göstəricilərindəndir. Belə ki, "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsinə əsasən ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə müəyyən olunan ehtiyac meyarının həddi gələn il üçün 5,3 faiz artırılaraq 300 manata çatdırılacaq.

Əhalinin sosial rifahının davamlı şəkildə yüksəldilməsini hər zaman prioritet məsələ kimi müəyyən edən Azərbaycan dövləti bu istiqamətdə dinamik və məqsədyönlü siyasət həyata keçirməkdədir. Sosial tədbirlərin reallaşdırılması həmişə böyük maliyyə vəsaitlərini tələb edir. Reallıq onu göstərir ki, yeni çağırışların meydana çıxmasına baxmayaraq, dövlətimiz vətəndaşların rifahının yüksəldilməsi və davamlı şəkildə sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üçün yetərincə vəsait ayırır. Gələn ilin dövlət və icmal büdcələrinin layihələri də bunu təsdiq edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Bakıda Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasına üzv ölkələrin konfransı keçirilib

**Bakıda Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasına üzv ölkələrin yanğın-xilasetmə xidmətləri rəhbərlərinin XXVI Beynəlxalq Konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans çərçivəsində Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının prezidenti daxili xidmət general-polkovniki Aleksandr Çupriyan arasında ikitərəfli görüş olub.



Görüşdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyası arasında əməkdaşlıq məsələləri və Bakıda keçirilən konfrans barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Sonra konfransın açılış mərasimi keçirilib.

Tədbirdə federasiyaya üzv ölkələrdən - Almaniya, Avstriya, Belarus, Bolqarıstan, Çin, Çex Respublikası, Hindistan, İran, Qazaxıstan, Özbəkistan, Tacikistan, Kamerun, Latviya, Monqolustan, Qətər, Səudiyyə Ərəbistanı, Bəhreyn, Rusiya, Serbiya, Slovakiya və Vyetnamdan, eləcə də federasiyanın tərəfdaş şirkətlərindən ümumilikdə 100 nəfərdən artıq nümayəndə, habelə videokonfrans formatında Türkiyə və Qırğızıstan təmsilçiləri iştirak ediblər.

Konfransın açılışında K.Heydərov beynəlxalq tədbirin ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışıb, bu mötəbər konfransı yanğınsöndürmə və xilasetmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsi, yeni təcrübələrin və qabaqcıl yanaşmaların öyrənilməsi baxımından vacib platforma kimi qiymətləndirib.

Nazir Azərbaycanda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması tarixinə qısa ekskurs edib, ölkəmizdə bu sahədə görülən işlər barədə ətraflı məlumat verib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əhali və ərazilərin təhlükəsizliyi məsələlərini daim diqqətdə saxladığını vurğulayıb, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış Azərbaycan Fövqəladə Hallar Nazirliyinin dövlət başçısının diqqət və qayğısı sayəsində istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq imkanına malik peşəkar dövlət orqanı kimi formalaşdığını qeyd edib.

Nazir K.Heydərov Fövqəladə Hallar Nazirliyinin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində görülən işlərdən də danışıb, dövlət başçısının tapşırıqlarına əsasən dünyanın müxtəlif regionlarında aparılmış xilasetmə əməliyyatlarından, fəlakət zonalarına çatdırılmış humanitar yardımlardan bəhs edib.

Fövqəladə hallar naziri bu il Ər-Riyad şəhərində keçirilmiş yanğınsöndürmə-xilasetmə idmanı üzrə kişilər arasında XX və qadınlar arasında XI Dünya Çempionatının yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Səudiyyə Ərəbistanı Krallığının Daxili İşlər Nazirliyinə təşəkkürünü bildirib, konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının prezidenti Aleksandr Çupriyan konfransın təşkilində göstərilən dəstəyə görə Azərbaycana təşəkkür edib. A.Çupriyan təbii və texnogen fövqəladə hadisələrin artdığı müasir dünyada yanğınsöndürən və xilasedici peşəsinin əhəmiyyətinə toxunub, onların peşəkar hazırlıq səviyyəsinin daim artırılmasının vacibliyini bildirib. Bu baxımdan belə tədbirlərin keçirilməsinin sözügedən peşə sahibləri arasında səmərəli təcrübə mübadiləsinə və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verəcəyinə əmin olduğunu bildirib.

Konfransda Aleksandr Çupriyan tərəfindən nazir Kəmaləddin Heydərova Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının "Beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə görə" medalı təqdim olunub.

Sonra konfrans işini digər natiqlərin çıxışı ilə davam etdirib.

Qeyd edək ki, Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə keçirilən və dekabrın 6-dək davam edəcək konfransda yanğın-xilasetmə idmanının inkişafı, bu idman növü üzrə keçirilmiş son dünya çempionatının təhlili, habelə 2026-cı ildə yanğın-xilasetmə idmanı üzrə dünya çempionatlarının təşkili və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunacaq.

# Azərbaycan həm Cənubi Qafqazda, həm də Avrasiyada siyasi təsirini artırır

**"Son illərdə Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlıq həm coğrafi miqyası, həm də iqtisadi-siyasi məzmunu baxımından nəzərəçarpacaq dərəcədə genişlənib. Bu münasibətlər tədricən ənənəvi tərəfdaşlıq çərçivəsini aşaraq çoxşaxəli və sabit regional əməkdaşlıq modelinə çevrilir. İnteqrasiya bir sıra istiqamətlərdə özünü göstərir".**

Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) əsas halqası kimi Mərkəzi Asiya məhsullarının Avropaya çıxışında tranzit rolunu daha da möhkəmləndirir. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının artırılması, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının genişləndirilməsi, Orta dəhlizin rəqəmsallaşdırılması və əlbəttə ki, Zəngəzur dəhlizinin reallaşması üçün görülən işlər bu istiqamətdə həyata keçirilən əsas strateji addımlardandır. Məhz bu infrastruktur yenilikləri nəticəsində son iki ildə ticarət dövriyyəsinin üç dəfədən çox artması əməkdaşlığın real dinamizmini nümayiş etdirir. Enerji sahəsində tərəfdaşlıq da yeni mərhələyə keçib. Eləcə də, kənd təsərrüfatında əməkdaşlıq daha praktik məzmuna sahib olub".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Karabük Universitetinin Beynəlxalq münasibətlər kafedrasının professoru Ali Asker söyləyib.

O bildirib ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə tamhüquqlu iştirakçı statusu əldə etməsi region siyasətində əhəmiyyətli dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu qərar Azərbaycanın platformanın rəsmi və bərabərhüquqlu üzvü kimi tanınmasını təmin etməklə yanaşı, Mərkəzi Asiya liderlərinin Azərbaycana göstərdiyi yüksək siyasi etimadı da əks etdirir. 2023-cü ildə Düşənbədə keçirilən toplantıda fəxri qonaq kimi iştirak edən Azərbaycan, 2025-ci ildə Daşkənddə təşkil edilən 7-ci Məşvərət Görüşündə artıq tamhüquqlu üzv qismində çıxış edərək "5+1" modelindən "altılıq" formatına keçidin aparıcı iştirakçısına çevrildi.

Professorun fikrincə, yeni status Azərbaycanın fəaliyyətdə rolunu daha da genişləndirir: "Azərbaycan Mərkəzi Asiya dövlət başçılarının müzakirə etdiyi məsələlərdə yalnız tərəfdaş deyil, eyni zamanda qərarverici proseslərin birbaşa iştirakçısıdır. Tamhüquqlu üzvlük Azərbaycanın regional prioritetləri müəyyənləşdirməsi, yeni təşəbbüslər irəli sürməsi və Mərkəzi Asiya ilə inteqrasiyanı daha da dərinləşdirməsi baxımından əlavə imkanlar yaradır. Bu status Azərbaycanın təsir gücünü təkcə iki tərəfli münasibətlərdə deyil, eləcə də çoxtərəfli əməkdaşlıq



mexanizmlərində də artırır. Azərbaycan enerji təhlükəsizliyi, nəqliyyat kommunikasiyaları, su ehtiyatları, rəqəmsallaşma və regional sabitlik kimi sahələrdə vahid mexanizmlərin yaradılmasına töhfə verə biləcək mühüm tərəfdaş rolunu oynayır".

Ali Asker Mərkəzi Asiya ölkələri ilə "altılıq" formatında əməkdaşlığın institusional çərçivəyə keçməsinin Azərbaycanın Cənubi Qafqazdakı mövqeyini nəzərəçarpacaq dərəcədə gücləndirməsinə də diqqət çəkərək deyib: "Yeni reallıq Azərbaycanın regional rolunu yalnız coğrafi üstünlüklərə deyil, eyni zamanda genişlənən siyasi, iqtisadi və diplomatik təsir imkanlarına söykənərək formalaşdırır. Azərbaycan artıq təkcə Cənubi Qafqazın deyil, Mərkəzi Asiyanı Avropaya birləşdirən geniş Avrasiya məkanının əsas strateji aktorlarından birinə çevrilib".

Ekspert qeyd edib ki, bir sıra məsələlərdə vahid mövqedən çıxış edilməsi Azərbaycanın həm Cənubi Qafqazda, həm də daha geniş Avrasiya məkanında siyasi təsirini artırır və diplomatik manevr imkanlarını genişləndirir. Mərkəzi Asiya ölkələri ilə Azərbaycanın mədəni, dil və tarixi bağları isə bu geosiyasi dinamikanın yumşaq güc ölçüsünü formalaşdırır.

"Bütün bu amilləri nəzərə aldıqda demək olar ki, Azərbaycan Cənubi Qafqazdakı rolunu köklü şəkildə transformasiya edib. Azərbaycan bu gün Avrasiyanın enerji xəritəsini, nəqliyyat dəhlizlərini və diplomatik gündəliyini formalaşdıran aparıcı dövlətlərdən birinə çevrilir ki, bu da həm iqtisadi mənfəətlərin artması, həm də siyasi nüfuzun keyfiyyətcə yeni mərhələyə yüksəlməsi ilə müşayiət olunur", - deyə Ali Asker əlavə edib.

# Azərbaycan və Estoniya innovativ idarəetmə modellərinin inkişafı üzrə əməkdaşlığı müzakirə ediblər

**Estoniya Vergi və Gömrük Şurasının baş direktorunun müavini Yanek Rozovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdə olub.**

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, səfərin əsas məqsədi Azərbaycan və Estoniya arasında vergi inzibatçılığı, rəqəmsal xidmətlərin tətbiqi və innovativ idarəetmə modellərinin inkişafı istiqamətində əməkdaşlığın daha da genişləndirilməsidir.

Dövlət Vergi Xidmətində keçirilən görüşlər zamanı Estoniyanın dünyada tanınmış rəqəmsal idarəetmə ekosistemi, vergi inzibatçılığı proseslərinin avtomatlaşdırılması, məlumatların real vaxt rejimində emalı, transsərhəd məlumat mübadiləsi və yeni nəsil analitik həllərin tətbiqi üzrə təcrübəsi ətrafında geniş müzakirələr aparılıb. Tərəflər birgə layihələrin həyata keçirilməsi perspektivlərini, qarşılıqlı inteqrasiya və əməkdaşlıq formatlarını da nəzərdən keçiriblər.

Görüşlərdə vergi inzibatçılığının təkmilləşdirilməsi, rəqəmsal ekosistemin daha da inkişaf etdirilməsi, təhlükəsiz məlumat idarəçiliyi və risk əsaslı vergi nəzarəti mexanizmlərinin gücləndirilməsi sahəsində əməkdaşlığın vacibliyi vurğulanıb. Tərəflər arasında geniş təcrübə mübadiləsi aparılıb, müxtəlif rəqəmsal vergi həlləri və idarəetmə alətləri praktiki şəkildə nümayiş etdirilib.

Nümayəndə heyətinin səfəri çərçivəsində Estoniya Vergi və Gömrük Şurası tərəfindən real vaxt iqtisadiyyatı, vergiödəyicilərinin qiymətləndirilməsi və risklərin idarə edilməsi üzrə həllər üzrə həyata keçirilən layihələr təqdim edilib. DVX tərəfindən rəqəmsal vergi inzibatçılığı sahəsində görülmüş işlər, tətbiq edilən yeni nəsil elektron xidmətlər, vergi risklərinin idarə olunması üzrə istifadə edilən analitik sistemlər, məlumat təhlükəsizliyi və idarəetmə modelləri haqqında ətraflı məlumat verilib.

**2020-ci ildə 44 günlük Qarabağ müharibəsi Zəfərlə başa çatdıqdan, Qarabağ Ermənistan işğalından azad edildikdən və respublikanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra ölkəmizdə dağıdılmış infrastrukturun bərpası, məcburi köçkünlərin öz yurdlarına qayıtması, Qarabağın və Şərqi Zəngəzurun firavan və xoş güzəranının bərqərar olduğu mərkəzə çevrilməsi üçün quruculuq və yenidənqurma işlərinə başlanıldı.**



# Şanlı Zəfərdən böyük quruculuğa

Bu tarixi prosesin ilk günlərində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində demişdir: "Böyük qayıdış başlayır, bütün bərpa işlərinə başlanılıb. Əminəm ki, biz düşməni cəmi 44 gündə öz torpaqlarımızdan qovduğumuz kimi, tarixi torpağımızı - Qarabağımızı da ən qısa müddətdə bərpa edəcəyik".

Tarixin arxada qoyduğu 5 il göstərdi ki, Azərbaycan xalqının güclü lideri İlham Əliyevin bu sözləri sadəcə bir vəd olaraq qalmayıb. Bilavasitə dövlət başçısının rəhbərliyi ilə işlənib hazırlanmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın qəbulundan sonra Qarabağ və Şərqi Zəngəzurda ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənməyə, şəhər və kəndlər yenidən tikilməyə, infrastruktur layihələri reallaşmağa, yollar inşa edilməyə, yeni elektrik stansiyaları istifadəyə verilməyə, istehsal müəssisələri yaradılmağa başlanıldı və nəhayət, məcburi köçkünlərin mərhələli şəkildə yenidən doğma yurdlarına dönüşünə start verildi. Əlbəttə, bütün bu proseslər - böyük miqyas almış tikinti və quruculuq işləri regionun müasirləşməsində əsas rol oynayan Azərbaycan Prezidentinin şəxsi nəzarəti altında həyata keçirilir.

Azərbaycanın 30 il işğal altında qalmış torpaqları bu illər ərzində "vəhşi tayfalar" - haylar tərəfindən amansızcasına tar-mar edilmiş şəhər və kəndlər tamamilə viran qoyulmuşdu. Tarixi abidələr, yollar, məktəblər, xəstəxanalar, yaşayış binaları xarabalığa çevrilmişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin strateji düşüncəsinin bəhrəsi olan möhtəşəm layihələr və onların həlli sürətlə gerçəkləşir. Dövlət başçısı bu ilin fevralında müsahibəsində böyük qürur hissi ilə qeyd etdi ki, "Azərbaycan 2021-ci ildən Qarabağın və Şərqi Zəngəzurun bərpasına 19 milyard manatdan çox vəsait ayırıb". Görülən işlər böyük miqyası əhatə edir. Xatırladaq ki, su-elektrik stansiyaları Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Bölgədə ümumi 280 meqavat gücündə 30 kiçik su-elektrik stansiyası artıq istismara verilib. Yeni kənd və qəsəbələr, şəhərlər öz doğma sakinlərinə 35 illik fasilədən sonra qucaq açıb. İşğaldan azad edilmiş ərazilərimizdə 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə indiyədək 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Qarabağ və Şərqi Zəngəzura bu il noyabr ayının 1-dək 20879 nəfərdən ibarət 5256 ailənin qayıdışı təmin olunub. Buradakı bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxsləri və Qarabağ Universitetində təhsil alan tələbələri də nəzərə alsaq, hazırda işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı təxminən 62 min nəfər təşkil edir. Bu proses yüksək səviyyədə davam edir.

Böyük qayıdış proqramının əsas bəndlərindən biri nəqliyyat infrastrukturunun bərpası və inkişafı layihələridir. Müasir yolların, dəmir yolu xətlərinin və hava limanlarının tikintisi prioritetlərdən biri kimi gündəmdədir. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri ilk olaraq yolların salınmasından, enerji ilə təminatdan başlayıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda erməni vandalizminə məruz qalan ərazilərdə təkcə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra edilən layihələrin sayı 44, yolların ümumi uzunluğu isə 3 min 40 kilometr təşkil edir. Ötən illərdə 6 avtomobil yolunun tikintisi başa çatdırılıb. Tikintisi davam edən 38 layihənin isə 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub.

Son 5 ildə bu ərazilərdə həyata keçirilən nəqliyyat layihələri həm miqyasına, həm sayına görə bir daha Azərbaycan dövlətinin qüdrətini, əzmini nümayiş etdirir. Ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat infrastrukturu ilə bağlı 60 layihə üzrə 3501,6 kilometr uzunluğunda yolun tikintisinə başlanılıb. Bu layihələrdən 16-sı tam, 1-i isə qismən sona çatıb.

Zəngilan, Füzuli və Laçında beynəlxalq hava limanlarının inşasını da xüsusi qeyd etməliyik. Dəmir yollarına gəldikdə Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti isə tam istifadəyə verilib.

Prezident İlham Əliyev cari ilin əvvəllərində yerli televiziya kanallarına müsahibəsində demişdir: "Biz əsas infrastruktur layihələrini yəqin ki, bir-iki ilə başa çatdıracağıq. Ən çox vəsait bu layihələrə gedir. Çünki 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları inşa edilir. Biz artıq orada 30-dan çox su-elektrik stansiyasını işə salmışıq, dəmir yolları çəkmişik. Yəni bütün bunlar əsas maliyyə yükü götürür. Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri başa çatacaq və ondan sonra yaşayış fondunun yaranmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq".

Son illərdə istifadəyə verilmiş obyektlərin qısa siyahısına nəzər salanda aydın olur ki, Böyük qayıdış proqramı çərçivəsində qısa müddətdə bir çox hədəf dəf olunub. Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat sektorunda müstəsna əhəmiyyət daşıyan hava limanları, demək olar ki, fəaliyyətə başlayıb: 2021-ci ildə istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, 2022-ci ildə prezidentin açılışını etdiyi Zəngilan Beynəlxalq Hava Limanı və bu il mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilmiş Laçın Beynəlxalq Hava Limanı.

Qarabağ və Şərqi Zəngəzurda layihələrin həyata keçirilməsində şəhərsalma, ekologiya və infrastruktura innovativ yanaşmalarla bağlı tələblərə ciddi şəkildə əməl edilir. Dayanıqlı inkişaf konsepsiyası çərçivəsində "yaşıl enerji" və rəqəmsal texnologiyalar prinsiplərinə əsaslanan "ağıllı şəhər" və "ağıllı kənd"lərin tikintisi uğurla davam etdirilir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Ermənistanın miskinliyini və forpost olduğunu göstərən sənədlər ortaya çıxıb

**Dekabrın 2-də, ATƏT-in Minsk qrupunun de-yure ləğvindən cəmi bir gün sonra Ermənistan hökumətinin keçmiş Qarabağ münaqişəsi ilə bağlı danışıqlara dair sənədləri dərc etməsi gündəmin diqqətçəkən hadisələrindən oldu. Hələ bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan adıçəkilən sənədləri dərc edəcəyini demişdi.**

Sözügedən tarixdə hökumətin rəsmi saytında bu məsələ ilə əlaqədar ümumilikdə 13 fayl yerləşdirilib. Bunların arasında 2011-ci ildə Kazanda müzakirə olunan sənəd, 2019-cu ildə təqdim olunan vasitəçilərin təklifləri və üçüncü prezident Serj Sarkisyanın 2016-cı ilin avqustunda rusiyalı həmkarı Vladimir Putinə yazdığı məktub da var.

İrəvanın ötən onilliklər boyu münaqişənin danışıqlar yolu ilə həll variantından yayındığını və onun sonsuzadək dondurulmasının tərəfdarı olduğunu ortaya qoyan bu sənədlər həm də Ermənistanın miskin, aciz dövlət olduğunu bir daha təsdiq etdi. Bu sənədlərdə əks olunan məsələlər sübut etdi ki, İrəvan heç zaman müstəqil siyasət yürüdə bilməyib, həmişə kənar dövlətlərin orbitində fırlanıb, vassal rolunda olub.

## Bakının diktəsi ilə…

Hər zaman Qarabağ məsələsində qətiyyətli mövqe ortaya qoyan və danışıqlarda dominant tərəf olan Azərbaycanın İkinci Qarabağ müharibəsində yaratdığı reallıqlar İrəvanı işğal dövründə etdiyi səhvləri etiraf etməyə, onları sənəd-sübutlu şəkildə faktlarla gün üzünə çıxarmağa məcbur edib.

Hökumət keçmiş Qarabağ münaqişəsi ilə bağlı danışıqlara dair sənədləri dərc etməklə cəmiyyətdə Serj Sarkisyan və digərlərinin işğalçılıq siyasətinin Ermənistanı necə acınacaqlı hala saldığını göstərmək istəyir.

Azərbaycan ərazilərinə iddia güdülən şovinist siyasəti nəticəsində Ermənistan özü dalan ölkəyə çevrildi, hərtərəfli böhrana düşdü. İstər sosial, iqtisadi, istərsə də demoqrafik böhran olsun. Eyni anda iki və daha artıq stolda oturmağa çalışan İrəvan gah Rusiyaya, gah da Qərb dairələrinə vassallıq etməyə başladı. Birmənalı olaraq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həllinə razı olmadı, konstruktiv təklifləri əlinin tərsi ilə itələdi. Çünki İrəvan xarici himayədarlarına güvənərək Azərbaycan ərazilərinə iddiasından, Qarabağa olan iştahasından əl götürmək istəmirdi. Məsələnin bu cür uzadılacağı və Azərbaycanın torpaqlarının itkisi ilə razılaşacağını planlaşdırdılar.

Lakin rəsmi Bakı beynəlxalq tribunalardan hər zaman bəyan edirdi ki, Azərbaycan heç zaman işğal siyasəti ilə barışmayacaq, bir qarış torpağını belə güzəştə getməyəcək.

Yuxarıda vurğuladığımız kimi, Nikol Paşinyan keçmiş Qarabağ münaqişəsi ilə bağlı danışıqlara dair sənədləri dərc etdirərək Serj Sarkisyan və digər sələflərinin danışıqlar prosesini necə pozduğunu və bütün bunların Ermənistana necə baha başa gəldiyini göstərmək istəyir.

Ancaq onu da heç kim unutmayıb ki, elə Paşinyanın özü də münaqişənin danışıqlar vasitəsilə həll olunmasına geridönülməz zərbə vurmuşdu.

Paşinyanın Xankəndidə "Qarabağ Ermənistandır nöqtə" deməsindən tutmuş Şuşada Cıdır düzündə yallı getməsinə qədər işğalçı siyasət güdən və danışıqları rədd edən hərəkəti münaqişənin dialoqla həllinin mümkünsüz olduğunu inkaredilməz şəkildə ortaya qoyurdu.

## Sonrakı peşmançılıq fayda verəcəkmi?!

Paşinyan indi hər nə qədər özünü konstruktiv siyasətçi, sülh göyərçini kimi göstərmək istəsə də, yaxın keçmişdə baş verənlər onun törətdiyi və nəticəsi elə Ermənistanın özü üçün ağır olan yanlış əməlləri özündə əks etdirir. Faktiki olaraq Paşinyanın Qarabağı Ermənistan ərazisi kimi tərif etməsi münaqişənin danışıqlar yolu ilə deyil, müharibə vasitəsilə həll olunmasına gətirib çıxardı. Bu isə onu göstərir ki, əslində, Ermənistana prezidentlik etmiş şəxslərin hamısı işğal siyasətinin davam etməsi tərəfdarı olub.

İki ölkə arasında diplomatik danışıqların mümkün olmamasında ATƏT-in keçmiş Minsk qrupu da xüsusi rol oynayıb. İkili standartlar nümayiş etdirən bu yarıtmaz qrupun münaqişənin olduğu kimi Ermənistanın xeyrinə sonsuzadək sürməsi istiqamətində əlindən gələni etməsi danılmaz reallıqdır.

Əslində, Minsk qrupu 1992-ci ildə Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dəstək məqsədilə yaradılmışdı. Lakin həmsədrlərin onilliklər ərzində apardıqları yarıtmaz fəaliyyət nəticəsində münaqişənin nizamlanmasına nail olunmamışdı. Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün irəli sürdüyü ilkin şərtlərdən biri də Minsk qrupunun ləğv edilməsi tələbi idi.

Ermənistanın bu qrupun ləğvi üçün ölkəmizlə birgə müraciətdən xeyli yayınması isə gələcəkdə ölkəmizə yenidən ərazi iddiası güdmələri üçün zəmin hazırlığı idi.

Cari il dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi. Qeyd edək ki, müvafiq qərar Ermənistan və Azərbaycanın ATƏT-in Finlandiya sədrliyinə birgə müraciətindən sonra 1 sentyabr 2025-ci il tarixində ATƏT-in Nazirlər Şurasında qəbul olunmuşdu.

Bu qrupun de-yure ləğv edilməsi Qarabağ məsələsinin beynəlxalq müstəvidə tamamilə bağlanması anlamına gəldi.

Göründüyü kimi, Azərbaycan yürütdüyü siyasi, diplomatik siyasətlə və göstərdiyi hərbi güclə, necə deyərlər, bütün daşları yerinə otuzdurdu. Həm torpaqlarını işğaldan qurtardı, həm suverenliyini təmin etdi, həm də İrəvanı danışıqlar masasına oturmağa məcbur etdi.

Cənubi Qafqazda normallaşmaya rəvac verən Azərbaycanın şərtləri əsasında formalaşan sülh müqaviləsinin mətni artıq paraflanıb, özü də ABŞ kimi dünya nəhəngi olan ölkənin lideri Donald Trampın şahidliyi ilə. Ermənistan öz konstitusiyasından Azərbaycana qarşı ərazi iddiasını çıxarandan sonra sülh müqaviləsi də imzalanacaq.

Ermənistan hökumətinin keçmiş Qarabağ münaqişəsi ilə bağlı danışıqlara dair sənədləri dərc etməsinin fonunda bir daha Azərbaycanın yaratdığı yeni reallıqların diktə etdiyi gerçəkliklər qabarıq şəkildə ön plana çıxır.

Bu gün Azərbaycan yarandığı dövrdən heç zaman müstəqil siyasət yürüdə bilməyən, kənar dairələrin əli ilə idarə olunan və daim digər ölkələrin vassallığını edən Ermənistanı özünün səhvlərini boynuna almağa, atdığı yanlış addımları etiraf etməyə məcbur edib.

Ancaq bu səhvləri təkcə etiraf etmək deyil, ondan nəticə çıxarmaq və bir daha təkrar etməmək Ermənistanın bir dövlət kimi mövcudluğunun qarantıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Cənubi Qafqazdakı barış qlobal əməkdaşlığa da töhfə verəcək

## Sülh prosesinin qorunması və irəli aparılması ABŞ-dən Çinə qədər böyük bir coğrafiyanın maraq dairəsindədir

**Avropa İttifaqı enerji təhlükəsizliyi məsələsində yeni yanaşmasını tətbiq etmək üçün çoxdandır ki, bütün regionlar üzrə hərtərəfli plan həyata keçirməyə başlayıb. Belə ki, təşkilat qaz dəhlizlərindən sualtı elektrik kabellərinə və dəniz küləyi enerjisinə qədər çarpaz inteqrasiyanı sürətləndirir.**



Növbəti onillikdə Avropada ən böyük 10 qaz yatağının işə salınması planından 4-ü Qara dənizlə bağlıdır. Bu siyahıya qoşulmaq Ukraynanın da maraqlarına uyğundur. Lakin Ukrayna müharibə vəziyyətindədir və hələlik investisiya qoya bilmir. Beləliklə, sual yaranır: müharibədən sonra yeni enerji arxitekturasında hansı aktor üçün nə qədər yer olacaq və enerji müstəqilliyinə gedən yol, həqiqətən də, sual altındadırmı?

Avropanın qazıntı yanacaqlarından asılılığına son qoymaq proqramının bir istiqaməti dənizdəki külək enerjisindən istifadə ilə bağlıdır. Bu istiqamətdə potensial qiymətləndirmələr son dərəcə əhəmiyyətlidir. Lakin bunun işə salınması üçün bir sıra hüquqi tənzimləmələrin formalaşdırılması, o cümlədən infrastrukturların müəyyənləşdirilməsi, sahildə şəbəkə enerjisi çatdırılma məntəqələrinin yaradılması və ən əsası, dəstək mexanizmi, məsələn, qiymət fərqləri üçün hərraclar və ya müqavilələr tələb olunur. Bu müstəvidə Azərbaycan tranzit ölkədən oyun qaydalarını müəyyən edən regional liderə çevrilir. Eyni zamanda ölkəmiz ənənəvi enerjidən bərpaolunan enerjiyə sürətli keçid yolunu tutub. Azərbaycan külək enerjisi potensialı üzrə dünyada ikinci yerdədir. Bu, Avropa ilə münasibətlərdə hər iki tərəf üçün maraq kəsb edən amildir.

Avropanın Global Gateway layihəsi aktuallaşıb. Bunu Qara dənizdə ən son baş verən proseslərlə də bağlamaq lazımdır. Belə ki, Global Gateway çətiri altında təhlükəsizlik, enerji, nəqliyyat və "yaşıl transformasiya" amilləri bir araya gətirildi. Buraya şərq-qərb və cənub-şimal arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, təchizat zəncirlərinin bərpası, Rusiya enerji mənbələrindən asılılığın azaldılması və öz resurslarının, infrastrukturunun inkişaf etdirilməsi daxildir. "Cənub qaz dəhlizi"nin genişləndirilməsinə paralel olaraq, Aİ Cənub Şərqdən Mərkəzi Avropaya qaz gətirmək üçün Şaquli dəhlizi (Yunanıstan-Bolqarıstan-Rumıniya-Macarıstan-Slovakiya-Moldova-Ukrayna) dəstəkləyir. Məqsəd sadədir - REPowerEU (Aİ-nin yenidən gücləndirilməsi) ruhunda enerji təhlükəsizliyini artırmaq və idxaldan asılılığı azaltmaq. Aİ həmçinin Rumıniya ilə Gürcüstan arasında sualtı yüksəkgərginlikli birləşdirici - Qara Dəniz Sualtı Kabeli (BSSC) layihəsini hazırlayır. Bu layihə "yaşıl elektrik enerjisi" üçün yeni bir "ox" yaradır və sistemlərin dayanıqlığını gücləndirir. Xətt Gürcüstan və Rumıniyanı birləşdirəcək və Cənubi Qafqazdan Avropaya bərpaolunan enerji ixracı üçün dəhliz yaradacaq.

Dənizdə paralel olaraq dəniz külək strategiyası da tətbiq olunur: Aİ 2030-cu ilə qədər 60 GVt və 2050-ci ilə qədər 300 GVt hədəfləyir. Qara dənizin özü də ən böyük potensiala malik ilk beş hövzə arasındadır. Son baş verən hadisələr də bununla bağlıdır. Minatəmizləmə məsələsini əsas tutaraq söyləmək lazımdır ki, buna görə Aİ Azərbaycana bu məqsədlə 23 milyon avroya qədər yardım etməyə hazır olduğunu bildirir. Aİ mövcud durumu tarixi fürsət kimi görür ki, bundan istifadə etməklə Rusiyaya uduzmamaq və asılı qalmamaq üçün regionlarda, Mərkəzi Asiyada, Cənubi Qafqazda genişlənə bilsin. Ukrayna ilə bağlı məsələlərdə kənarda qalması Aİ-nı buna daha da vadar edir.

Rusiya-Ukrayna müharibəsində hələ ki, atəşkəs görünmür. Aİ bilir ki, Rusiya resurslarından asılılığın birdən-birə azaldılması mümkün deyil. Bu baxımdan regional siyasətini genişləndirir. Digər tərəfdən ABŞ Rusiya ilə maraqlarını uzlaşdırmır. Elə sırf Cənubi Qafqaz üzərindən baxdıqda ABŞ Rusiyanın TRIPP-i ən azından maksimum sıxışdırmaq cəhdlərini görür. Bu baxımdan Ukrayna sadəcə Aİ üçün sipər yox, ABŞ üçün də qalxandır. Ən son keçirilən beşsaatlıq danışıqlarda nəticə alınmaması da bunu sübut edir. Aİ buna görə də Rusiyanın Ukraynadakı Azərbaycanın enerji infrastrukturuna qarşı hərəkətlərini son dərəcə pislədi.

Azərbaycan Trans-Xəzər Nəqliyyat Dəhlizi boyunca əsas tərəfdaşdır. Hətta Aİ-nin genişləndirmə üzrə komissarı Marta Kos bir müddət öncə müsahibəsində bildirmişdi ki, Aİ-Azərbaycan iqtisadi əməkdaşlığını gücləndirmək və investisiyaları artırmaq imkanlarını araşdırmaq üçün Yüksək Səviyyəli İqtisadi İşçi Qrupu yaratmaq barədə razılığa gəlib. Digər tərəfdən Qara dənizdə baş verən hadisələr Qazaxıstan neftinin daşınması alternativini Novorossiysk limanından Bakı-Tbilisi-Ceyhan üzərinə keçirə bilər. Bütün bunlar Azərbaycanın yürütdüyü nəqliyyat və kommunikasiyaların maksimum şaxələndirilməsi siyasətinin nə qədər uzaqgörən olduğunu göstərir.

44 günlük Vətən müharibəsindən sonra Aİ regionda yaratdığımız yeni reallıqları qəbul etmək istəmirdi. Amma Azərbaycan dövləti öz mövqeyini dəyişmədi və yaratdığımız sülh və əməkdaşlıq gündəliyi dünya tərəfindən qəbul edildi. Bu ilin avqustunda Vaşinqtonda imzalanmış sazişlər və paraflanmış sülh gündəliyi Aİ-ni regionumuzla bağlı baxışlarını dəyişdirməsinə məcbur etdi.

Zəngəzur dəhlizinin Ermənistandan keçən seqmentinin TRIPP layihəsi adlandırılması və bu dəhlzin açılmasında ABŞ-nin israrlı olması Aİ-ni də hərəkətə keçirdi. Təsadüfi deyil ki, qurumun genişləndirmə üzrə komissarı Marta Kos bildirib ki, Aİ Şərqlə Qərb arasında nəqliyyat əlaqəsinin daha yaxşı təşkil edilməsi üçün Azərbaycan, Türkiyə, Ermənistan və Avropadan ibarət dördtərəfli xüsusi qrupun yaradılmasını müzakirə edir. O vurğulayıb ki, Aİ Cənubi Qafqazda nəqliyyat əlaqəsi sahəsində çox iş görə bilər.

Təbii ki, sülh gündəliyimizin beynəlxalq tərəfdaşlarımız tərəfindən dəstəklənməsi vacibdir. Amma Azərbaycan və Ermənistan sülh gündəliyinin inkişaf etdirilməsində və yekun sülh müqaviləsinin imzalanması prosesinə gedən yolda müzakirələrin aparılmasını ikitərəfli formatda həll etməkdədir. Aİ-nin də bu məsələyə dəstək verməsi regionumuza sülh və təhlükəsizliyin gəlişini sürətləndirəcəkdir. Bu gün Zəngəzur dəhlzi (TRIPP) Aİ ilə Çin arasında ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün ən təhlükəsiz və rentabelli marşrut hesab olunur. Bu baxımdan sülh gündəliyimizin Aİ tərəfindən dəstəklənməsi həm də Zəngəzur dəhlizinin (TRIPP) açılmasını sürətləndirəcək.

Bu gün regionumuzda sülh gündəliyinin qorunması, təhlükəsizliyin təmin olunması ABŞ-dən Avropaya və həm də Çinə qədər yerləşən böyük bir coğrafiya üçün maraqlıdır.

*Azər BADAMOV,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini*

# Baş prokuror Nyu Yorkda beynəlxalq antikorrupsiya konfransında iştirak edib

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 2-də BMT-nin Baş Qərargahında keçirilən "Korrupsiyanın ölçülməsinin təkmilləşdirilməsi məqsədilə məlumatların səmərəli istifadə olunması" mövzusunda İkinci Qlobal Konfransda iştirak etmək məqsədilə Nyu Yorkda rəsmi səfərdə olub.**




Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), BMT-nin İnkişaf Proqramı (UNDP) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əsas məqsəd korrupsiyaya qarşı mübarizə fəaliyyətinin effektivliyinin dəyərləndirilməsi üçün alternativ meyarların və yeni metodologiyanın işlənib hazırlanması və müzakirəsi olub.

30-a yaxın ölkənin nümayəndə heyətlərinin, həmçinin müxtəlif beynəlxalq və regional təşkilatların çox sayda təmsilçiləri və ekspertlərinin iştirak etdiyi tədbirin yüksəksəviyyəli seqmentində çıxış edən baş prokuror qeyd edib ki, müasir dövrün əsas bəlalarından olan korrupsiyaya qarşı mübarizənin təsirliliyini təmin etmək üçün onun miqyasının müəyyən edilməsi, başqa sözlə, ölçülməsi ilkin şərtdir: "Lakin bu fəaliyyət sabit, qərəzsiz və obyektiv meyarlara söykənməlidir. Bu sahədə mövcud cari indekslərin bir qismi subyektiv yanaşmalar səbəbindən, eləcə də metodoloji nöqsanlardan qaynaqlanaraq reallığı tam və düzgün əks etdirmir. Odur ki, ölkəmizin ekspertlərinin də yaxından iştirakı ilə hazırlanan yeni metodologiyanın bu boşluğu dolduracağına inanırıq".

Tədbir çərçivəsində baş prokuror və BMT-nin Qanunun Aliliyi və Təhlükəsizlik İnstitutları ofisinin rəhbəri Faisal Shahkar arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı qurumlar arasında əməkdaşlığın perspektivləri, o cümlədən kadrların peşəkar hazırlığı, cinayətin müxtəlif formalarına qarşı mübarizə təcrübəsinin mübadiləsi müzakirə edilib, həmçinin Azərbaycan tərəfindən irəli sürülən konkret layihələrin dəstəkləndiyi bildirilib.

Bundan əlavə, konfrans çərçivəsində baş prokurorla Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos arasında ikitərəfli görüş keçirilib.

Drago Kos Azərbaycan Prokurorluğuna akademiyaya göstərdiyi hərtərəfli dəstəyə görə təşəkkürünü ifadə edib. Öz növbəsində Kamran Əliyev akademiyanın fəaliyyəti dövründə 20-yə yaxın prokurorluq əməkdaşının qurumun magistr proqramlarının məzunu olduğunu, quruma göstərilən mütəmadi maliyyə töhfəsi ilə yanaşı, Azərbaycan Prokurorluğunun bir nümayəndəsinin hazırda akademiyanın İdarəetmə Şurasında təmsil edildiyini, həmçinin bir əməkdaşının qurumun katibliyinə ezam olunduğunu qeyd edib.

Bundan əlavə, görüşdə tərəflər arasında əməkdaşlığın genişləndirilməsi və müxtəlif birgə tədbirlərin təşkili imkanları müzakirə edilib.

Tədbir çərçivəsində həmçinin baş prokurorla Səudiyyə Ərəbistanı, Mərakeş və digər ölkələrdən olan tərəfdaşlar arasında görüşlər keçirilərək qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycan Respublukasının BMT yanında daimi nümayəndəsi Tofiq Musayev də iştirak edib.

Səfər müddətində baş prokuror həmçinin ölkəmizin BMT yanında daimi nümayəndəliyinin heyəti ilə tanış olub, əməkdaşların fəaliyyəti ilə maraqlanıb.

# Türk Dövlətləri Təşkilatının "Xəritəçilik İşçi Qrupu"nun ikinci toplantısı başa çatıb

**Bakı şəhəri dekabrın 2-3-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin "Xəritəçilik İşçi Qrupu"nun ikinci iclasına evsahibliyi edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, həmçinin müşahidəçi qismində Macarıstan və Şimali Kipr Türk Respublikasının geodeziya və kartoqrafiya sahəsinə cavabdeh qurumlarının nümayəndələrinin iştirak etdikləri iclasın əvvəlində tədbir iştirakçıları ölkəmizdə geodeziya və kartoqrafiya sahəsində görülən işləri əks etdirən videoçarxı izləyiblər.

Daha sonra ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılovun, Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Merey Mukajanın, eləcə də TDT-yə üzv ölkələrin nümayəndələrinin çıxışları dinlənilib.

Görüş zamanı həmçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tarixi Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib. Eyni zamanda 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumu - WUF13 üzrə hazırlıq prosesi, gündəlik istiqamətlər və regional əməkdaşlıq imkanları barədə qonaqlar məlumatlandırılıb. İclasda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN), ETSN yanında Geodeziya və Kartoqrafiya Agentliyinin nümayəndələri, digər aidiyyəti qurumların və TDT-yə üzv ölkələrin mütəxəssisləri TDT "Xəritəçilik İşçi Qrupu"nun 30 sentyabr-1 oktyabr 2024-cü il tarixlərində Ankarada keçirilmiş 1-ci iclasında müəyyən edilən hədəflərin icra vəziyyəti, əməkdaşlığın gücləndirilməsi, yeni hədəflərin müəyyənləşdirilməsi və onların həyata keçirilməsi imkanlarını müzakirə ediblər.

Tədbir panel sessiyalarla davam edib.

Bununla yanaşı, növbəti 3-cü toplantıya Qazaxıstan Respublikasının evsahibliyi edəcəyi qərara alınıb. Sonda Türk Dövlətləri Təşkilatının Xəritəçəkmə Qurumları Rəhbərlərinin 2-ci Toplantısının Bəyannaməsi imzalanıb.

# ATƏT-in Minsk qrupunun ləğv edilməsi Azərbaycan Prezidentinin liderliyinin nəticəsidir

**"Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupunun nəhayət ləğv edilməsi ATƏT-in tarixinin ən qaranlıq fəsillərindən birinə son qoyur və Azərbaycan Prezidentinin liderliyinin nəticəsidir. Azərbaycan diplomatik səyləri hərbi və təhlükəsizlik istiqamətində peşəkar fəaliyyətlə məharətlə birləşdirərək ölkənin maraqlarını qorumağı bacarıb. Minsk prosesinin haqlı şəkildə diplomatik müstəvidə tamamilə sıradan çıxarılması Azərbaycanın müasir tarixi üçün əsas dönüş nöqtəsi olmaqla yanaşı, Bakının beynəlxalq siyasətdəki mövqeyini də daha da möhkəmləndirir. Prezident İlham Əliyevin təsirli liderliyi ticarət marşrutlarının qorunması və regional təhlükəsizliyin təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır".**



Bunu AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase söyləyib.

O bildirib ki, xüsusilə 2025-ci il avqustun 8-də Prezident İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında Ağ Evdə keçirilən tarixi görüş fonunda ATƏT Minsk qrupunun rəsmi şəkildə bağlanması və ona aid bütün bürokratik strukturların ləğv edilməsi gözlənilən idi: "Həmin görüşdə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi istiqamətində Birgə Bəyannamə imzalandı. Bu hadisə illərlə Azərbaycan barədə yanlış təsəvvürlər yaradan, müxtəlif beynəlxalq platformalarda Fransanın Azərbaycana qarşı qarayaxma kampaniyalarını dəstəkləyən səmərəsiz Rusiya, Fransa və ABŞ diplomatlarından ibarət Minsk qrupunun səssiz şəkildə fəaliyyətini dayandırmasının başlanğıcı oldu. Cənubi Qafqazın iki rəqibi arasında əldə olunan Ağ Ev razılaşması Azərbaycan dövləti üçün tarixi nailiyyətdir və Avropa İttifaqına güclü diplomatik mesajlar verən, Vaşinqtonun Avrasiya və digər regionlarda möhkəmlənən mövcudluğunu təmin edən mühüm trilateral sammit kimi qiymətləndirilir".

"1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün beynəlxalq vasitəçilik mexanizmi kimi nəzərdə tutulmuşdu. Lakin bu platforma üç onillik ərzində Ermənistanın 1988-ci ildən 2020-ci ilin noyabrınadək işğal altında saxladığı Azərbaycan ərazilərində həyata keçirdiyi ərazi iddiaları, işğal siyasəti və genişmiqyaslı minalama fəaliyyətini dayandıra bilmədi. Təhlükəsizlik üzrə beynəlxalq analitiklər Minsk qrupunu zəif, korrupsiyalaşmış, funksional olmayan və bürokratiya ilə yüklənmiş bir struktur kimi xarakterizə edirlər. Onun bağlanması çoxtərəfli təşkilatların nüfuzunun qorunmasına böyük töhfədir. Çünki Minsk qrupu illər ərzində Ermənistanın informasiya müharibəsinin bir alətinə və üçüncü dərəcəli diplomatların formalaşdığı bir məkana çevrilmişdi. 1992-2020-ci illər arasında Minsk qrupu Ermənistanın Azərbaycan ərazilərini işğalına son qoya bilmədi və Ermənistanın işğalçı silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması üçün heç bir real siyasi təzyiq göstərmədi. Beynəlxalq diplomatiyanın bu fəaliyyətsiz elementləri Ermənistan və Azərbaycan arasındakı münaqişənin dondurulması istiqamətində ciddi şəkildə çalışırdı. Beynəlxalq münasibətlər üzrə tədqiqatçı Pedro Eskobar Medina qeyd edir ki, "ATƏT-in Minsk qrupunun rolu illər keçdikcə münaqişəni uzatmağa yönəlmişdi və Cənubi Qafqazda davamlı sülhün təmin olunmasına sıfır töhfə vermişdi", - deyə ekspert əlavə edib.

Peter Tase vurğulayıb ki, Rusiya, ABŞ və Fransanın həmsədr ölkə olaraq strateji maraqları bu münaqişə ilə bağlı narrativin, siyasi diskursun və media gündəminin formalaşmasında mühüm rol oynayırdı: "P.E.Medina bildirib ki, bu açıq şəkildə görünən maraqlar ATƏT-in fəaliyyətini uyğunsuzlaşdırdı, İrəvan rəhbərliyinin Azərbaycan ərazilərində təqribən otuz il ərzində törətdiyi təxribatlara görə məsuliyyət daşımasına mane oldu. Minsk qrupu kollegial və konsensus əsaslı mexanizm kimi fəaliyyət göstərmək iqtidarında deyildi".

P.Tase əlavə edib ki, 1990-cı illərdə və əsrin əvvəllərində Minsk qrupu Ermənistanın atəşkəs pozuntularına, işğal olunmuş ərazilərdəki qeyri-qanuni məskunlaşmalara, eləcə də humanitar və təhlükəsizlik pozuntularına reaksiya vermədi. Qərbli diplomatların korrupsiyalaşmış fəaliyyəti və cəzasızlıq mühiti Ermənistan hökumətinə çoxtərəfli diplomatiya platformalarını zəiflətmək və münaqişəni uzatmaq üçün əlverişli şərait yaratdı.

# Qanunçuluğun aşıladığı yüksək dəyərlər

**Heydər Əliyevin bütün zamanlarda mühüm əhəmiyyət kəsb edən dövlətçilik, konstitusiya, demokratiya, insan haqları, ordu quruculuğu, iqtisadiyyat, mədəniyyət, tarix, vətənpərvərlik, milli münasibətlər və digər məsələlərlə bağlı tarixi çıxışlarının hazırkı dövrdə geniş təhlil olunmasına ehtiyac var. Ulu Öndər çıxışlarında konstitusiyadan irəli gələn məsələlərə hər zaman diqqətlə yanaşmağa və qanunun aliliyini qorumağa çağırırdı.**




Dövlət və qanun həmişə yanaşı mövcud olmuş və inkişaf etmişdir. Dövlət ictimai-siyasi proseslər və tarixi hadisələr nəticəsində meydana gəlir, yalnız sonradan qanunla təsbit olunur. Dövlət yarandığı vaxtdan hüquqla bağlı məsələlərə, o cümlədən ictimai nizam-intizama ehtiyac olmuşdur. Ancaq mənbəyinə, təkamülünə görə üstünlük hakimiyyətə məxsusdur.

Qanunlar ictimaiyyətdə etik normalar əsasında özünü büruzə verir. Düzgün, haqlı və qanuna uyğun olan hər hansı bir əməl qanun və etik normalar kimi göstərilməlidir. Yəni qanun və etik normalar o qədər yaxındır ki, qanunlar dedikdə məhz etik normalar anlaşılır. Etik normalar həm təbii, həm də pozitiv (sivil) hüquqda mövcuddur. Məhz bu baxımdan Ulu Öndərin qanun və qanunçuluq barədə dediyi kəlamları oxuyarkən bir daha etik və mənəvi dəyərlərin şahidi oluruq. O, konstitusiyada təsbit olunmuş müddəaları əsas gətirərək ölkəmizdə hüquqi dövlətin yaradılmasına, insanların hüquqlarının qorunmasına diqqəti yönəldirdi: "Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Dövlət və qanunun nisbəti təkcə siyasi və hüquqi məsələləri deyil, sosial məsələləri də əhatə edir. İnsan ictimai bir varlıqdır. Vətən, ölkə, hakimiyyət, dövlət hər biri insana məxsusdur, insanın dəyəri onun kimliyidir. İnsanın ictimai bir fərd kimi formalaşmasında dövlət və qanunun xüsusi rolu vardır. Çünki vətən, ölkə, hakimiyyət və dövlət hər biri ayrı-ayrılıqda insanın şərəfi, mənliyi və ləyaqətidir. Hər bir fərd məhz bu dəyərlərlə tanınır; insan konstitusiyaya, demokratik prinsiplərə, hüquq qaydalarına və etik normalara nə dərəcədə riayət etməsi ilə seçilir.

Həmçinin qanuni mühitin yaranmasında dövlət hakimiyyəti və onun fəaliyyəti mühüm şərtdir. Dövlət hakimiyyəti o zaman qanuni hesab olunur ki, insanların iradəsini əks etdirsin. Əgər dövlət ictimaiyyətin iradəsi və istəyi ilə yaranırsa, onda həmin dövlət həm strukturda, həm də ictimaiyyət üçün daha faydalı və səmərəli olacaqdır. Ulu Öndər ictimai məsuliyyəti və dövlətçilik prinsiplərini nəzərə alaraq hər bir çıxışında dövlətin xalq üçün olduğunu bildirmişdir: "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" və ya "Dövlətçilik haqqında düşünən adam - həm adi vətəndaş, həm dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir".

Bundan əlavə, dövlətin yaranmasında insanların iradəsini əks etdirən prinsiplər Ulu Öndərin çıxışlarında daha çox özünü göstərir. O hər bir çıxışında konstitusiyaya istinad edərək bu sahədə çalışan vətəndaşların yüksək xüsusiyyətlərə malik olmalarını bildirib: "Qanuna xidmət edən hər bir adam aydın zəkaya, təmiz əllərə və alovlu qəlbə malik olmalıdır".

Ulu Öndər bütün vətəndaşları konstitusiyadan irəli gələn tələblərə tabe olmağa, qanuna riayət etməyə çağırır, həmçinin qanunların riayət olunmasına bütün səyləri ilə çalışacağını və bu yoldan dönməyəcəyini bildirirdi: "Biz hamımız nizam-intizama tabe olmalıyıq, biz hamımız qanuna tabe olmalıyıq, biz hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm". Ulu Öndər həm də hər bir vətəndaşa dövlətin qanunlarına əməl etməyi tövsiyə edirdi: "Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır".

Dövlət və qanunun nisbəti cəmiyyətdə tutduğu dərəcə ilə müəyyənləşir və dövlətin mövcudluğu təkcə adına görə deyil, əsas funksiyasına görədir. Dövlətin hər hansı bir qərarı hüquqa, qanuna və etik normaya uyğun olmalıdır, bunlardan kənar hər hansı bir əmr hədəfə çata bilməz. Daha aydın desək, burada ictimaiyyət və hakim qüvvə nəzərdə tutulur. Yəni dövlət və qanun ictimai-siyasi məfhum olaraq ölkənin etik dəyərlərini əks etdirir, bu dəyərlər həm dövlətin ictimai-siyasi fəaliyyətində, həm də normativ aktlarda mövcuddur. Amma qanunçuluqda etik normalara gəldikdə isə qeyd etməliyik ki, hər bir qanunda etik qayda və normalar mövcuddur. Etik qayda və normalara əsaslanmayan qanunlar əsassız hesab olunur və onun ictimai və hüquqi qüvvəsi olmur. Ulu Öndərin hüquq, qanun, qanunçuluq, dövlətçilik barədə dediyi kəlamları diqqətlə təhlil etsək, şahidi oluruq ki, onun hər bir sözü etik dəyərlər göstəricisidir. Yəni müxtəlif sahələri əhatə edən dərinfikirli kəlamları mənəviyyata, etik normalara əsaslanır.

Ulu Öndərin fikrincə, hər hansı bir hüquq işçisinin hüquq elmində, hüquqşünaslıqda biliyi ilə yanaşı, həm də əxlaqi, mənəvi dəyərlərə malik olması əsas şərtdir. Hüquqşünasın etik dəyərlərə sahib olması təkcə qanunların düzgün işlənmə mexanizmi ilə məhdudlaşmır, bu dəyərlərə sahib olmaq qanunla ictimaiyyət arasında bağlılıq yaradır, bundan əlavə, ictimai kütlə arasında qanunların aliliyinə inam yaranır və bunun da nəticəsində ictimai asayiş təkcə qanunlarla deyil, həm də mənəvi dəyərlər əsasında idarə olunur və qorunur. Heydər Əliyev kimliyindən asılı olmayaraq hər bir vətəndaşın qanunun prinsiplərinə riayət etməsini bildirirdi: "Şəxsiyyətindən, keçmiş xidmətlərindən, adından-sanından asılı olmayaraq hər kəs qanuna tabe olmalıdır. Qanunun aliliyi hamı üçün eyni olmalıdır: adi vətəndaş üçün də, vəzifəli şəxs üçün də, Prezident üçün də".

Ulu Öndərin insan ləyaqətinə verdiyi dəyər cinayət-hüquq siyasətində də özünü açıq-aydın göstərir. İnsan haqlarında ölüm hökmünün ləğv olunması buna sübutdur. Ulu Öndərin təşəbbüsü ilə 1998-ci il fevral ayının 10-da Milli Məclis ölüm hökmünün ləğv edilməsi haqqında qanun qəbul etdi və həmin andan başlayaraq bu qanun qüvvədədir. O, ədalət, azadlıq, humanizm və insanpərvərlik prinsiplərini əsas tutaraq ölüm cəzasının insan ləyaqətinə zidd olduğunu bildirmişdir: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".

Ulu Öndərin fikirlərinə nəzər yetirəndə görürük ki, cəzanın özündə də islah etmək xüsusiyyəti vardır. Cəzanın tərbiyəvi əhəmiyyətlərindən biri də budur ki, insan törətdiyi cinayət əməli barədə düşünür, nəyin düzgün, nəyin səhv etdiyini təkcə ağılla deyil, həm də ruhən, qəlbən anlayır. Cəzanın tətbiq edilməsinin səbəblərindən biri də digər insanları cinayət əməllərindən uzaqlaşdırmaq, ictimaiyyəti baş verə biləcək hər hansı bir cinayətdən xilas etməkdir. Ulu Öndər cəzanın tərbiyəvi əhəmiyyətini qeyd edirdi: "Cəzanın böyük tərbiyəvi əhəmiyyəti var. Əgər bir insan öz cinayətinə, xəyanətinə görə cəzalanırsa, bu, minlərlə insanların belə cinayətlərindən xilas olmasına kömək edir, belə cinayətlərə qoşulmamasını təmin edir".

Ulu Öndər bəzi insanların ölkə daxilində cinayət törədib başqa bir ölkəyə qaçmalarına kəskin münasibətini bildirərək onları vətənpərvərlikdən, insana xas olan üstün keyfiyyətlərdən uzaq hesab edirdi. Onun nəzərində vətəninə, xalqına, dövlətinə bağlı olan insan heç vaxt bu addımı atmaz və belə insanlar xalqın, cəmiyyətin nəzərində nüfuzsuz və yaramaz insanlar hesab olunurlar: "Vətənpərvər, mərd insan əgər şüurlu ya şüursuz hansısa bir cinayəti edibsə, o, vətənindən qaçmamalıdır. Cinayət edib vətənindən qaçan adam xalq, millət, cəmiyyət üçün ən yaramaz və ən nüfuzsuz bir adamdır".

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, Ulu Öndərin dövlət, konstitusiya, qanun və qanunçuluq barədə dediyi hər bir sözü təkcə hüquq-mühafizə orqanlarına aid deyil, həm də ictimai-siyasi mühiti qorumaq, insanların haqlarına ədalətlə, vicdanla riayət etmək mənasını daşıyır. Qanunlarda olan etik, əxlaqi, mənəvi dəyərlər insanı mükəmməl bir varlıq olaraq cəmiyyətə təqdim edir və qanunun aliliyinin qorunmasına səbəb olur. Etik xüsusiyyətlər insan varlığının formalaşmasına, insanın ictimai-siyasi sahədə inkişafına zəmin yaradır. Vətən, ölkə, hakimiyyət və dövlət dediyimiz bu məfhumlar hər biri ayrı-ayrılıqda insanın şərəfi, mənliyi və ləyaqətidir. Çünki hər bir insan tutduğu vəzifəsindən, məqam və dərəcəsindən, milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşı kimi ölkəsinin konstitusiyasına, qayda-qanunlarına necə əməl etməsi ilə seçilir. Buna görə də kimliyindən asılı olmayaraq hər bir vətəndaş bu müqəddəs mühafizə sistemini qorumalı, onun tələblərini yerinə yetirməlidir. Ulu Öndərin söylədiyi tarixi və ibrətamiz sözlər bizim bu günümüz, gələcəyimiz üçün tərbiyəvi əhəmiyyət kəsb edən nəsihətlərdir ki, bunlar təkcə siyasi bir liderin, dövlət başçısının deyil, ən əsası müdrik bir atanın övladlarına vəsiyyətidir.

***Əntiqə PAŞAYEVA,***
***fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# İQTİSADİYYAT

## Sabah Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçiriləcək

**Dekabrın 5-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçiriləcək.**




Tədbirdə təşkilata üzv olan (Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan) və müşahidəçi ölkələrin (Şimali Kipr Türk Respublikası, Macarıstan, Türkmənistan) əmək, məşğulluq, sosial müdafiə qurumlarının rəhbər şəxsləri və TDT-nin rəsmilərinin iştirakı nəzərdə tutulub.

Təşkilata üzv və müşahidəçi ölkələr arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcək iclasın yekununda Birgə Bəyannamə imzalanacaq.

## Koreya Maliyyə Nəzarət Xidməti ilə görüşdə əməkdaşlıq imkanlarından danışılıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımovun rəhbərlik etdiyi nümayəndə heyəti Koreya Respublikasına işgüzar səfər çərçivəsində Koreya Maliyyə Nəzarət Xidmətinin (KMNX) sədri Li Çanjin ilə görüşüb.**

AMB-dən bildirilib ki, görüş zamanı hər iki ölkənin maliyyə sektorunun cari vəziyyəti, bu sahələrdə aparılan islahatlar, eləcə də sektorun inkişafı istiqamətində görülən işlər müzakirə edilib. Bununla yanaşı, bank, kapital bazarı və sığorta sektorlarında texnoloji həllərin və qabaqcıl nəzarət metodologiyalarının tətbiqi barədə məlumat bölüşülüb.

Görüşdə həmçinin Mərkəzi Bank ilə KMNX arasında gələcək əməkdaşlıq imkanları və birgə təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.

# Zərif biznesin real töhfəsi

## Ölkəmizdə təxminən hər üç fərdi sahibkardan biri qadındır

**Bu gün Azərbaycan qadınlarının biznes dünyasında görünməsi təsadüfi hadisə deyil. Müəllimdən tutmuş startap qurucusuna, kənddə bal istehsalçısından tutmuş böyük şirkət rəhbərinə qədər yüzlərlə qadın özünə güvənərək özəl sektorda inamla addımlar atır.**

Hər bir uğurlu biznesin arxasında isə böyük cəsarət dayanır. Azərbaycan qadınları bu cəsarəti özündə taparaq sıfırdan biznes qurur, ailəsinə, cəmiyyətə və ölkəyə dəyər qatır. Onların uğur hekayələri yalnız şəxsi deyil, həm də qadınların potensialına inamın artmasının göstəricisidir.

Adətən "Azərbaycan xanımı" deyəndə göz önünə ailəni bütöv saxlayan dayaqlardan biri olan ana, milli-mənəvi dəyərləri qoruyan cəfakeş qadın gəlir. Lakin bu, qadının iş dünyasındakı fəaliyyəti ilə ziddiyyət təşkil etmir, əksinə, üstünlüklərini göstərir. Qadının sahibkarlığa marağının artması, üstəlik də zamanın tələbi olan innovativ və rəqəmsal biznes növlərində fəallığının yüksəlməsi bu sahədə nəzərəçarpacaq dinamikanı göstərir. Azərbaycan xanımının səsi dünyanın hər yerindən gəlir. 20-25 il əvvəlin xanımı ilə bu günün qadını arasındakı fərq onun cəmiyyətin üst pilləsində möhkəm bərqərar olmasındadır. O həm sosial rifahını yüksəldir, ailəsinə dəstək olur, onu ayaqda saxlayır, həm də başqalarının "qolundan tutub" işlə təmin edilməsində rol oynayır. Üstəlik də vergi ödəyicisi kimi dövlətin büdcəsinə xeyir verir.

Qadın sahibkarlığının genişlənməsində təbii ki, dövlətin həyata keçirdiyi dəstək mexanizmləri həlledici rol oynayır. Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən qadınlara güzəştli kreditlərin ayrılması, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) biznes təlimləri, mentorluq proqramları, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin maarifləndirici layihələri qadınların biznesə başlama və fəaliyyətlərini davam etdirmə prosesini asanlaşdıran mühüm tədbirlərdir. Bu dəstək mexanizmləri qadınların iqtisadi fəallığının artması və onların sahibkarlıq mühitinə inteqrasiyası üçün əlverişli şərait formalaşdırır.

Əvvəllər qadın sahibkarlar əsasən məhdud fəaliyyət dairəsində, xüsusilə tibb və təhsil kimi ənənəvi sahələrdə özlərinə yer tapırdılar. Lakin dövran yeniləndikcə qadınların biznes dünyasına baxışları da dəyişib. Bu gün artıq reklam menecmentindən tutmuş rəqəmsal iqtisadiyyata, kənd təsərrüfatının müxtəlif sahələrindən ekoturizmə qədər çox geniş bir spektrdə onların fəal iştirakını görürük. Xidmət sektoru, o cümlədən ticarət, təhsil, qida istehsalı kimi sahələrlə yanaşı, startaplar, dizayn, onlayn ticarət və yaradıcı sahələr qadın sahibkarların ən çox təmsil olunduğu istiqamətlər arasında yer alır. Dövlət Statistika Komitəsinin 2025-ci il yanvarın



1-nə olan məlumatına əsasən, ölkəmizdə məşğul əhalinin 48 faizini qadınlar təşkil edir. Fəaliyyətdə olan fərdi sahibkarların 23 faizdən çoxu qadındır. 2024-cü ildə təsisçisi qadın olan 2800-ə yaxın KOB subyekti qeydiyyatdan keçib. Bu da Azərbaycanda qadın sahibkarlığının inkişaf etdiyini və bundan sonra da irəli gedəcəyini göstərir.

Sovet dövründə mövcud olan sərt çərçivə və ənənələrdən fərqli olaraq, müstəqil Azərbaycanda qadınlar fərdi sahibkarlıq sahəsində öz imkanlarını daha cəsarətlə reallaşdırır və bu yolda kişilərdən heç də geri qalmadıqlarını sübut edirlər. Qadın sahibkarların iqtisadiyyata töhfəsi həm mikro, həm də makro səviyyədə əhəmiyyətlidir. Onların biznes fəaliyyəti bir tərəfdən ailə büdcəsinin güclənməsinə, yoxsulluğun azalmasına və regionlarda məşğulluğun artmasına səbəb olur, digər tərəfdən gender bərabərliyinin möhkəmlənməsinə, sosial inklüzivliyin təmin edilməsinə və cəmiyyətdə yeni, müsbət rol modellərinin formalaşmasına şərait yaradır. Xüsusən kənd yerlərində qadınların iqtisadi fəallığının artması regional inkişafın mühüm dinamikası kimi çıxış edir. Regionların statistikasına nəzər salarkən aydın olur ki, Qazax-Tovuz iqtisadi rayonunda qadın sahibkarların payı 28,2, Naxçıvan Muxtar Respublikasında 26,67, Gəncə-Daşkəsən iqtisadi rayonunda 25,9, Bakıda 24,8 faizdir. Ümumilikdə isə Azərbaycanda hər üç sahibkardan biri qadındır.

Bu statistika onu sübut edir ki, qadınların sahibkarlıq fəaliyyətində iştirakı yalnız böyük şəhərlərlə məhdudlaşmır, həm də regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Regionlarda qadın sahibkarların yüksək faizi onların təşəbbüskar ruhunun, innovativ yanaşmalarının və biznesdə cəsarətli addımlarının nəticəsidir. Beləliklə, müasir Azərbaycan qadınları yalnız ailə və məişətdə deyil, həm də sosial-iqtisadi sahədə fəal rol oynayaraq ölkənin inkişafına real töhfə verirlər. Bu da o deməkdir ki, qadın sahibkarlar cəmiyyətin yenilənən düşüncə tərzinin əsas hərəkətverici qüvvələrindən birinə çevriliblər.

Lakin bir çox qadın sahibkar hələ də kredit və investisiya imkanlarına çıxışda bəzən çətinliklərlə üzləşir. Regionlarda isə onların təlim və mentorluq imkanları kifayət qədər geniş deyil. Sahibkarlıq yolundakı maneələr şübhəsiz ki, qarşıdakı illərdə aradan qaldırılacaq. Çünki qadın sahibkarların təşəbbüslərinin dəstəklənməsi yalnız onların uğuru deyil, həm də ölkənin iqtisadi inkişafı və sosial rifahının yüksəlməsi üçün strateji əhəmiyyət kəsb edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# STEL virtual enerji ötürmə layihəsidir

**Səngəçal Terminalının Elektrikləşdirilməsi (STEL) işğaldan azad olunmuş Cəbrayıl rayonunda tikilən "Şəfəq" Günəş-Elektrik Stansiyası ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəli bir layihədir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq.**

Bunun üçün terminalın ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək. BP şirkəti Səngəçal terminalının operatoru kimi məmnuniyyətlə bildirir ki, STEL layihəsi üzrə tikinti işləri təhlükəsiz və qrafikə uyğun şəkildə irəliləyir. 2028-ci ilin sonunadək terminalın tam elektrikləşdirilməsini təmin etmək üçün indiyədək layihə üzrə üç əsas müqavilə imzalanıb.

Bunlardan biri Mühəndis-layihələndirmə, təchizat və tikinti (EPC) müqaviləsidir. Təxminən 43 milyon dollar dəyərində olan bu müqavilə "Azərenerji"yə verilib. Müqavilənin iş həcminə üç əsas fəaliyyət istiqaməti daxildir: yeni yarımstansiyanın tikintisi, yeraltı kabellərin quraşdırılması və hava elektrik ötürücü xətlərinin çəkilməsi və quraşdırılması. Bu müqavilə çərçivəsində bütün sahələr üzrə inşaat-hazırlıq işləri yekunlaşmaq üzrədir və növbəti mərhələdə avadanlıqların quraşdırılması və kabellərin çəkilməsi işlərinə başlanılması nəzərdə tutulur.

Tikinti və quraşdırma müqaviləsinin dəyəri isə 19 milyon dollardır. Bu müqavilə "Azfen" MMC-yə verilib. Müqavilə üzrə iş həcmi transformatorların, sinxron kompensatorların, cərəyan məhdudlaşdırıcı reaktorların və yeni 110 kV-luq açıq paylayıcı qurğunun quraşdırılması da daxil olmaqla Səngəçal terminalında əsas elektrik infrastruktur işlərini əhatə edir. Müqavilə çərçivəsində terminalda tikinti işləri 2025-ci ilin avqust ayında başlanıb və əsas avadanlıqların quraşdırılması üçün bünövrə işləri daxil olmaqla bir neçə istiqamət üzrə irəliləməkdədir.

7 milyon funt sterlinq dəyərində olan Mühəndis-layihələndirmə və təchizat müqaviləsi SOCAR KBR-a verilib. Bu şirkət müqavilə üzrə müfəssəl layihələndirmə, avadanlıqların tədarükü və təchizat prosesinin idarə edilməsi xidmətlərini göstərəcək. İş həcminə həmçinin tikinti, istismar sınaqları və əməliyyatlara hazırlıq fəaliyyətlərinin planlaşdırılması üzrə dəstək də daxildir. Müqavilə çərçivəsində layihə fəaliyyətləri davam edir və hazırda əsas diqqət müfəssəl mühəndis-layihələndirmə və avadanlıqların tədarükünün sürətləndirilməsi işlərinə yönəldilib.

Xatırladaq ki, STEL layihəsi Səngəçal terminalının operatoru olan BP tərəfindən həyata keçirilir və idarə olunur. Terminalın investorları isə BP, SOCAR, TPAO, LUKOYL, "Cənub Qaz Dəhlizi", NİKO, MOL, İNPEKS, "EksonMobil", İTOÇU, ONGC Videş, "Eni", MVM, və "TotalEnergies" şirkətləridir.

BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə, Yaxın Şərq və Şimali Afrikada layihələr üzrə vitse-prezidenti Mətt Kirkham deyir: "STEL layihəsi çərçivəsində bütün istiqamətlərdə işlərin gedişatından məmnunuq. Layihənin plana uyğun irəliləməsi komandaların yüksək nəticələr əldə etmək və layihəni təhlükəsiz və səmərəli şəkildə icra etmək əzminin göstəricisidir. Bu, çoxsaylı podratçı şirkətlər və müxtəlif komandalar arasında sıx koordinasiya və əməkdaşlıq tələb edən mürəkkəb və bir neçə illik bir layihədir və mən burada iştirak edən hər bir kəsin peşəkarlığı və əzmi ilə fəxr edirəm. Növbəti mərhələlərdə əsas diqqətimiz yenə də təhlükəsizlik, yüksək keyfiyyət və güclü icraya yönələcək ki, bu da terminalın uzunmüddətli əməliyyat mükəmməlliyini dəstəkləyən dayanıqlı enerji infrastrukturunun yaradılmasına imkan verəcək".

Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq. Bu, istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

Layihə üzrə tikinti işlərinin iki mərhələdə başa çatacağı nəzərdə tutulur. Birinci mərhələnin 2027-ci ilin ortalarında, ikinci mərhələnin isə 2028-ci ilin sonunadək yekunlaşacağı gözlənilir. Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faiz azaldılmasına imkan yaradacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dünya Bankının missiyası ilə görüşdə "Məşğulluğa Dəstək Layihəsi"nin icrası işləri müzakirə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" üzrə missiya Azərbaycanda səfərdədir. Dünya Bankının nümayəndələrindən ibarət missiya ilə nazirlikdə görüş olub.**

Görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli mühüm sosial-iqtisadi əhəmiyyətə malik olan özünüməşğulluq proqramının ən yaxşı təcrübələr əsasında genişləndirilməsində "Məşğulluğa Dəstək Layihəsi"nin önəmini vurğulayıb.

Həssas qrupların kiçik biznesə çıxışına imkan yaradan bu layihə üzrə artıq 25 mindən çox şəxsə avadanlıqlar verilməklə, onlar üçün istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatların qurulduğu qeyd edilib.

Dünya Bankının missiyasının rəhbəri Anna Suxova və missiyanın üzvləri layihənin icrası ilə bağlı fikirlərini bölüşüblər. Layihənin icrası üzrə ölkəmizin uğurlu təcrübəsindən bəhs olunub. Beynəlxalq səviyyədə də maraqla qarşılanan bu təcrübənin digər ölkələrdə də nümunəvi təcrübə kimi təqdim olunması məsələləri müzakirə olunub.

Görüşdə "Məşğulluğa Dəstək Layihəsi"nin icrası işləri, bu sahədə növbəti mərhələlər üzrə prioritetlər və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.



## Bu il Dövlət Məşğulluq Agentliyi əlilliyi olan 5500-dən çox şəxsi işlə təmin edib

### Əlilliyi olan 1261 şəxs üçün isə özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları yaradılıb

**Əlilliyi olan şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası tədbirləri ilə yanaşı, onların əmək bazarına çıxışının dəstəklənməsi, məşğulluğunun təminatı istiqamətində də mühüm işlər aparılır.**

Bu işlərin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi cari ildə əlilliyi olan daha 5505 nəfər şəxsi işlə təmin edib.



Özünüməşğulluq proqramının icrasında digər həssas qruplar kimi, əlilliyi olan şəxslərə də üstünlük verilir. Bu il də agentlik tərəfindən əlilliyi olan 1261 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları yaradılıb.

Əlilliyi olan şəxslərin əmək bazarına çıxışının asanlaşdırılması məqsədilə onlar üçün peşə hazırlığı kurslarının təşkili həyata keçirilir. Agentlik tərəfindən Azərbaycan Karlar Cəmiyyəti, Gözdən Əlilliyi olan Şəxslər Cəmiyyəti, digər müxtəlif təşkilatlar, ictimai birliklər və işəgötürənlərlə əməkdaşlıq edilməklə əlilliyi olan şəxslər üçün peşə hazırlığı kursları təşkil olunur.

Cari ildə əlliliyi olan 458 nəfər şəxs peşə kurslarına cəlb olunub. Kursları başa vurmuş şəxslərin işlə təminatına da dəstək göstərilib.

# Yeni təşəbbüslər, yeni marşrutlar

## Azərbaycanın logistik imkanları genişlənəcək

**Azərbaycan bu gün hətta dünya logistikasında vacib ölkəyə çevrilib. Biz artıq Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda iştirakçı deyil, qərarverici ölkəyik. Azərbaycan hər iki qlobal marşrutda yükdaşıma dinamikasının daha yüksək olması üçün vaxtaşırı səmərəli təkliflərlə çıxış edir.**





Ölkəmizin bu istiqamətdə apardığı məqsədyönlü siyasət partnyorlarımız tərəfindən də yüksək qiymətləndirilir. O səbəbdən bir çox məsələdə koordinator kimi Azərbaycanı gördüklərini etiraf edirlər. Yeri gəlmişkən qeyd edək ki, belə qurumlardan biri olan və mənzil-qərargahı Bakıda yerləşən "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının qeydiyyata alınması üzrə hüquqi prosedurlar tamamlanıb və qurum Azərbaycan qanunvericiliyinə uyğun şəkildə rəsmən qeydiyyatdan keçib. "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov bununla bağlı bildirib ki, Çin-Avropa istiqamətində yükdaşımaların artdığı bir vaxtda marşrutların şaxələndirilməsi xüsusi əhəmiyyət kəsb edir və Avrasiya Nəqliyyat Marşrutunun fəaliyyətinin tam təmin edilməsi bu baxımdan strateji əhəmiyyət daşıyır.

Orta dəhlizin cənub qanadı hesab edilən Avrasiya Nəqliyyat Marşrutu Çin, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən mühüm nəqliyyat arteriyasıdır. Noyabr ayından Çinin Qaşqar şəhərindən Azərbaycana Qırğızıstan, Özbəkistan və Türkmənistandan keçməklə multimodal daşımalara başlanılıb. Onu da nəzərə çatdıraq ki, yeni Özbəkistan-Qırğızıstan-Çin dəmir yolunun tikintisi marşrutun əhəmiyyətini daha da artıracaq. Bununla yanaşı, Avrasiya Nəqliyyat Marşrutu Orta dəhlizlə Trans-Əfqan dəhlizi arasında bağlantı yaradaraq Əfqanıstan və Pakistan üçün yeni logistik imkanlar açacaq. Bunlardan əlavə, Orta dəhlizin cənub qanadının inkişafı Azərbaycanın Mərkəzi Asiya ilə Avropa arasında əsas nəqliyyat körpüsü kimi rolunu da gücləndirəcək, tranzit həcmlərinin artmasına imkan verəcək, həmçinin Bakı limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm infrastrukturun səmərəli istifadəsini təmin edəcək. Zəngəzur dəhlizinin (TRIPP) gələcəkdə fəaliyyətə başlaması isə bu imkanları daha da genişləndirəcək.

Bu günlər assosiasiyanın üzvləri olan Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistan dəmir yolu administrasiyalarının rəhbər heyətləri bu qurumun fəaliyyətə başlaması üçün zəruri tədbirləri müzakirə edib və korporativ struktur, katiblik, işçi orqanların formalaşdırılması, eləcə də fəaliyyət planı təsdiq ediblər. Həmçinin Avrasiya Nəqliyyat Marşrutunun inkişafı üçün komitə və dispetçerləşdirmə, infrastruktur, kommersiya, rəqəmsallaşma, marketinq, kommunikasiya və hüquqi məsələlər üzrə işçi qruplarının əsasnamələrinin, eləcə də 2026-cı il üçün marketinq planlarının hazırlanması qərara alınıb. Razılaşdırılıb ki, assosiasiyanın fəaliyyətinin təşkili çərçivəsində marşrut üzrə intermodal daşımaların mövcud vəziyyəti təhlil olunmalı, darboğazlar müəyyən edilməli, İT həllər və rəqəmsal platformalar tətbiq olunmalı, məhdudiyyətlərin aradan qaldırılması üçün plan-qrafik hazırlanmalı və marşrutun davamlı inkişafı təmin edilməlidir. Bununla yanaşı, assosiasiyanın Avrasiya regionunda maraqlı tərəflərlə, o cümlədən Mərkəzi Avropa ölkələri, Çin və Pakistanla əməkdaşlıq əlaqələrinin qurulması, marşrutun beynəlxalq nəqliyyat sahəsində tanıdılması və rəqabət mövqeyinin gücləndirilməsi üçün təşviq tədbirləri zəruri hesab olunub.

Xatırladaq ki, "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası 20 sentyabr 2024-cü ildə Bakıda ADY, Özbəkistan Dəmir Yolları, Qırğızıstan Dəmir Yolları Milli Şirkəti və Tacikistan Dəmir Yollarının iştirakı ilə yaradılıb. Təşkilatın məqsədi tranzit yüklərin cəlbi, inteqrasiya olunmuş logistika xidmətlərinin inkişafı, vahid texnologiya əsasında daşıma proseslərinin koordinasiyası və səmərəli tarif siyasətinin formalaşdırılmasıdır.

Assosiasiyanın Azərbaycana həvalə olunmuş sədrliyi ADY-nin regionda aparıcı operator kimi mövqeyini daha da gücləndirir və Azərbaycanı Orta dəhlizin cənub qolunun bütün marşrutu üzrə tranzitin idarə olunduğu strateji dispetçer mərkəzinə çevirir. Bu isə tarif siyasətinin formalaşdırılması, logistika prosedurlarının standartlaşdırılması, rəqəmsal platformaların inkişafı və beynəlxalq sərmayələrin cəlb olunmasına geniş imkan yaradır.

Regionumuzla bağlı digər mühüm informasiya ölkəmizin təşəbbüsçüsü olduğu Gürcüstan, Azərbaycan, Türkmənistan və Rumıniya beynəlxalq nəqliyyat marşrutu (Xəzər-Qara dəniz dəhlizi) yaratmaq üçün bu ay müqavilə imzalanmasının gözlənilməsidir. Sənədin imzalanması Xəzər və Qara dənizləri birləşdirən yeni beynəlxalq nəqliyyat marşrutunda mühüm irəliləyişə səbəb olacaq. Yeni marşrut Xəzər regionundan Avropa İttifaqına multimodal dəhliz yaradacaq, nəqliyyat əlaqəsini yaxşılaşdıracaq, marşrutları şaxələndirəcək və regional nəqliyyatın dayanıqlığını daha da yaxşılaşdıracaq. Bunun üçün Gürcüstan gələn il Anakliya dərin su limanının tikintisini başa çatdırmaq, lokomotiv və yük donanmasını modernləşdirmək, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun təkmilləşdirilməsini yekunlaşdırmaqla yanaşı, dövlət və özəl sektorlar üçün vahid rəqəmsal xidmətlərin tətbiqi üçün lazımi tədbirlər görəcək.

Onu da vurğulayaq ki, Xəzər dənizi-Qara dəniz beynəlxalq nəqliyyat marşrutu son 15 ildə Asiyadan Avropaya yükdaşımalardan pay almağa çalışan ölkələrin birgə yaratdığı növbəti marşrut layihələrindən biridir. Bu istiqamətdə fəaliyyətə başlamaq üçün qərar 2018-ci ilin oktyabrında ekspertlərin Aşqabadda keçirilmiş görüşündə Azərbaycan, Türkmənistan, Gürcüstan və Rumıniya nümayəndələrinin iştirakı ilə qəbul edilib. Marşrut Xəzər dənizinin Türkmənistan sahilindəki Türkmənbaşı limanından Ələt limanına və buradan dəmir yolu ilə Gürcüstanın Qara dəniz limanlarına, oradan isə yenidən dəniz yolu ilə Rumıniyaya gedir.

Azərbaycanın təşəbbüsü ilə "Şimal-Cənub" marşrutunda dinamikanı artırmaq üçün də mühüm danışıqlar aparılır. Bunun nəticəsidir ki, İran artıq Naxçıvandan keçən dəmir yolu ilə yüklərin daşınmasına başlamağa hazırlaşır. Həmin istiqamətdə İranın dəmir yolları şəbəkəsinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələndirilməsi üzrə müəyyən işlər görülür.

Xəbər verildiyi kimi, Bakıda keçirilən MDB Dəmir Yolu Nəqliyyatı Şurasının 83-cü iclası çərçivəsində Azərbaycan, İran və Rusiya dəmir yolu operatorları arasında üçtərəfli Anlaşma Memorandumu imzalanıb. Sənədin imzalanması uzunmüddətli üçtərəfli əməkdaşlığın inkişafında və "Şimal-Cənub" marşrutunun qərb istiqamətinin effektivliyinin artırılmasında mühüm addımdır. Memorandumda tarif yanaşmalarının uzlaşdırılması, vahid kompleks tarifin formalaşdırılması, müntəzəm blok-qatarların buraxılması və daşımalar üzrə prosedurların təkmilləşdirilməsi nəzərdə tutulur. Bu mexanizmlərin həyata keçirilməsi Rusiya, Azərbaycan və İran arasında proqnozlaşdırıla bilən sürətli və iqtisadi cəhətdən səmərəli logistika zənciri qurmağa imkan verəcək. Ümumilikdə razılaşma tərəflərin beynəlxalq nəqliyyat dəhlizlərində etibarlı iştirakçı kimi mövqelərini gücləndirəcək və regionda tranzit axınlarının davamlı artması üçün əlverişli imkanlar yaradacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Azəristilik" qışa hazır olduğunu deyir

**Havalar mülayim keçsə də, mütəxəssislər bu il qışın sərt keçəcəyi barədə xəbərdarlıq edirlər. Deməli, havaların qəfil dəyişməsi ehtimalı çoxdur.**



Elə əhalinin şikayətləri də bu zaman başlayır. Uzun illərin təcrübəsindən bilirik ki, bir çox dövlət qurumu qışa tam hazır olduqlarını bəyan etsələr də, qar yağanda, şaxta düşəndə bunun əksini görürük və məlum olur ki, verilən sözlə reallıq üst-üstə düşmür. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumatda da bildirilir ki, qurum qışa tam hazırdır və narahatlığa əsas yoxdur. Amma bunun nə qədər doğru olub-olmadığını, necə deyərlər, qışın oğlan çağında görəcəyik.

İndi isə "Azəristiliktəchizat"ın bu barədə məlumatına nəzər salaq. Məlumata görə, 3800 yaşayış binası, o cümlədən təxminən 185 min mənzil, eləcə də 449 təhsil müəssisəsi, 152 səhiyyə obyekti, 2500 sosial və təsərrüfat obyekti mərkəzləşdirilmiş qaydada istiliklə təmin edilmişdir. Bu obyektlərə ASC-nin balansında olan 550 qazanxana xidmət göstərir.

Qurumun mütəxəssisləri tərəfindən 1000 kilometrdən artıq magistral və məhəllədaxili xətlər payız-qış mövsümünə hazırlıq çərçivəsində hidravlik tezliklə dəfələrlə yoxlanılıb, aşkarlanan problemlər, axıntı, qəza riskləri müəyyən edilərək aradan qaldırılıb, bütün qazanxanalar tam işlək vəziyyətə gətirilib.

Ancaq müxtəlif ərazilərdə bir neçə bina var ki, orada ödəniş haqqı aşağı səviyyədədir. Hətta kütləvi şəkildə abunə haqqını ödəməmə halı var ki, bu səbəbdən də həmin ərazilərdə mərkəzləşdirilmiş qaydada istiliklə təminat müvəqqəti olaraq məhdudlaşdırılıb.

*R.MÜTƏLLİBOV,*
*"Azərbaycan"*

# Rusiya və Azərbaycan birgə çay-dəniz tankerləri tikməyi planlaşdırır

**"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı Rusiya üçün strateji prioritetdir və qarşıdakı illər üçün əsas infrastruktur layihələrindən biridir.**

AZƏRTAC Rusiya İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, bu barədə nazir Maksim Reşetnikov VTB-nin "Rusiya çağırır!" investisiya forumunda bildirib.

O, qeyd edib ki, "Şimal-Cənub" dəhlizi çərçivəsində 100-dən çox konkret layihə həyata keçirilir. Onun sözlərinə görə, bu istiqamət Rusiyanın tranzit potensialını əhəmiyyətli dərəcədə gücləndirmək və Yaxın Şərq, Mərkəzi Asiya və Hind okeanı regionu ölkələri ilə ticarət əlaqələrini genişləndirmək üçün nəzərdə tutulub.

M.Reşetnikov vurğulayıb ki, Rusiya tərəfi layihəni tam maliyyələşdirmə də daxil olmaqla, bütün zəruri resurslarla təmin edir.

Nazir Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına xüsusi diqqət yetirib. Layihənin Rusiya komponentinə Mahaçqala limanının modernləşdirilməsi, Həştərxanda xüsusi iqtisadi zonanın inkişafı və Volqa-Xəzər kanalının dərinləşdirilməsi daxildir. Paralel olaraq, İran limanlarına birbaşa bərə və konteyner xidməti də daxil olmaqla, tranzit xidmətlər yaradılır. Xəzər regionu üzrə tərəfdaşlar arasında Azərbaycan və Qazaxıstanda yeni layihələr vurğulanıb: Azərbaycan



Ələt limanını, Qazaxıstan isə Aktau və Kurık limanlarını inkişaf etdirir.

Azərbaycanla birlikdə çay-dəniz tankerlərinin birgə tikintisi planlaşdırılır: "Bu, genişmiqyaslı, perspektivli layihələrdir. Xarici şirkətləri birgə işimizdə fəal iştirak etməyə dəvət edirik".

# Azərbaycan neftinin dünya bazarında baha olmasının səbəbi nədir?

**Dünya bazarında neftin qiymətinə nəzər salsaq Azərbaycanda hasil olunan "Azəri Light" markalı neftin həmişə digər markalardan nisbətən baha satılmasının şahidi olarıq. Son dövrlər neftin qiymətinin dünya bazarında ucuzlaşması tendensiyası müşahidə edilir. Azərbaycan neftinin də qiyməti ucuzlaşır. Lakin digər markalara nisbətdə baha satılır. Misal üçün bu gün "Urals" markalı neftin 1 bareli 54,22 dollara, "Brent" 63,18, WTI 59,39 dollara satıldığı halda "Azəri Lighit" 66,22 dollara satılıb.**



AZƏRTAC xəbər verir ki, qiymətdə bu qədər fərqin səbəbi Azərbaycan neftinin keyfiyyətindədir.

Hələ X əsrdə Azərbaycana gələn ərəb səyyahı və alim Əbdül-Həsən əl Məsudi öz qeydlərində yazırdı ki, Azərbaycanda çıxan nefti dəvələrlə Persiya, Suriya və Hindistana aparırdılar: "Burada ağ, sarı və qara rənglərdə neft çıxır".

Sonralar Osmanlı səyyahı Övliyyə Çələbi XVII əsrdə Qafqaza səyahət edərkən Bakıya da gəlib. O yazırdı ki, Bakı ətrafındakı quyulardan iki növ neft çıxarırlar, onlardan biri ağ, digəri isə qara rəngdədir. Həmin dövrdə sənaye olmasa da, neftə böyük tələbat var idi. Neftdən evlərin, karvansaraların işıqlandırılması və isidilməsi üçün istifadə edirdilər. Bunlarla yanaşı, zamanın tələblərinə uyğun olaraq hərbi məqsədlər üçün istifadə olunan neft qiymətli məhsul hesab edilirdi.

Bakı neftinin keyfiyyətli olması barədə rus geoloqu, Balaxanı və Suraxanıdakı neft quyularını kəşf edən Nikolay Voskoboynikovun da qeydləri var. Geoloq Rusiyada hasil olunan neftdən fərqli olaraq Azərbaycan neftini "təmiz neft" adlandırırdı.

Bu gün müasir texnologiyaların vasitəsilə neftin tərkibini asanlıqla öyrənir, onun keyfiyyətini müəyyən edirlər. Hazırda neftin təsnifatına QOST R 51858-2002 standartı tətbiq edilir. Bu standarta uyğun olaraq neft siniflər və tiplərə bölünür. Tərkibindəki kükürdün çəkisinə görə neft - az kükürdlü (0,6 faiz), orta kükürdlü (1,8 faiz), yüksək kükürdlü (1,81 faiz) və xüsusilə yüksək kükürdlü (3,5 faiz) siniflərə bölünür. Sıxlığı və tərkibindəki parafinin çəkisinə görə isə neft 5 tipə bölünür. Bunlar xüsusi yüngül, yüngül, orta, ağır və bitumlu tipləridir.

Neftin keyfiyyəti onun tərkibindəki kükürd və parafindən başqa, qatran kimi maddələrin miqdarından, rəngindən və yanma xüsusiyyətlərindən asılıdır. Keyfiyyəti qiymətləndirmək üçün laborator analizlərdən əlavə, neftin xarici əlamətləri də nəzərə alınır. Məsələn, rəngi, bərkliyi və ya maye halı.

Yüksək kükürd tərkibi neftin emalı üçün çətinlik yaradır və emalı çox xərc tələb edir. Belə ki, neftin tərkibində kükürd, sulfit turşuları nə qədər çox olursa, həmin məhsul hasilatdan tutmuş emal və digər məhsulların istehsalına qədər olan zəncirin baha başa gəlməsinə səbəb olur. Məsələn, Qazaxıstanın "Kaşaqan" yatağından çıxarılan neft sulfit turşuları ilə zəngin olduğu üçün nəql borularında çox tez aşınmalara, təmir işlərinə böyük həcmdə vəsaitlərin sərf olunmasına gətirib çıxarır. Bundan əlavə, bu neft emalı avadanlıqlarının daha tez sıradan çıxmasına səbəb olur, ondan yüksəkkeyfiyyətli məhsul almaq üçün əlavə texnoloji proseslərin həyata keçirilməsini tələb edir. Elə Rusiyanın "Urals" markalı nefti də keyfiyyətcə Qazaxıstan neftindən ciddi fərqlənmir. Belə neftin emal prosesi həm ətraf mühitə, həm də insan sağlamlığına mənfi təsir göstərdiyinə görə arzuolunmaz hesab edilir.

Azərbaycan nefti isə dünyada kükürd birləşmələrinin ən az olduğu neft markasıdır. Bu neftin hasilat və emal xərcləri digər markalara nisbətən daha aşağıdır, ekoloji baxımdan çox əlverişlidir. Elə bu keyfiyyətlərinə görə Avropa Birliyi ölkələri və ABŞ Azərbaycan neftinin daimi və əsas alıcılarıdır.

Qeyd edək ki, dünya bazarında Azərbaycan neftinə tələbatın artıq olması və 1 barelinin qiymətinin digər markalardan yüksək qiymətə satılmasının səbəbi onun yüksəkkeyfiyyətli olması ilə əlaqədardır.

# Bakı və Abşeron yarımadasında su, kanalizasiya sisteminin yenilənməsi ilə bağlı xüsusi dövlət proqramı hazırlanıb

**Bakı şəhərində sürətli urbanizasiya, əhalinin dinamik artımı və yaşayış massivlərinin genişlənməsi tullantı sularının axıdılmasında müəyyən problem yaradır.**

Belə ki, Bakıətrafı qəsəbələrdə əhalinin sıx məskunlaşması tullantı sularının müəyyən olunmamış yerlərə axıdılması ilə nəticələnir. Problemin həlli istiqamətində xüsusi proqramın icrasına başlanıb. Belə ki, Bakı və Abşeronda müxtəlif istiqamətlərdə irihəcmli daşıyıcı kollektorların tikintisi, eyni zamanda 3 yeni sutənzimləyici qurğu komplekslərinin tikintisi nəzərdə tutulur. Bu layihələrin hər birinin artıq icrasına başlanılıb. Ümumi magistral kollektorların 2027-ci ildə tamamlanması nəzərdə tutulub.

AZƏRTAC-ın sorğusuna cavab olaraq İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən bildirilib ki, Bakı və Abşeron yarımadasında su və kanalizasiya sisteminin yenilənməsi ilə bağlı xüsusi dövlət proqramı hazırlanıb.

"Hazırda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) tərəfindən tullantı su təchizatının yaxşılaşdırılması və yeni infrastruktur təminatı məqsədilə bir sıra irihəcmli layihələr icra olunur. Dərnəgül-Bakıxanov-Qaraçuxur-Hövsan kanalizasiya kollektoru, Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı suları üçün sutəmizləyici qurğu, Müşfiqabad hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı suları üçün sutəmizləyici qurğu, Sahil kollektoru, Zığ-Hövsan kanalizasiya kollektorunun qurulması istiqamətində hazırda müntəzəm tikinti-quruculuq işləri icra olunur", - deyə qurumdan bildirilib.

Qeyd olunub ki, bu layihələrin icrası tullantı sularının idarə edilməsinə, ekoloji vəziyyətinin yaxşılaşdırılmasına və intensiv yağışlar zamanı subasma hallarının qarşısının alınmasına imkan yaradacaq: "Həmçinin İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mərkəzləşmiş tullantı su şəbəkəsi olmayan ərazilərdə ADSEA-nın sifarişi ilə təchizatın qurulması məqsədilə müvafiq layihə sənədləri hazırlanıb. Layihələrin icrası şəbəkənin mövcudluğu, texniki vəziyyəti və digər



amillər nəzərə alınmaqla həyata keçirilir. Yaşayış məntəqələrində tullantı su şəbəkələrinin inşası tədbirlər planına uyğun olaraq mərhələlərlə aparılır".

# Ədəbiyyatımızın və təhsilimizin Kamalı

**Ensiklopedik bilik sahibi olan şəxs elm və həyatın müxtəlif sahələrində geniş, müxtəlif mövzuları hərtərəfli araşdıran böyük alim, ziyalı və nadir insandır. Belə insanlardan biri də Azərbaycan alimi, Xalq yazıçısı, dramaturq, ictimai xadim, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, "Şöhrət" ordenli Kamal Mehdi oğlu Abdullayevdir.**



Görkəmli alim eyni zamanda Türk Dil Qurumunun həqiqi fəxri üzvü, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Gürcüstanın Təhsil Elmləri Akademiyasının həqiqi üzvü, Sofiya Universitetinin ali mükafatı - "Honorary blue rıbbon ınsignia" laureatıdır. Alimin elmi maraq dairəsi dilçilik, ədəbiyyat, türkologiya, mədəniyyətşünaslıq kimi sahələri əhatə edir.

Kamal Abdulla güclü zəkası, möhkəm iradəsi, tədqiqatçılıq bacarığı ilə seçilir. Onun yaradıcılığı çoxşaxəli və rəngarəngdir. Kamal Abdullanın ensiklopedik fəaliyyətinə elmi yaradıcılığı, yazıçılığı, dramaturqluğu daxildir. O, Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyası müdafiə etmiş və doktorluq mövzusu da "Azərbaycan dili sintaksisinin nəzəri problemləri"nə həsr olunmuşdur. Kamal Abdulla müasir ədəbiyyatımız və dilçiliyimiz üçün çox qiymətli "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox" kimi romanların, çoxsaylı hekayələrin, şeir kitablarının, "Gümüş dövrün sirləri" (poetik tərcümələr), "Labirint" hekayələr toplusunun, "Casus" və "Beyrək" kimi dram əsərlərinin, "Üç yüz azərbaycanlı", "Düma ilə Coys arasında" adlı ədəbi-tənqidi esse kitablarının müəllifidir. "Kitabi-Dədə Qorqud" poetikasına giriş" kitabını isə Kamal Abdullanın çoxillik (təxminən 30 ildən artıq) linqvopoetik və bədii-poetik araşdırmalarının, böyük tədqiqatçılıq təcrübəsinin məntiqi nəticəsi hesab etmək olar.

Alim "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" monoqrafiyasında Azərbaycan dili sintaksisinin indiyə qədər tədqiqat obyekti olmayan bir sıra nəzəri, eyni zamanda bəzi praktik məqamları təhlil obyekti seçmişdir. Burada Azərbaycan dilində cümlənin quruluşunun təşəkkül tarixi "Kitabi-Dədə Qorqud" dastanının dilindən başlayaraq, XX əsr ədəbi dilimizin ədəbi-bədii nümunələri əsasında izlənilir, alınan elmi nəticələr dünya dillərində cümlənin təşəkkül tarixi kontekstində şərh olunur. Əsərdə Azərbaycan dilçilik elmində ilk dəfə olaraq mürəkkəb sintaktik bütövlərdən bəhs olunur və bu istiqamətdə müəllifin apardığı dərin elmi araşdırmalar monoqrafiyada öz əksini tapır.

Kamal Abdulla həm dilçilik, həm də ədəbiyyatşünaslıq sahələrində fundamental əsərlər yazan görkəmli filoloq alimdir. Onun bədii yaradıcılığı Azərbaycan və dünya tənqidində postmodern ədəbiyyatın, intellektual nəsrin bariz nümunələridir. Müəllifin "Sirlərin sərgüzəşti" romanı, "Tarixsiz gündəlik" povesti və müxtəlif illərdə yazdığı hekayələri diqqəti xüsusilə cəlb edir. "Sirlərin sərgüzəşti" romanı 2019-cu ildə "Ədəbiyyat qəzeti"ndə hissə-hissə dərc edilmiş, sonra "Azərnəşr"də kitab şəklində işıq üzü görmüşdür. Roman polifonikliyi ilə müxtəlif zamanların mənəvi əlaqəsinin qırılmazlığından bəhs edir. Roman ayrı-ayrı zaman və məkanlarda yaşayan insanların mənəvi-psixoloji dialoqları üzərində qurulub. Bu dialoqlar fonunda baş verən şəxsi və ailə faciələri romanı gözlənilməz situasiyalarla zənginləşdirir və oxucu üçün daha maraqlı edir. "Tarixsiz gündəlik" povesti müəllifin orta məktəb xatirələrinin melanxoliyasının anoxronik təsviridir. Povest rus və bolqar dillərində də işıq üzü görüb.

Kamal Abdullanın "Yarımçıq əlyazma" romanında oğuz igidlərinin psixoloji portretlərinin qeyri-ənənəvi modellə cilalanması, obrazların mənəvi keyfiyyətlərinin incə çalarlarınacan qabardılması personajların əzəmətini artırır, mətnin həyati cizgiləri qüvvətlənir. Yazıçı təxəyyülünün dərinliklərində gizlənən mifopoetik struktur və bədii-fəlsəfi qənaətlər "Sehrbazlar dərəsi" romanında obrazların təsvirində ortaya çıxır, personajların psixoloji cizgilərinin ustalıqla açılması insan xislətini bütün ziddiyyətləri ilə üzə çıxarır, sərt həyat həqiqətlərini anlamağa kömək edir. "Unutmağa kimsə yox..." romanında yeni qəhrəman axtarışlarının uğurlu həlli milli xarakterin orijinal təmsilçilərini ortaya çıxarır. Əsərin aparıcı surətləri müstəqillik dövrü Azərbaycan nəsrində monumental obrazlar kimi səciyyələndirilir, idraki-intellektual çalarlarla cilalanan Bəhramın müdrik əyalət insanı kimi təqdimi bədii gerçəkliyin yeniləşməsinə xidmət edir.

Kamal Abdullanın hekayələri mövzu zənginliyi və problematika baxımından, həmçinin arxitektonikasına görə özlüyündə müxtəlif qruplarda birləşir. Bəzi hekayələr qədim mifoloji mətnlərdən, bəziləri müasir insanların həyatından, bəziləri isə sirli qəhrəmanların real, yaxud irreal məkanda səyahətindən bəhs edir. Hekayələrdəki xronotopların rəngarəngliyi oxucunu təəccübləndirir və onu gözləmədiyi vəziyyətlərlə üz-üzə qoyur.

"Şah və şair" əsərinə hər bir oxucu və tamaşaçı valeh olur. Tamaşanın fabulası, məzmun və ideyası da ən azı "Casus" pyesi, "Yarımçıq əlyazma" romanı və təbii ki, "Şah İsmayıl" pyesindən tanış idi. Bu iki əsər arasında xüsusi bağlar vardır. İlk mərkəzləşdirilmiş Azərbaycan dövlətinin qurucusu, klassik poeziyamızın banilərindən olan Şah İsmayıl Xətai obrazları "Yarımçıq əlyazma"da daha sərt və ciddi imtahanla üzləşirlər.

2024-cü ilin martında Kamal Abdullanın yaradıcılığından bəhs edən "Psikanalitik, Arketipsel ve Postmodern Göstergeler Çerçevesinde Kamal Abdullanın romanları" adlı yeni kitab işıq üzü görüb. Kitab Türkiyənin Hacı Bayram Vəli Universitetinin Çağdaş Türk Dialektləri və Ədəbiyyatı Bölməsinin professoru Figen Güner Dilekin rəhbərliyi ilə Fatih Kəskin tərəfindən yazılmış "Kamal Abdullanın romanlarında struktur, mövzu və təhkiyə" adlı doktorluq dissertasiyasının yenidən təşkili ilə ərsəyə gəlib.

Kitabın müəllifi Fatih Kəskin çağdaş ədəbi-nəzəri fikrə, sufizm, buddizm, freydizm, yunqçuluq və s. kimi təlimlərə, ən başlıcası isə özünün söz və sənət duyumuna arxalanıb sistemli şəkildə Kamal Abdulla romanlarındakı incəliklərə varır və inandırıcı fikirlər irəli sürür.

Müasir Azərbaycan ədəbiyyatının sayılıb-seçilən imzalarından biri olan yazıçı Kamal Abdullanın son vaxtlar Avropada, Rusiyada və Türkiyədə çap edilən əsərləri sırasına daha bir kitabı əlavə olunmuşdur. Onun bu günlərdə işıq üzü görmüş "Ruh" adlı kitabında müxtəlif illərdə qələmə aldığı, Azərbaycanda və bir çox xarici ölkə teatrlarında uğurla səhnələşdirilmiş "Kim deyir ki, Simurq quşu var imiş", "Ruh", "Pis kişi", "Yağmurlu gecələr" və "Elə bil qorxa-qorxa" dram əsərləri toplanmışdır.

Kamal Abdulla dramaturgiyasını dialoji, struktur polifoniyası, çeşidli kodlaşdırma sistemlərinin köməyi ilə ərsəyə gələn məna oyunları ilə zəngin səhnə əsərləri fərqləndirir. Ayrı-ayrı tarixi dövrlərin mifopoetik şüurunu və estetik dram təfəkkürünün modern təzahürlərini özündə birləşdirən bu əsərlər məxsusi dili, təsvir və ifadə vasitələri və özəl estetik prinsipləri ilə teatr rejissorlarının diqqət mərkəzindədir.

Kamal Abdullanın "Casus" pyesi sirr və onun açılması üzərində qurulub. Əsərdə Dədə Qorqud obrazı hadisələrin axarını istiqamətləndirir. O, Oğuz tayfaları arasında casusluq edənin kim olduğunu Qazan xana söyləyir. Ancaq Boğazca Fatmanı da məsələdən xəbərdar edən özü olur. Dədə Qorqud Oğuzun təəssübkeşi kimi çıxış edir. Məhz bu səbəbdən casusun kim olduğunu desə də, digər tərəfdən məsələyə insani mövqedən yanaşır. Boğazca Fatmanı casus oğlunun başına gələcək fəlakətdən xəbərdar edir, ona ölümdən xilas yolunu göstərir.

Kamal Abdullanın "Bir, iki, bizimki" pyesi iki fərqli dünya insanının söhbəti, bir-birinə təmassız toxunuşları, ehtirası, sevgisi, peşmanlığı, əsəbi, mübahisəsi, yenə də qovuşmaq arzuları üzərində qurulub. Onların dialoqu kişinin xarakteri, kimliyi haqqında geniş düşüncələr yaradır. Bu iki nəfər bir-birini eşitmək istəyir, amma eşitmir, görmək istəyir, amma görmür, duymaq istəyir, amma duymur. Bütün ömürlərini öz ağuşuna alan faciə də məhz budur: bir-birini sevən, bir-birinə can atan insanların bir-birinin dünyalarındakı ayrılıq. Elə birinin ölü, o birinin diri olması da simvolikdir. Müəllif Kamal Abdulla pyesi 5 şəkildən ibarət, bir-birini anlamaq istəyən və anlamayan, tapmaq istəyən və tapmayan iki nəfərin duyumlar dramı kimi təqdim edir.

2025-ci il aprelin 17-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Kamal Abdullanın müəllifi olduğu "Bir, iki, bizimki" tamaşası nümayiş olunub. SABAH qruplarının rejissorluq ixtisası III təhsil ili tələbəsi Ülvi Məmmədlinin quruluşunda ərsəyə gələn səhnə işi postmodern estetikanı və müasir teatr dilini uğurla bir araya gətirərək tamaşaçılarda dərin təəssürat yaradır. Tamaşada tələbələr - Samirə Xanlarova (qadın), Rəşad Dadaşov (kişi), Əsmər Həbibli (qız səsi), Yusif Vəlizadə (oğlan səsi) iştirak ediblər. Tamaşanı şəxsən izləyən Kamal Abdulla səhnədə gördüklərindən kövrəldiyini qeyd edib.

2025-ci il okytabrın 27-də Ankara şəhərində akademik Kamal Abdullanın həyat və yaradıcılığına həsr olunmuş türk dünyası yazarlarının simpoziumu həmyerlimizin dünya şöhrəti qazanmasından xəbər verir.

2025-ci il noyabrın 18-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Kamal Abdullanın "Gülçöhrə və Əsgər" adlı tamaşasının premyerasında Özbəkistan və Türkiyədən olan qonaqlarla birlikdə iştirak etdik. Tamaşanın təəssüratından indiyə qədər çıxa bilmirik. Ümumiyyətlə, tamaşaya baxmamışdan əvvəl Kamal müəllimin dəst-xətini gözəl bildiyimizdən təqribən özümüz üçün müəyyən etmişdik ki, əsər mütləq tamaşadan sonra düşündürücü, şüuraltı mesaj verəcək. Gözlədiyimizdən də aktual, maraqlı və çox məntiqli bir səhnə əsəri alınmışdı. Amma səhnənin sonunda bizim bildiyimiz çox xoşbəxt və qayğısız gənclərin bu cür acı taleyi bizi kədərləndirdi. Mən göz yaşlarımı gizlətməyə çalışdım. Amma yanımdakı özbək və türk vətəndaşlarının da göz yaşlarına qərq olduqlarını gördüm. Çünki taleyimiz eyni idi...

XI Qızıl Ordunun, rus imperializminin türk millətinə, mədəniyyətinə və ən sonda ailəsinə vurduğu zərbə olduqca ağrılı və dözülməzdir. Bir ailə faciəsinin ağrısı bütün türk millətlərinin uzun illər yaşadığı çətin dövrün səhnəciyi idi. Yırtıcı imperializm nə qədər çalışsa da, Azərbaycanın milli mənəviyyatını, mədəniyyətini və qürurunu sındıra bilməzdi. Səhnədəki sonluq kimi, acı taleyin ən çətin dövrlərini yaşayan azərbaycanlı ailə sonunda yenə də ayaqda durmağı bacarır. Öz körpələrini Parisdə əsl azərbaycanlı ruhunda böyüdür. Gülçöhrə və Əsgər çox xoşbəxt gəncliyini yaşayırdı. Onların gələcəyə böyük hədəfləri vardı. Gülçöhrə xəyallarında yaşatdığı Parisdə yaşamaq və təhsil almaq istəyirdi. Amma Əsgər Azərbaycan üçün faydalı işlər görmək arzusunda idi. Lakin mənfur düşmən, işğalçı ordu gənc ailənin bütün xəyallarını puç edir. Əsgər canından çox sevdiyi oğlu və xanımını mənfur düşməndən qorumaq üçün Parisə göndərir. Baxmayaraq ki, ailə parçalanır, amma Gülçöhrə və Əsgər əsl azərbaycanlı məfkurəsinə malik, milli düşüncəli bir gənc tərbiyə edə bilir. Budur, əsl sadiqlik, əsl vəfa. Bunların hamısı Gülçöhrə və Əsgərin simasında və bir-birinə olan saf məhəbbətində özünü tapır.

75 yaşı tamam olan akademik, dəyərli insan, görkəmli filoloq-alim, istedadlı yazıçı, şair, dramaturq Kamal Abdulla ensiklopedik bilik və fəaliyyət sahibi kimi Azərbaycandan kənarda da şöhrət qazanmışdır.

***Könül ƏLİYEVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanda əsrlər boyu formalaşmış tolerantlıq mühiti bu gün dövlət siyasətinə çevrilib

**Bakı Slavyan Universitetinin (BSU) Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin müdiri Sofiya Şıqayeva-Mitreska AZƏRTAC-a məxsusi müsahibəsində Azərbaycanın multikultural dəyərlərin təbliği istiqamətində həyata keçirdiyi işlərdən, dövlətimizin mədəniyyətlərarası və dini konfessiyalararası dialoqu təşviq edən təşəbbüslərindən, bu sahədə Bolqarıstan dövləti ilə əməkdaşlıqdan danışıb. Müsahibəni təqdim edirik:**

*- Azərbaycan tərəfindən multikultural dəyərlərin qorunması və təşviqi istiqamətində görülən işləri necə qiymətləndirirsiniz?*



- Mən Azərbaycanın multikultural mühitini daxildən tanıyıram, çünki Azərbaycanda doğulub böyümüşəm. Azərbaycan tatarı olaraq deyə bilərəm ki, biz - müxtəlif millətlər həmişə bir yerdə tolerantlıq və dostluq şəraitində yaşamışıq, bir-birimizin adət-ənənələrinə hörmətlə yanaşmışıq. Qarşımızda olan insanın hansı millətdən olduğu və ya hansı dinə etiqad etdiyi bizim üçün heç vaxt vacib deyildi, insanın özü əhəmiyyətli idi. Buna görə də mənim Azərbaycanın tolerant ölkə olduğunu deməyə tam haqqım var. Azərbaycanın multikultural dəyərlərinin qorunması və onların dünyada təbliği çox mühümdür. Azərbaycanda əsrlər boyu formalaşmış tolerantlıq mühiti bu gün dövlət siyasətinə çevrilib və Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin reallaşdırılmasını uğurla davam etdirir. Bu siyasət strateji ardıcıllıqla qurulmuş bir modeldir və həm regional, həm də qlobal səviyyədə nümunəvi xarakter daşıyır.

Azərbaycan tatar kimliyimi qorumaq, öz dilimi və mədəniyyətimi yaşatmaq üçün ölkədə mənə hər zaman geniş imkanlar verilib. Qeyd etmək lazımdır ki, Azərbaycanda yaşayan müxtəlif etnik və dini icmaların hüquqları, onların mədəniyyətini, dilini və adət-ənənələrini qorumaq azadlığı dövlətimizin 1995-ci ildə qəbul edilmiş əsas qanunu olan Konstitusiya və digər normativ aktlarla təmin edilir.

Ümumiyyətlə, Azərbaycan dini-mənəvi irsə qayğı ilə yanaşan bir ölkədir, bütün dinlərə məxsus ibadətgahlar, o cümlədən məscid, kilsə və ya sinaqoq dövlət tərəfindən qorunur və bərpa edilir. Mədəni irsin qorunmasına dair həyata keçirilən müxtəlif layihələr də Azərbaycan xalqının, bu ərazidə yaşayan bütün millətlərin irsini əhatə edir.

Xaricdə dərs deyərkən mən Azərbaycanın multikultural dəyərlərini tələbələrimə öz nümunəm əsasında təqdim edirəm və bu çoxmədəniyyətlilik sahəsində olan təcrübə onların xüsusi marağına səbəb olur. Mənim nümunəm onlara bu prosesin praktiki tərəfini göstərir və ölkəmizdə mövcud olan müsbət modeli nümayiş etdirməyə imkan verir.

Beləliklə, bu gün Azərbaycan dünyada təkcə tolerantlıq nümunəsi kimi tanınmır, həm də multikultural dəyərləri qlobal məkanda təşviq edən aparıcı aktorlardan biri kimi çıxış edir.

*- Azərbaycan dövlətinin mədəniyyətlərarası və dini konfessiyalararası dialoqu təşviq edən təşəbbüsləri barədə nə deyə bilərsiniz? Eyni zamanda Bolqarıstan ilə bu sahədə əməkdaşlıq necə həyata keçirilir?*

- Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə yönəlmiş dövlət təşəbbüsləri ölkəmizin humanitar diplomatiyasının ən mühüm istiqamətlərindən biridir. Keçirilən təşəbbüslər ölkədə tolerant mühitin qorunmasına və bu sahədə aparılan siyasətə daha çox diqqət cəlb edir, bununla da beynəlxalq müstəvidə Azərbaycan modelini nümunəvi model kimi tanıdır.



Qeyd etdiyim kimi, Azərbaycanın ərazisi həmişə müxtəlif xalqların, dillərin və dinlərin yanaşı yaşadığı məkan olub, aparılan dövlət siyasəti isə bizim bu tarixi ənənələrimizi indiki zamanın tələblərinə uyğun şəkildə davam etdirir.

Bu siyasəti uğurla həyata keçirmək üçün Azərbaycanda 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb və yarandığı gündən bu struktur həm ölkədə, həm də xaricdə, o cümlədən Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində multikulturalizm fənnini tədris edərək elm və təhsilin inkişafına mühüm töhfə verir, bundan əlavə mədəniyyət və din istiqamətində beynəlxalq layihələr də həyata keçirir. Onların arasında Azərbaycanın Bolqarıstandakı səfirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və BSU-nun Sofiya Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin birgə təşkilatçılığı ilə Sofiyada keçirilən "Qafqaz Albaniyasının irsi: Azərbaycanda multikulturalizm ənənələri" mövzusunda fotosərgi və "dəyirmi masa"nı xüsusilə qeyd etmək istərdim. Ən uğurlu layihələrdən biri xarici tələbələr üçün Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil edilən yay və qış məktəbləridir. Tələbələrim bir tərəfdən Azərbaycanın tolerant ölkə olması barədə dərs zamanı məndən eşidirlər, həmçinin özləri şəxsən ölkəmizi ziyarət edəndən sonra öyrəndiklərini praktikada öz gözləri ilə görür və Bolqarıstana qayıdarkən bu məlumatı paylaşırlar, bu da ölkəmizin multikulturalizm modelinin təşviqinin parlaq nümunəsidir.

Son illər ərzində keçirilən Bakı Beynəlxalq Humanitar forumları, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, UNESCO, ICESCO və digər təşkilatlarla mədəniyyətlərarası dialoq sahəsində keçirilən birgə konfranslar və layihələr ölkəmizin mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfəni artırmaqla yanaşı, humanitar sahədə Azərbaycanın etibarlı tərəfdaş kimi öz mövqeyini möhkəmləndirməsinə təkan verir.

Qeyd etmək lazımdır ki, bu forumlar ancaq dövlət başçılarını yox, həmçinin alimləri, mədəniyyət və din xadimlərini bir araya gətirən məkandır. Onlar da öz növbəsində müxtəlif ölkələr arasında humanitar körpü rolunu təşviq edib, qarşılıqlı anlaşmanın və etimadın genişlənməsinə mühüm təsir göstərirlər. Bu təşəbbüslərin hər biri beynəlxalq arenada Azərbaycanın multikulturalizm modelini nümayiş etdirərək ölkəmizi qlobal humanitar proseslərin fəal iştirakçısına çevirir.




*- Azərbaycanla Bolqarıstanın multikultural sahədə əməkdaşlığı necədir, bolqarlar Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasəti necə qiymətləndirirlər?*

- Həm Azərbaycanda, həm Bolqarıstanda müxtəlif etnik və dini icmalar yaşayır, bu baxımdan da müxtəlifliyin və mədəni irsin qorunması hər iki ölkə üçün vacib məsələdir. Azərbaycan və Bolqarıstan arasında multikultural siyasət sahəsində əməkdaşlığın gücləndirilməsi təcrübə mübadiləsi formatında çox aktiv həyata keçirilir. Bolqarıstan rəsmiləri, alimlər və digər yüksəkvəzifəli şəxslər Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil edilən forum və seminarlarda iştirak edirlər. Bu əməkdaşlıq çərçivəsində mədəniyyət və təhsil sahələrində müxtəlif layihələr, elmi konfranslar və mübadilə proqramları da həyata keçirilir. Bu isə ölkələr arasında mədəni dialoqu daha da möhkəmləndirir. Bolqarıstanda Azərbaycan multikulturalizmi fənninin tədris olunduğu zamandan etibarən bolqar akademik dairələri Azərbaycanın multikultural siyasəti barədə daha çox məlumatlıdırlar. Xüsusilə Azərbaycanın etnik və dini azlıqların hüquqlarının qorunması, mədəni müxtəlifliyin təşviqi və tolerantlığın təmin olunması sahəsindəki siyasəti müsbət qiymətləndirilir. Bundan başqa, qeyd etdiyim kimi, Azərbaycanın Bolqarıstandakı səfirliyi, Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi və digər əlaqədar qurumlar tərəfindən Bolqarıstanda təşkil edilən tədbirlər, mühazirələr və "dəyirmi masa"lar bolqar ictimaiyyətinə Azərbaycanın multikultural dəyərlərinin və zəngin mədəni irsinin geniş şəkildə tanıdılmasına mühüm töhfə verir.

Bu sahədə Azərbaycanda keçirilən Beynəlxalq Multikulturalizm Gənclər Forumunu da qeyd etmək lazımdır. Bu forum dünyanın hər guşəsindən, o cümlədən Bolqarıstandan, müxtəlif etnik və din nümayəndələrini bir araya yığaraq onları Azərbaycanın tolerantlıq mühiti ilə tanış edir və bu istiqamətdə dünyagörüşünü zənginləşdirir. Beləliklə, həyata keçirilən fəaliyyət ölkələrimiz arasında ikitərəfli əlaqələri genişləndirir və mədəni müxtəlifliklər sahəsində dialoqu təşviq edir.

# Zəngəzur dəhlizi həm Naxçıvan, həm də İğdır, Qars, Ardahan, Ağrı və Ərzurum üçün böyük iqtisadi imkanlar açır

**"Naxçıvanda olmaqdan duyduğum sevinc və həyəcanı xüsusi ifadə etmək istəyirəm. Qars və İğdır valilərimiz, ticarət palatası rəhbərlərimiz, sektor təmsilçilərimiz və Azərbaycanın Naxçıvandakı dəyərli nümayəndələri ilə birgə çox önəmli bir forum keçirdik".**

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ardahan valisi Hayrettin Çiçek deyib.

O qeyd edib ki, Qarabağın azad edilməsindən sonra yaranmış yeni geosiyasi reallıq, Zəngəzur dəhlizinin önəmi həm Naxçıvana, həm də sərhəd bölgələrinə - İğdır, Qars, Ardahan, Ağrı və Ərzurum vilayətlərinə böyük iqtisadi imkanlar açır.




"Azərbaycan-Türkiyə regional iqtisadi forumları regional əlaqələrin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Sektor təmsilçilərimiz də burada qarşılıqlı tanışlıq imkanı əldə etdilər. Bildiyimiz kimi, İğdırın iş adamları uzun illərdir Naxçıvanla çox yaxşı münasibətlər qurublar. Ardahan, Qars, Ərzurum və Ağrıdan olan iş adamlarımızın da gələcəkdə bu bölgələrdə mühüm yatırımlar həyata keçirəcəklərinə inanırıq. Eyni şəkildə azərbaycanlı iş adamlarının da bölgəmizə sərmayə qoyması üçün çox münbit şərait mövcuddur", - deyə vali əlavə edib.



# Gənclik



● Dövlət siyasəti




**Ölkəmizin sürətli inkişafında vətənpərvər, fəal və məqsədyönlü gənclərimizin rolu danılmazdır. Müstəqillik dövrünün imkanlarından bəhrələnən Azərbaycan gənci yalnız texnologiya və təhsil sahəsində deyil, həm də milli-mənəvi dəyərlərə sədaqət və dövlətçilik ənənələrinə bağlılığı ilə seçilir. Doğma Vətənin tarixi yaddaşına sahib çıxmaq, milli kimliyi qorumaq və onu gələcək nəsillərə ötürmək bu gün gəncliyin üzərinə düşən ən vacib vəzifələrdəndir.**

# Qalib Azərbaycanın vətənpərvər gəncliyi

### Tarixi yaddaşa sədaqət, bu günə ehtiram

Bir xalqın ən böyük səadəti dövlətinin müstəqil olmasıdır. Bu mənada Azərbaycan gəncləri çox xoşbəxtdirlər. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün Azərbaycan gəncləri müstəqillik dövrünün vətəndaşıdırlar: "Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər".

Dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamla Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan olunub. Bu qərar müstəqilliyin əhəmiyyətinin gənclər arasında daha dərindən aşılanmasında, dövlətçilik ideallarının möhkəmləndirilməsində böyük tol oynayır. Sərəncamda bildirilir ki, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illərboyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur: "Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Lakin həmin illərdə Azərbaycan xalqının dövlət müstəqilliyinə nail olmaq uğrunda mübarizəsini istəməyən, suverenliyinə qarşı çıxan qüvvələr Qarabağı münaqişə ocağına çevirdilər. Keçmiş Sovet İttifaqı rəhbərləri erməni quldurlarının Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərini işğal etmələrinə şərait yaratdılar. Otuz ilə yaxın həmin torpaqlar Ermənistanın əsarətində qaldı.

Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulacağı günlərin arzusu və ümidi ilə yaşadı. O günlər gəldi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində Vətən müharibəsi başladı. Azərbaycan gəncləri bu xalqın qəhrəmanlıq, vətənpərvərlik ruhunu yenidən bütün dünyaya nümayiş etdirdilər. Minlərlə gənc könüllü olaraq cəbhəyə yollandı.

44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycan gənci xalqının haqq savaşında hünər göstərməyə, vətən torpaqlarını yağılardan xilas etmək üçün canından belə keçməyə hər an hazırdır. Onlar Qarabağ və Şərqi Zəngəzuru işğalçı Ermənistanın silahlı qüvvələrindən azad etmək üçün şiddətli döyüşlərdə ruh yüksəkliyi ilə iştirak etdilər. Vətənin azadlığı uğrunda mərdliklə döyüşdülər. Göstərdikləri fədakarlıqlarla bu günün və gələcəyin gənclərinə nümunə oldular.

2020-ci ilin noyabrında Prezident İlham Əliyev Azərbaycan xalqını Zəfər xəbəri ilə müjdələdi. Bu böyük Zəfər Azərbaycan gənclərinə qalib xalqın nümayəndəsi kimi qürurla yaşamağın sevincini bəxş etdi, gələcəyə daha inamla baxmağı aşıladı.

### Güclü, sarsılmaz Azərbaycanın bu günü və sabahı

Vətənpərvərlik yalnız döyüş meydanında qazanılan qalibiyyətlə deyil, eyni zamanda elm, təhsil, mədəniyyət və innovasiya sahələrində də özünü göstərir. Müasir Azərbaycan gəncliyi ölkənin elmi-texniki potensialının güclənməsində mühüm rol oynayır. Eyni zamanda gənc rəssamların sərgiləri, musiqi festivalları, ədəbiyyat günləri, teatr layihələri milli mədəniyyətin qorunması və dünyaya tanıdılması baxımından dəyərli təşəbbüslərdir.

Bu gün yüzlərlə gənc beynəlxalq arenalarda ölkəmizi təmsil edir, dünya olimpiadalarında, elmi konfranslarda Azərbaycan adını ucaldır. Onların fəaliyyəti yalnız şəxsi nailiyyət deyil, ölkənin imicinə, beynəlxalq nüfuzuna layiqli töhfələrdir.

Son illər gənclər arasında vətənpərvərlik ideyalarının təşviqi məqsədilə həyata keçirilən dövlət proqramları, layihələr böyük nəticələr verir.

Eyni zamanda geniş vüsət alan könüllülük hərəkatı gənclər arasında həm sosial məsuliyyəti gücləndirir, həm də humanizm dəyərlərini önə çıxarır. "ASAN Könüllüləri", "DOST Könüllüləri", müxtəlif ictimai birliklər və universitetlərin təşəbbüsləri minlərlə gənci bir araya gətirir. Bu tədbirlərdə iştirak edən gənclər cəmiyyətə töhfə verməyin, insanlara yardım etməyin bir vəzifə deyil, mənəvi borc olduğunu dərk edirlər.

Azərbaycan mədəniyyəti yüz illərin süzgəcindən keçərək formalaşmış zəngin irsə malikdir. Bu irsin gənclər arasında təbliği, folklor nümunələrinin öyrənilməsi, milli musiqi və ədəbiyyata marağın artırılması istiqamətində həyata keçirilən tədbirlər gənclərin milli özünüdərkini möhkəmləndirir. Tarixi abidələrin qorunması, mədəni layihələrdə iştirak, eləcə də milli sənətkarlıq nümunələrinin yaşadılması gənclərimizin vətənpərvərlik missiyasının təzahürüdür.

Vətənpərvər gənclik daha da güclü, sarsılmaz Azərbaycanın uğurlu gələcəyi deməkdir. Bu sağlam, müasir olduğu qədər də tarixi keçmişinə, milli dəyərlərinə sıx bağlı olan nəsil öz bilik və bacarığı ilə ölkənin inkişafına töhfə verir, müstəqilliyimizin möhkəmlənməsinə xidmət edir və dövlətimizin nurlu sabahları naminə çalışır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

## Uzun zamandır gözlənilən an gəlib çatdı!

**Minlərlə Azərbaycan könüllüsünün bir araya gələrək həmrəylik, birlik və könüllülük ruhunu yaşayacağı "Azərbaycan Könüllülük Həftəsi 2025"in başlamasına sayılı günlər qaldı.**




Dekabrın 4-dən 18-dək Gənclər Fondunun dəstəyi, Gənclər və İdman Nazirliyi, "ASAN xidmət"in tərəfdaşlığı və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçiriləcək #KönüllülükHəftəsi ölkəmizin bir sıra şəhər və rayonlarını əhatə edəcək.

Layihə çərçivəsində baş tutacaq bütün fəaliyyətlərlə bağlı daha ətraflı məlumat əldə etmək üçün #AKTİ-nin sosial media hesablarını izləyə bilərsiniz.

Sən də Azərbaycan Könüllülük Həftəsinə qoşul, macəra dolu anların və böyük təcrübələrin bir parçası ol!

## Azərbaycanlı məktəblilərin hazırladığı peyk kosmosa göndərilib

**Azərbaycanlı məktəblilərin hazırladığı ilk peyk Kaliforniyadakı Vandenberq Kosmik Qüvvələr Bazasından "SpaceX" şirkətinin "Falcon 9" raketi ilə uğurla orbitə göndərilib.**






AZƏRTAC xəbər verir ki, "AZCON Holdinq"in şirkətlərindən olan "Azərkosmos"un nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın "Milli Peyk İnnovasiya" müsabiqəsi çərçivəsində 7-9-cu sinif şagirdləri tərəfindən hazırlanan bu kiçikölçülü - "PocketQube" tipli peyk artıq kosmosdadır.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov çıxışında bildirib ki, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfərin 5 illiyinə həsr olunan bu peykin adı da "Azərbaycanın Zəfəri"dir: "Bu qürurverici layihə ölkənin təhsil və innovasiya ekosistemində tarixi dönüş nöqtəsi hesab olunur. Azərbaycanın 41 məktəbindən 672 şagirdin iştirak etdiyi proqram regionda məktəblilər arasında həyata keçirilən ən geniş kosmik təşəbbüslərdən biri kimi qeyd olunur".

Zəfər peyki 297 nömrəli məktəbin şagirdləri tərəfindən hazırlanıb. Layihə gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisə kimi dəyərləndirilir.

Qeyd edək ki, "Milli Peyk İnnovasiya" müsabiqəsi KOSMİK Akademiyanın, Braziliya Kosmik Agentliyi və "IDEIA Space" şirkətinin birgə təşəbbüsü, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Təhsil İnstitutu, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilib.

"Azərbaycanın Zəfəri" peykimiz orbitdə baza sınaqlarını həyata keçirəcək, telemetriya məlumatları toplayacaq və şagirdlərə buraxılışdan sonra da peyk əməliyyatları üzərində real təcrübə əldə etmək imkanı verəcək.

Bu buraxılış "Azərkosmos"un yerli istedadların inkişafına, gənclərin innovativ təşəbbüslərinə və dayanıqlı milli kosmik ekosistemin qurulmasına yönəlmiş fəaliyyətinin növbəti mərhələsini təşkil edir.

● Tribuna

# Xoşbəxt gələcək naminə

**Azərbaycan xalqı tarixinin bir çox dönəmində qarşılaşdığı çətin və olduqca mürəkkəb sınaqlardan daim üzüağ çıxmışdır. Son 200 il ərzində qədim türk yurdu olan geniş coğrafiyamızda - Azərbaycanda baş verən böyük tarixi hadisələr, amansız qarşıdurmalar, demoqrafik dəyişikliklər, yadellilər tərəfindən törədilən soyqırımı aktları və işğalla nəticələnən müharibələr bizim müəyyən vaxtlarda fiziki gücümüzü sınaqlara çəksə də, heç zaman əzmkar xalqımızın milli şüurunu və milli iradəsəni zədələyə bilməmişdir.**



Həqiqət qaçılmazdır - əgər bir an belə milli kimliyimizi və milli özünüdərki unutsaq, o zaman məhv olmağa məhkum olacağıq. Azərbaycan torpaqlarını "parçala və hökm sür" siyasəti ilə işğala məruz qoyanlar vaxtilə Araz çayını da iki hissəyə ayırmaqla, ulu əcdadlarımızın davamçıları olan soydaşlarımızı yarımcan buraxdılar. Ancaq mənfur düşmən heç vaxt bizim milli iradə və əzmimizi qıra, qəlbimizdəki Vətən və torpaq sevgisini silə bilmədi. Bütün bunların əsasında milli ideologiyaya əsaslanan milli birlik faktoru dayanır. Ata-babalarımızdan bizə miras qalan milli-mənəvi dəyərləri qorumaq və onu nəsildən-nəslə layiqincə ötürmək vətəndaşlıq borcumuzdur.

Sağlam gənclik olmadan xoşbəxt və firavan gələcəyə çatmaq düşüncəsi sadəcə absurd olardı. Ümummilli Lider Heydər Əliyev söyləyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır". Bəli, cəmiyyətimizin aparıcı hissəsi olan gənclər ana dilimizi, tariximizi, ədəbiyyatımızı və milli-mənəvi dəyərlərimizi dərindən öyrənərsə, bax, o zaman Azərbaycan gəncləri əsl vətəndaş kimi formalaşacaq, milli adət-ənənələrimizə və dəyərlərimizə bağlı yetişəcək və peşəsindən asılı olmayaraq, hər sahədə öz fəaliyyətini dövlətimizin və xalqımızın maraqlarına həsr edəcək.

Bunun üçün öncə valideynlərimizin və müəllimlərin üzərinə çox ciddi məsuliyyət düşür. Əgər ailəmiz bizi tərbiyəli övlad kimi böyüdürsə, deməli, məktəb və müəllimlər də bizi yaşadığımız cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşdırır. Hər iki tərəf - ailə (ata və ana) və müəllim öz üzərinə düşən missiyanı qarşılıqlı hörmət və anlayışlı davranış prinsipləri əsasında həyata keçirsə, mütləq həmin uşaq gələcəkdə sağlam düşüncəli şəxsiyyət kimi cəmiyyətdə öz yerini tutacaq.

Ulu Öndər Heydər Əliyevin müdrik ideyaları əsasında Azərbaycanın maraqlarını layiqincə təmin edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanan Azərbaycan Ordusunun sıralarında döyüşən qəhrəman oğullarımızın mütləq əksəriyyəti gənclər idi. Onlar İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə vətənpərvərlik ruhunda yetişən və cəsarətlə düşməni məğlub edən milli ruhlu gənclər kimi bütün Azərbaycan gəncliyi üçün örnək və nümunədirlər.

Cəsarət, iradə, əzm, fədakarlıq, qəhrəmanlıq və milli ruh Azərbaycan xalqına, gənclərimizə xas əlamətlərdir. O gənclik ki bir tərəfdə Müzəffər Ali Baş Komandanın yürütdüyü siyasətə sadiq şəkildə qədim Şuşanın əzəmətli dağlarına dırmaşıb düşməni əlbəyaxa döyüşlərdə məhv edir, digər tərəfdə informasiya cəbhəsində haqlı mübarizəmizi bütün dünyaya çatdırır, milli mövqeyimizi ictimai və sosial məkanlarda layiqincə təbliğ edirdi. O gənclik ki cəbhəyə yola düşən hərbçi dostlarını, yoldaşlarını böyük ruh yüksəkliyi ilə qələbəyə kökləyir, gücünə güc qatır, eyni zamanda beynəlxalq idman yarışlarında Dövlət bayrağımızı zirvələrdə qürurla dalğalandırır, sağlam gənclik naminə fitri-istedadına güvənib yazdığı əsərlərdə, məzmunlu nitqlərində və xeyirxah əməllərində Azərbaycan gənclərini və yeniyetmələrini maarifləndirir, onların düzgün tərbiyə olunması, elmli, bilikli yetişməsi üçün milli səpkidə çağırışlar edirdi.

Həmin vətənpərvər gənclərin milli missiyası bu gün də davam etməkdədir. Azərbaycanın tarixi şəxsiyyətlərinin, görkəmli ədiblərinin - Babəkin, Cavanşirin, Şəmsəddin Eldənizin, Şah İsmayılın, Heydər Əliyevin, Nizaminin, Nəsiminin, Mirzə Cəlilin, M.F.Axundzadənin, Hüseyn Cavidin, Üzeyir bəy Hacıbəylinin görmək istədiyi gənclik də məhz bu idi. Xalqımızın bu cür gənclərə və gəncliyə hər zaman ehtiyacı var. Sağlam gənclik güclü birlik yaradır ki, elə bu birlikdən də xoşbəxt gələcək doğur. Sağlam əqidəli, düşüncəli, vətənə və dövlətə bağlı yetişmək bir vətəndaşın əsl şəxsiyyətə çevrilməsi üçün mühüm zəmin yaradır. Hər bir fərd öz missiyası ilə özünü dövlət və cəmiyyət üçün faydalı şəxsə çevirdiyi kimi, eyni zamanda faydasız əməlləri ilə özünü adi bir daş parçasından fərqlənməyən lazımsız əşyaya da çevirə bilər. Ona görə də dəyərsiz olmamaq üçün dəyərli yaşamağı, özümüzə və ətrafımızdakılara dəyər verməyi bacarmalıyıq.

Bu gün müasir dünyamızda - elm və texnologiyanın inkişaf etdiyi dövrdə cəmiyyətimizi, xüsusilə gənclərimizi ideoloji və bioloji çərçivədə məhvə aparan səmərəsiz fəaliyyət növləri - sosial şəbəkələrdən səmərəsiz istifadə, mənəvi qidamız olan kitabların həyatımızdan tamamilə çıxardılıb onların smartfon və kompüterlərlə əvəz olunması, qəzet və jurnal oxumaq kimi faydalı vərdişlərimizi faydasız tətbiqlərin üstələməsi, cəmiyyəti ölümə sürükləyən mənasız vərdişlər - narkomaniya, kriminal meyillilik və s. bizim nəinki milli dəyərlərimizi məhv edir, həmçinin gələcəkdə xalqımızın aparıcı təbəqəsi olan gənclərimizin sağlam həyat tərzinin mövcudluğunu ciddi təhlükə qarşısında qoyur. Hər bir gənc özünə, ailəsinə, qonşusuna, ümumilikdə çevrəsində olan bütün insanlara qarşı hörmətlə yanaşmalı, qayğıkeş və vətənpərvər olmalı, böyüklərə və uşaqlara olan münasibətdə nəzakətlə davranmalı, bir sözlə, həm özü, həm cəmiyyəti, həm də dövləti üçün faydalı insantək yaşadığı həyatda örnək sayılan izlər buraxmalıdır.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ ötən əsrin 70-ci illərindən başlayaraq minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almaq üçün göndərilməsi, müstəqilliyin bərpasından sonrakı dönəmdə - 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması dahi şəxsiyyətin Azərbaycan gəncliyinin sağlamlığı və inkişafı naminə verdiyi ən böyük töhfədir. Bu gün Ulu Öndərin siyasətini dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi, istedadlı şəxslərə xüsusi qayğı göstərilməsi, gənclərin sağlamlığı və fiziki inkişafı, gənc ailələrə yardım, gənclərin məşğulluğunun təmin edilməsi və bu sahə ilə əlaqədar fəaliyyət göstərən təşkilatlara dövlət dəstəyinin verilməsi məhz "Gənclər siyasəti haqqında" qanunun icrasının təmin edildiyini göstərir. Hazırda Bakıda və bölgələrdə fəaliyyət göstərən idman olimpiya kompleksləri, gənclər evləri və mərkəzləri, eləcə də digər adiyyəti qurumların hər biri Azərbaycan gəncliyinin sağlam və səmərəli inkişafı naminədir.

Əziz və dəyərli gənclər, gəlin xalqımızın və dövlətimizin sabahını düşünərək bir amal ətrafında birləşək, xoşbəxt gələcək naminə sağlam həyat tərzini seçək. Hər birimiz şüurlu, əxlaqlı, faydalı həyatımızla nümunə olaq. Dövlətimiz öz üzərinə düşən vəzifəni həyata keçirir. Gərək biz də dövlətimizin siyasətinə və Vətənə sadiq şəkildə Azərbaycan gənclərinin doğru yoluna işıq tutmağı bacaraq. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin rəhbərlik etdiyi regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası dünən olduğu kimi, bu gün də gənclərin ictimai siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, beynəlxalq əlaqələrin genişlənməsinə, həmçinin ayrı-ayrı sahələr üzrə böyük layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir və Azərbaycan gənclərini dünyanın ən böyük azərbaycanlısı olan Heydər Əliyevin milli irsinə sadiq şəkildə milli ideoloji ruhda silahlandırır. Ona görə də tam əminliklə və qürurla söyləmək olar ki, məhz belə bir gənclik Azərbaycanın xoşbəxt gələcəyidir! Bizə əmanət edilən bu böyük və dəyərli mirasa birlikdə sahib çıxmalı, dövlətimizin və xalqımızın birliyini, sarsılmazlığını qorumaq üçün üzərimizə düşən vəzifələri vicdanla və məsuliyyətlə yerinə yetirməliyik.

***Tural İSMAYILOV,***
***YAP Yevlax rayon təşkilatının sədr müavini***

BEYNƏLXALQ HƏYAT

# Kreml saytı: "Hələlik kompromis yoxdur"

## Marko RUBİO: "Ukraynanın suverenliyi və müstəqilliyi qorunmalıdır"

**Xəbər verildiyi kimi, ABŞ və Rusiya Vaşinqtonun Ukraynadakı müharibənin həlli planını müzakirə ediblər. Rusiya Prezidenti Vladimir Putin və ABŞ-nin xüsusi elçisi Stiv Uitkoff arasında görüş təxminən 5 saat davam edib. Kremlin bildirdiyinə görə, hələlik kompromis əldə edilməyib.**



Məlum olduğu kimi, Rusiya və ABŞ Kremldə Ukraynadakı müharibənin sülh yolu ilə həlli ilə bağlı danışıqlar aparıblar. Rusiya xəbər agentliklərinin məlumatına görə, görüş təxminən beş saat davam edib və dekabrın 3-də Moskva vaxtilə təxminən saat 00:30-da başa çatıb.

Rusiyanı danışıqlarda Prezident Vladimir Putin, onun köməkçisi Yuri Uşakov və prezidentin xüsusi nümayəndəsi Kiril Dmitriyev təmsil ediblər. ABŞ tərəfi Moskvadakı danışıqlara xüsusi elçi Stiven Uitkoff və Prezident Donald Trampın kürəkəni Cared Kuşner ilə qoşulub.

Yuri Uşakov danışıqlardan sonra jurnalistlərə bildirib ki, Kremldəki görüşdə Ukraynadakı müharibəyə son qoymaq üçün bir neçə variant müzakirə olunub. Onun dediyinə görə, Moskva ABŞ-nin ilkin sülh planından əlavə daha dörd sənəd alıb. Y.Uşakov qeyd edib ki, Vladimir Putin Vaşinqtondan bir sıra təkliflərə qarşı tənqidi və hətta mənfi münasibətini gizlətməyib və əlavə edib ki, görüşdə konkret ərazi məsələləri müzakirə olunub.

Kreml saytı prezident köməkçisinin sözlərinə istinadən yazıb: "Hələlik kompromis tapılmayıb. Lakin bəzi təkliflər az-çox məqbul görünür. Lakin onlar müzakirə olunmalıdır. Bizə təklif olunan bəzi ifadələr qəbuledilməzdir. Yəni iş davam edəcək".

Buna baxmayaraq, Y.Uşakov nümayəndə heyətlərinin görüşünü çox faydalı, konstruktiv və məzmunlu adlandırıb. Jurnalistlərin bu danışıqlardan sonra sülhün daha da yaxınlaşıb-yaxınlaşmadığı barədə sualına o belə cavab verib: "İrəli getmədiyimiz dəqiqdir. Amma həm Vaşinqtonda, həm də Moskvada görüləsi çox iş var".

Y.Uşakovun sözlərinə görə, söhbət tamamilə qapalı və gizli olub və tərəflər danışıqların mahiyyətini açıqlamayacaqlar. ABŞ nümayəndələri Rusiya Prezidenti ilə görüşlərinin nəticələrini şəxsən Donald Trampa bildirəcəklər və bundan sonra əlavə müzakirələr üçün Moskva ilə telefonla əlaqə saxlayacaqlar.

Ukrayna Prezidenti Volodimir Zelenski Kremldəki görüşlə eyni vaxtda "Teleqram"da yazıb ki, müharibənin bitməsi şərtləri ilə bağlı sadə qərarlar gözləmir. O bildirib ki, Kiyev Rusiyadakı danışıqlardan sonra Amerika nümayəndə heyətindən siqnallar gözləyir. "ABŞ nümayəndə heyəti görüşlərdən dərhal sonra birbaşa bizə hesabat vermək istəyir. Növbəti addımlar bu siqnallardan asılıdır", - deyə Zelenski bildirib və Prezident Donald Tramp da daxil olmaqla ABŞ nümayəndələri ilə tezliklə görüşün keçirilməsini istisna etməyib.

Moskva danışıqlarından sonra ABŞ Dövlət katibi Marko Rubio "Fox News" telekanalına verdiyi müsahibədə Ukraynadakı müharibəyə son qoymaq üçün ABŞ və Rusiya arasında danışıqlarda irəliləyiş müşahidə olunduğunu söyləyib. "Bizim çalışdığımız - düşünürəm ki, müəyyən irəliləyişlər əldə edirik - gələcək üçün təhlükəsizlik zəmanətləri verəcək, ölkələrinin bir daha işğal olunmaması üçün ukraynalıların nəyə razılaşa biləcəklərini müəyyən etməkdir. Bu onlara yalnız iqtisadiyyatlarını bərpa etməyə deyil, həm də çiçəklənməyə, böyüyən bir iqtisadiyyata çevrilməyə imkan verəcək", - deyə Dövlət katibi açıqlayıb.

ABŞ diplomatiyasının başçısı hesab edir ki, nəzəri olaraq, hər şey düzgün edilsə, Ukraynanın ÜDM-i 10 il ərzində Rusiyanınkından daha çox ola bilər. Onun sözlərinə görə, Ukrayna və Rusiya hazırda sözün əsl mənasında Donetsk bölgəsinin 30-50 kilometri uğrunda mübarizə aparırlar və başlıca məsələ Ukraynanın uzunmüddətli suverenliyini və müstəqilliyini qorumaqdır ki, o, marionet dövlətə çevrilməsin, əksinə, həqiqətən müstəqil və suveren qalsın: "Biz müharibəni Ukraynanın gələcəyini qoruyan və hər iki tərəfin razılaşa biləcəyi şəkildə bitirməyin mümkün olub-olmadığını anlamağa çalışırıq".


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Azərmətbuatyayımı” ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* **(Tel.: (012) 539-59-33)** *zəng vura bilərsiniz.*


# Donald Tramp yüksəkriskli hesab etdiyi 19 ölkənin vətəndaşlarına sığınacaq verməyəcək

**Amerika lideri Donald Tramp administrasiyası yüksəkriskli kimi təsnif edilən 19 ölkə vətəndaşları tərəfindən təqdim edilən bütün sığınacaq müraciətlərini və immiqrasiya yardımı tələblərini dayandırıb. Bu tədbirlərlə bağlı məlumat ABŞ Vətəndaşlıq və İmmiqrasiya Xidmətlərinin (USCIS) veb-saytında dərc edilib.**



Direktivə əsasən, agentlik işçilərinə "ərizəçinin vətəndaşlığından asılı olmayaraq, bütün I-589 formalarının (sığınacaq üçün ərizə və çıxarılmanın qarşısının alınması) və əlaqəli yardım tələblərinin işlənməsini hərtərəfli araşdırma başa çatana qədər dayandırmaq" tapşırılıb.

Məlum olduğu kimi, D.Trampın iyunun 5-də imzaladığı sərəncama əsasən, Əfqanıstan, Myanma, Çad, Konqo Respublikası, Ekvatorial Qvineya, Eritreya, Haiti, İran, Liviya, Somali, Sudan və Yəmən vətəndaşlarının ABŞ-yə girişi qadağan edilib. Bundan əlavə, ABŞ Burundi, Kuba, Laos, Syerra-Leone, Toqo, Türkmənistan və Venesuela vətəndaşlarına səyahət məhdudiyyətləri tətbiq edib. Bu ölkələr tövsiyədə müəyyən edilmiş "19 yüksəkriskli ölkə" kateqoriyasına daxildir.

Xatırladaq ki, Vaşinqton Polis Departamenti noyabrın 26-da yerli vaxtla təxminən saat 14:15-də Ağ Evin yaxınlığında Milli Qvardiyanın 2 əsgərinə atəş açıldığını və cinayətdə şübhəlinin saxlanıldığını bildirib. FTB direktoru Keş Patel də təkbaşına hərəkət edən şübhəlinin saxlanıldığı barədə məlumat verib. Kolumbiya Dairəsi üzrə prokuror Janine Pirro şübhəlinin 29 yaşlı Əfqanıstan vətəndaşı Rəhmanulla Lakanval olduğunu bildirib. Pirro əlavə edib ki, Lakanval hədəf aldığı qvardiya əsgərinin ölümü ilə əlaqədar birinci dərəcəli qətldə ittiham olunacaq.

Amerika mediası Lakanvalın 15 yaşında Əfqanıstanda Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ilə əməkdaşlığa başladığını və xidmət etdiyi bölmənin hərəkətləri nəticəsində yaranan itkilərə görə narahatlıq yaşadığını bildirib.

ABŞ müharibə naziri Pit Heqset Dominikan Respublikasına səfəri zamanı hücumdan sonra paytaxtda Milli Qvardiyanın sayının artırılacağını və Prezident Donald Trampın göstərişi ilə Vaşinqtona əlavə 500 əsgərin göndəriləcəyini açıqlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Yeni virus dalğası

## Mutasiyaya uğramış qrip ştamı dünyanı narahat edir

**Dünyanın müxtəlif regionlarında artan respirator xəstəliklər fonunda H3N2 qrip virusunun sürətlə yayılması qlobal səviyyədə ciddi narahatlıq yaradıb. Mövsümi qrip virusları hər il milyonlarla insana təsir etsə də, bu il ortaya çıxan H3N2-nin mutasiyaya uğramış subvariantı epidemioloqların diqqətini daha çox çəkir. Onları narahat edən əsas məsələ virusun yaratdığı simptomların şiddəti deyil, yoluxuculuq qabiliyyətinin kəskin artmasıdır.**



Avstraliyada toplanmış nümunələrin analizi virusun bir neçə mutasiyaya uğradığını göstərib. Mutasiyalar virusun insan orqanizmində tanınmasını çətinləşdirərək xəstəliyin daha davamlı və ağır keçməsinə şərait yaradır. Mütəxəssislər bu dəyişikliklərin virusun yayılma sürətini artırdığını, immun sisteminin onu tanıma qabiliyyətini zəiflədə biləcəyini və nəticədə infeksiyanın daha geniş əhali qruplarına yayılmasına şərait yaratdığını bildirirlər.

Mövsümi qrip virusları adətən gözlənilən zamanlarda və müəyyən intensivlikdə yayılır. Lakin bu il Cənub yarımkürəsində qeydə alınan hadisələr göstərir ki, H3N2-nin yeni forması klassik mövsümi modeldən kənara çıxaraq daha erkən və daha sürətli yayılmağa başlayıb. Avstraliyada xəstəlik halları kəskin artdıqdan sonra virus qısa müddətdə digər ölkələrdə də rast gəlinməyə başlayıb. Xüsusilə Yaponiya, Böyük Britaniya və bəzi Avropa dövlətləri virusun yayılma dövrünün əvvəlki illərlə müqayisədə daha tez başladığını təsdiqləyiblər. Tədqiqatçılar bu dalğanın adi qripdən fərqli olaraq daha aqressiv yayılma xarakteri nümayiş etdirdiyini vurğulayıblar. Buna baxmayaraq, virusun ölümcüllük səviyyəsinin artdığına dair elmi sübut hələ ki, yoxdur.

Həkimlər bildirirlər ki, 5 yaşdan kiçik uşaqlar, 50 yaşdan yuxarı insanlar, eləcə də xroniki xəstəlikləri olan pasiyentlər virusun ağır formasını keçirmə riski ilə üzləşə bilərlər. Bu qrupa daxil olan şəxslərdə immun sistemi zəif olduğuna görə, infeksiya daha intensiv simptomlarla müşayiət edilir. Məhz bu səbəbdən mütəxəssislər bu əhali qruplarının xüsusi nəzarət altında saxlanmasını, onların peyvənd olunmasını tövsiyə edirlər. Uşaqlar və yaşlılar üçün qrip virusu yalnız bir infeksiya deyil, həm də potensial həyati təhlükə yaradan bir xəstəlikdir. Peyvəndin qoruyucu təsirinin müəyyən qədər zəifləditi bildirilsə də, vaksinlənmiş şəxslərdə xəstəliyin daha yüngül keçdiyi araşdırmalarla təsdiqlənir. Əslində, vaksin immun sistemini virusun tam qarşısını almaqdan ötrü deyil, onun yaratdığı ağırlaşmalardan qorunmaq üçün hazırlayır.

Virusun simptomları əvvəlki illərdə rast gəlinən respirator infeksiyalarla böyük oxşarlıq təşkil edir. Xəstələr adətən yüksək qızdırma, burun axması, boğaz ağrısı, asqırma, öskürək, güclü halsızlıq və baş ağrıları kimi əlamətlərdən şikayət edirlər. Simptomların koronavirusa bənzəməsi insanlarda fərqləndirmə çətinliyi yarada bilər. Bu səbəbdən mütəxəssislərin fikrincə, hər iki virusla bağlı profilaktik tədbirlərin eyni olduğunu, yəni maska taxmaq, sosial məsafəni qorumaq, əl gigiyenasına riayət etmək və xəstəlik simptomları müşahidə olunduqda evdə qalmaq hələ də ən effektiv qorunma üsuludur. Xəstəliyin yüngül keçdiyi hallarda ev şəraitində istirahət və maye qəbulu kifayət edir. Lakin yüksək risk qruplarında olanların gecikmədən həkimə müraciət etməsi vacib sayılır.

Mütəxəssislərin sözlərinə görə, virus Avropada normadan xeyli sürətlə yayılır və yeni dalğanın yaxın zamanlarda digər regionlarda da geniş müşahidə ediləcəyi istisna olunmur. Bu narahatlıq yalnız mutasiyaların sayı ilə bağlı deyil, həm də qlobal miqyasda insanların qış mövsümündə qapalı məkanlarda daha çox vaxt keçirməsi ilə əlaqədardır. İctimai nəqliyyat, məktəblər, alış-veriş mərkəzləri və digər izdihamlı məkanlar virusun yayılması üçün əlverişli şərait yaradır. Mütəxəssislər bildirirlər ki, virusun ölkələr arasında sürətli yayılması artıq təkcə bir regionun problemi deyil, qlobal səhiyyə təhlükəsi kimi qiymətləndirilməlidir.

Tarixi pandemiyalarla müqayisə aparıldıqda virusun yayılma və mutasiya qabiliyyətinin ciddi nəticələrə səbəb ola biləcəyi unudulmamalıdır. 1968-ci il Honqkonq qripi məhz H3N2 virusu tərəfindən yaranmış və dünya üzrə milyonlarla insanın yoluxmasına səbəb olmuşdu. Bu virus həmin dövrdən bəri mövsümi qrip ştamlarının əsas genetik xətlərindən biri olaraq qalır. Hətta bu gün qarşılaşdığımız H3N2 mutasiyaları onun təkamülünün davam etdiyini göstərir. 1957-ci ildəki Asiya qripi isə H2N2 ştamı ilə əlaqəli idi və qısa müddətdə bütün dünyaya yayılaraq yüz minlərlə insanın həyatına son qoymuşdu. 1918-ci ilin məşhur İspan qripi isə gənc və sağlam insanların belə həyatına təhlükə yaradan yüksək ölüm nisbətinə malik idi və qlobal miqyasda insanlar arasında böyük itkilərə səbəb olmuşdu. Bu tarixi hadisələr virusların mutasiya qabiliyyətinin necə böyük miqyaslı fəsadlara yol aça biləcəyini xatırladır.

Mütəxəssislər bildirirlər ki, pandemiyanın yaranması üçün əsas şərtlərdən biri yüksək yoluxuculuq indeksidir. Hər hansı respirator virus - istər qrip, istər koronavirus, istərsə də digər hava-damcı yolu ilə ötürülən infeksiyalar sürətlə yayıldıqda qlobal təhlükəyə çevrilə bilər. Quş qripi, H5N1 kimi ştamlar keçmiş illərdə Azərbaycanın da daxil olduğu bəzi regionlarda narahatlıq yaratmışdı. O zaman ölkəmizdə infeksiya lokallaşdırılmış və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyilə geniş yayılmasının qarşısı alınmışdı. Lakin virusoloqlar qeyd edirlər ki, gələcəkdə hansı virusun necə mutasiyaya uğrayacağını dəqiq proqnozlaşdırmaq mümkün deyil. H3N2-nin bu yeni forması da belə bir narahatlığın nümunəsidir. Çünki ÜST-nin məlumatına görə, insanlıq qarşıda yeni qrip pandemiyası risklərindən biri ilə üz-üzədir və bu riskin başvermə ehtimalı virusların mutasiya sürəti ilə sıx bağlıdır.

Mütəxəssislərin fikrincə, panikaya ehtiyac yoxdur, lakin laqeydlik daha böyük problemlərə gətirib çıxara bilər. Hər bir fərdin məsuliyyətli davranışı bu dalğanın təsirlərini azaltmağa kömək edə bilər. Dünyanın müxtəlif ölkələrində artan yoluxma hallarından dərs çıxararaq, mövsümi qripə qarşı hazırlığımızı artırmaq və sadə gigiyenik qaydalara əməl etmək olduqca vacibdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək



**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 8-11, gündüz 12-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların qısamüddətli intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq, mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 3-8, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacaq.

# Türkiyədəki zəlzələ zamanı Azərbaycanın yardımını heç vaxt unutmayacağıq

**“Türkiyədə on minlərlə vətəndaşın həyatına son qoyan dağıdıcı zəlzələlərin baş verdiyi zonaların sakinlərinə Azərbaycan tərəfindən göstərilən yardımı biz heç vaxt unutmayacağıq”.**




Bunu AZƏRTAC-a müsahibəsində türkiyəli tanınmış jurnalist, “TRT Haber” telekanalının aparıcısı Fuad Kozluklu deyib.

O bildirib ki, 2023-cü ilin fevral zəlzələləri günlərində yeraltı təkanların episentri olan Kahramanmaraş vilayətinə operativ şəkildə ezam olunub.

“Fəlakət zonasında işə başlayan ilk jurnalistlərdən biri idim. Kahramanmaraşda Trabzon küçəsi ilə Azərbaycan bulvarının kəsişməsindən efirə çıxırdıq. Bakıdan və Azərbaycanın digər bölgələrindən gələn humanitar yardım maşınlarının bitib-tükənməyən karvanlarını öz gözlərimlə gördüm, Azərbaycan xilasedicilərinin fəaliyyətinin şahidi oldum. Bu, iki xalqın həmrəyliyinin görünməmiş nümunəsi idi”, – deyə jurnalist xatırlayır.

F.Kozluklu Azərbaycan hökumətinə və xalqına səmimi təşəkkürünü bildirib.

“Həmin günlərdə bir daha şahid oldum ki, Türkiyə və Azərbaycan bir ürək, bir candır. Biz əməldə bir-birimizin yanındayıq, həm kədərli, həm sevincli anlarda birlikdəyik, çağırışlar və təhdidlər qarşısında çiyin-çiyinə dayanırıq. Bu hər birimiz üçün qürur mənbəyidir”, – deyə türkiyəli jurnalist vurğulayıb.

**Bakı Dövlət Universiteti tərəfindən 1995-ci il 27 sentyabrda İsgəndərov Rövşən Sayilxan oğlunun adına verilmiş AB-IN 026776 seriyalı diplom itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bəxtiyar Sadıqov Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova bacısı

SÜDABƏ HÜSEYNOVANIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2455

Qiyməti 60 qəpik